# 26 İyun Silahlı Qüvvələr Günüdür


RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 131 (9586) 26 iyun 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






# Sülh uğrunda müharibə

## "Dəmir yumruğ"un sülhyaratma missiyası

* Azərbaycan otuz il ərzində Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə ümid bəsləyərək gözlədi.

* Haqqa, ədalətə inanaraq gözlədi.

* Beynəlxalq hüquqa əməl ediləcəyinə inanaraq gözlədi.

* ATƏT-in Minsk qrupunun vəzifə borcunu yerinə yetirəcəyinə inanaraq gözlədi.

* Dünyanın ən böyük təşkilatı sayılan BMT-nin Təhlükəsizlik Şurasının öz qətnamələrinə əməl edəcəyinə inanaraq gözlədi.

**Eyni zamanda gözləyə-gözləyə öz işini görərək, mövqeyini də açıq bəyan etdi!**

**Prezident İlham Əliyev dəfələrlə hamının eşidəcəyi şəkildə bildirdi:**

* Azərbaycan bir qarış torpağını belə heç kəsə güzəştə getməyəcəkdir!

* Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına yol verməyəcəkdir!

**İlham Əliyevin Azərbaycana rəhbərliyinin 20 ili ərzində:**

* Azərbaycan tarixinin ən qüdrətli dövləti səviyyəsinə yüksəldi!

* Dünyada nüfuzu artdı, beynəlxalq qurum və təşkilatlarda onu müdafiə edənlər çoxaldı!

* Özünə güclü ordu yaradaraq onu ən müasir silahlarla silahlandırdı!

* Yeni gənc nəsil, Vətən uğrunda hər an şəhid olmağa hazır əsgər və zabitlər, xüsusi təyinatlılar yetişdi!

* Hücum diplomatiyasından hücum taktikasına keçdi!

**Otuz ildə bütün dünyanın sülh danışıqları ilə həll edə bilmədiyi münaqişəni 44 gündə hünərlə çözərək sülhün yolunu açdı!**

Ancaq Ermənistan və onun havadarları heç zaman unutmamalıdırlar ki, bu Zəfərin arxasında qüdrətli Azərbaycan və onun möhtəşəm ordusu dayanır!

*Ermənistan yaranmış fürsətdən istifadə edərək blokadadan çıxmalı, dövlətçiliyini xilas etməlidir!*

Sözünün sahibi olan cənab İlham Əliyev sözünü deyərək xəbərdarlıqlarını edib!

Adətən, uğursuz sülh danışıqlarından sonra qalibiyyətli hərbi əməliyyatlar gəlir!

**Bu, Müzəffər Ali Baş Komandan İlham Əliyevin taktikasıdır!**

**Həm də dəfələrlə sınaqdan uğurla çıxmış taktikası!**

→ 5

## N.S.Qasımova "Azərbaycanın Milli Qəhrəmanı" adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə Natiq Səlim oğlu Qasımova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilsin (ölümündən sonra).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2024-cü il*

## Prezident İlham Əliyev Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım edib




## Azərbaycan ilə Sloveniya arasında qarşılıqlı faydalı əməkdaşlıq davam etdiriləcək

### Sloveniya Respublikasının Prezidenti zati-aliləri xanım Nataşa Pirts Musara

Hörmətli xanım Prezident.

Sloveniya Respublikasının milli bayramı - Dövlətçilik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Sloveniya münasibətlərinin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq məcrasında inkişafı, qarşılıqlı faydalı əməkdaşlığımızın bundan sonra da davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Sloveniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2024-cü il*

## Vətən sizə əbədi minnətdardır

### Azərbaycan polisi dövlətə və xalqa sədaqətinin növbəti nümunəsini göstərdi

İyunun 24-də Xəzər rayonu Şüvəlan qəsəbəsində baş verən cinayət hadisəsi ölkənin gündəmində ən çox müzakirə olunan mövzuya çevrilib. Daha doğrusu, ölkə ictimaiyyəti məyusluq içərisindədir. Çünki xalq polisini yaxşı tanıyır, onun göstərdiyi xidmətə 24 saat şahidlik edir. Həftə ərzində 7 gün, gün ərzində 24 saat təhlükəsiz yaşamaq istəyən hər bir insan polisə etibar edir və bu etibar hörmətlə, inamla şərtlənir.

Həyatın elə anları var ki, onlar insanın daxilində mənəvi bir öhdəlik yaradır. Ancaq polisin həyatı və xidməti elə bu cür anlardan ibarətdir və bəzən bu, onun həyatı bahasına başa gəlir. Bu şərəfli peşəni seçən hər bir insan özü ilə bərabər doğmalarını da bu riskin çətiri altında yaşamağa məhkum edir.

Doğrudur, hər peşənin bir-birindən fərqli xüsusiyyətləri, üstünlükləri və çətinlikləri var. Bu peşələrin içində polisin xidməti çətinliyi və məsuliyyəti ilə seçilir. İnsan neçə gün yuxusuz qala bilər, neçə həftə istirahətsiz işləyə bilər?!

Amma polis bu yuxusuz gecələri və istirahətsiz həftələri xidməti vəzifə öhdəliyi hesab edir, xalqa və qanuna məsuliyyətlə xidmət edir. Elə bu səbəbdəndir ki, polis işində istirahət anlayışı yoxdur. Onlar gecə-gündüz demədən, qar-borana, qızmar günəşə, sərt küləyə baxmadan yollarda hərəkəti tənzimləyir, ölkəmizi dünyanın ən təhlükəsiz dövlətlərindən birinə çevirirlər.

Ölümləri bahasına da olsa, bir kimsəyə zərər vermədən vəzifə borcunu şərəflə yerinə yetirirlər...

Budur, əsl qəhrəmanlıq...

Budur, Azərbaycan polisinin amalı...

→ 6

## 30 il ermənilərin cəhənnəmə döndərdiyi ərazilərimiz indi cənnətə çevrilir

Dövlət başçısı bu regionun gələcəyinin daha işıqlı olacağını da dedi: "Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq - ən müasir, ən rahat, ən gözəl. Buranın təbiəti, gözəl mənzərələri, yaşıllıqlar, bulaqlar müasir və eyni zamanda ənənəvi üslubda inşa edilən binalarla tamamlanır. Elə bir gözəl şəhər yaradılır ki, əminəm, hər birimiz, hər bir azərbaycanlı bununla fəxr edəcək. Bir daha demək istəyirəm, biz azad edilmiş bütün torpaqlarda genişmiqyaslı proqramları icra edirik. Bu gün artıq Şuşa altıncı yaşayış yeridir ki, keçmiş köçkünlər buraya qayıdırlar. Bu gün eyni zamanda Laçının Sus kəndinə də keçmiş köçkünlərin qayıdışı nəzərdə tutulur və ilin sonuna qədər ən azı 20 yaşayış məntəqəsində artıq həyat bərpa ediləcək".



→ 13

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**3-cü dərəcəli "Rəşadət" ordeni ilə**
Baxşəliyev Azər Yavər oğlu - polkovnik
Mikayılov Elman Müzakir oğlu - polkovnik
Rüstəmov Fariz Məhərrəm oğlu - polkovnik
Baxşəliyev Nizami Fizuli oğlu - mayor
Abdulov İsmayıl Rövşən oğlu - baş leytenant

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Əzizov Ramin Ruslan oğlu - polkovnik
Rüstəmov Elnur Zeynalabdul oğlu - polkovnik
Rzayev Mübariz Mehman oğlu - polkovnik
Əmiraslanov Kamal Həsən oğlu - polkovnik-leytenant
Həsənov Faiq Fazil oğlu - mayor
Bağırov Ülvi Hənifə oğlu - leytenant (ölümündən sonra)
Bayramov Rəsul Hakverdi oğlu - gizir
Abbasov Vüqar Şahban oğlu - kiçik çavuş

**"Vətən uğrunda" medalı ilə**
Hüseynov Müqabil Əziz oğlu - polkovnik
Məmmədov Rüstəm Əziz oğlu - polkovnik
Mirzəyev Təbriz Rəhim oğlu - polkovnik
Rəhimov Qasım Şahid oğlu - polkovnik
Yunusov İbrahim Mirxan oğlu - polkovnik
Abdullayev Fuad Ziyəddin oğlu - polkovnik-leytenant
Ağayev Mübariz Mail oğlu - polkovnik-leytenant
Alıyev Yalçın Zahid oğlu - istefada olan polkovnik-leytenant
Cahangirov Səxavət Əlikram oğlu - polkovnik-leytenant
Əliyev Namiq Elfail oğlu - tibb xidməti polkovnik-leytenantı
Hacıyev Turac Zakir oğlu - polkovnik-leytenant
Hüseynov Rəşad Əli oğlu - polkovnik-leytenant
İsmayılov Fərhad Xudaverdi oğlu - 2-ci dərəcəli kapitan
Qarayev Səbuhi Rauf oğlu - polkovnik-leytenant
Quliyev Elsevər Firdovsi oğlu - polkovnik-leytenant
Verdixanov Amil Sərkar oğlu - polkovnik-leytenant
Yadigarov Rahib Feyri oğlu - polkovnik-leytenant
Babayev Rza Dadaş oğlu - mayor
Hüseynov Elşən Əli oğlu - mayor
Qaffarov Eyvaz İlyaz oğlu - mayor
Nəzərov Firudin Mahir oğlu - mayor
Hudulov Ramazan İzzət oğlu - kapitan
Qasımov Babək Baba oğlu - kapitan
Bağırov Ülvi Hənifə oğlu - leytenant (ölümündən sonra)
Əhmədov Müşviq Gülbala oğlu - istefada olan kiçik gizir
İsmayılov Ayaz Musa oğlu - kiçik çavuş
Qasımov Hacıəli Tahir oğlu - əsgər (ölümündən sonra)

**"İgidliyə görə" medalı ilə**
Məmmədov Emil Rasim oğlu - polkovnik-leytenant
Salayev Natiq Akif oğlu - polkovnik-leytenant
Aydəmirov Mərdan Nadir oğlu - mayor
Hacıyev Eltac Nemət oğlu - mayor
Aslanzadə Ruslan Elman oğlu - kapitan
Ələkbərov Kənan Telman oğlu - kapitan
Bəxtiyarzadə Ramin Mehman oğlu - leytenant
Mustafayev Babək Əkbər oğlu - leytenant
Bədəlov Koroğlu Vaqif oğlu - kiçik çavuş
Quliyev Etibar Yadigar oğlu - əsgər

**"Cəsur döyüşçü" medalı ilə**
Şirinov Kənan Dilqam oğlu - mayor
Zeynalov Mirsadiq Zeynal oğlu - mayor
Babayev Gündüz Ulduz oğlu - baş leytenant
Əmirov Kamal Mənsur oğlu - baş leytenant
Quliyev Yəhya Saleh oğlu - baş leytenant
Rüstəmov Azad Mahir oğlu - baş leytenant
Bəyişov Emil Rövşən oğlu - leytenant
Dadaşov Orxan Fazil oğlu - leytenant
Nəcəfov Emin Məhərrəm oğlu - leytenant
Səfərov Xalid Rafət oğlu - leytenant
Şahverənov Xəyal Səbuhi oğlu - leytenant
Abdullayev Hidayət Marks oğlu - gizir
Həsənov Emin İman oğlu - gizir
Həsənov Səyyad Aydın oğlu - gizir
Səfərov Xəyal Heydər oğlu - gizir
Bayramov Məhəmməd Ədalət oğlu - kiçik gizir
Abdullayev Samir Ələddin oğlu - ehtiyatda olan əsgər
Babalı Xanlar Elburus oğlu - əsgər
Məmmədov Nizami Hasil oğlu - əsgər

**"Döyüşdə fərqlənməyə görə" medalı ilə**
Dəmirov Namik Raufoviç - mayor
Əzimov Əfqan Xanlar oğlu - kapitan
Hüseyinli Kamal Kamran oğlu - kapitan
Məmmədov Taleh Daşdəmir oğlu - kapitan
Ağayev Səməndər Sübhan oğlu - baş leytenant
Əhmədov Elgün Ədalət oğlu - baş leytenant
Lətifov Toğrul Telman oğlu - baş leytenant
Məmmədzadə Şaməddin Fərhad oğlu - baş leytenant
Yusifov Yusif Əliağa oğlu - baş leytenant
Cəfərov Amid Yalçın oğlu - leytenant
Əsgərov Xəyal Nəsrəddin oğlu - leytenant
İbrahimov İlyas Balamirzə oğlu - leytenant
Qurbanov Amid Malik oğlu - baş gizir
Sadıqov Balaəmi Ağami oğlu - gizir
Qaragözov Vüqar Müşfiq oğlu - kiçik çavuş

**"Hərbi xidmətlərə görə" medalı ilə**
Abdullayev Vüqar Vaqif oğlu - polkovnik
Ağayev Elşən Sultanağa oğlu - polkovnik
Baxışov Şahin Xamməd oğlu - 1-ci dərəcəli kapitan
Cabbarov Baba Yusif oğlu - polkovnik
Ələsgərli Elnur Əli oğlu - polkovnik
Hacıyev Elman Asif oğlu - polkovnik
Həsənov Arzu Şamil oğlu - ədliyyə polkovniki
İsgəndərov İlqar Bahadur oğlu - polkovnik
İsmayılov Şamil Arif oğlu - polkovnik
İsrəfilov Aydın Abdurəşid oğlu - polkovnik
Quliyev Elnar Adil oğlu - polkovnik
Quliyev Əlmahir Hüseyn oğlu - 1-ci dərəcəli kapitan
Mürsəlov Vüqar Rzaxan oğlu - tibb xidməti polkovniki
Seyidov Niyaməddin Mirəziz oğlu - tibb xidməti polkovniki
Vəliyev Hüseyin Ələsgər oğlu - polkovnik
Yusifov Cəsarət Həkim oğlu - polkovnik
Abbasov Mürşüd Cümşüd oğlu - polkovnik-leytenant
Aslanov Eldəniz İldırım oğlu - polkovnik-leytenant
Əliyev Fəqan Bayram oğlu - polkovnik-leytenant
Hümmətov Azər Adil oğlu - ehtiyatda olan polkovnik-leytenant
Kərimov Natiq Hidayət oğlu - polkovnik-leytenant
Qurbanov Elnur Ədalət oğlu - polkovnik-leytenant
Mehdiyev Elman Nəriman oğlu - polkovnik-leytenant
Mikayılov Elnur Fəhrad oğlu - polkovnik-leytenant
Nağıyev Hüseyn Balacan oğlu - polkovnik-leytenant
Orucov İlqar Rəhman oğlu - polkovnik-leytenant
Rəcəbov Elşən Nuru oğlu - polkovnik-leytenant
Şahbazov Mayıl Şahbaz oğlu - polkovnik-leytenant
Tağıyev Müseyyib Mütəllim oğlu - polkovnik-leytenant
Əzimli Dinar Arif oğlu - mayor
Xəlilov Babək Saleh oğlu - mayor
Qurbanov Elvin Namiq oğlu - mayor
Məmmədov Anar Rəşid oğlu - mayor
Muradov Aqil Sracəddin oğlu - mayor
Lətifov Lətif Nazim oğlu - kapitan
Umudov Yusif Rafiq oğlu - baş leytenant
Mirzəzadə Rza Məhərrəməli oğlu - leytenant
Kosayev Siruz Abdulməcid oğlu - kiçik leytenant
Məmmədov Şahin Əliqulu oğlu - baş gizir
Mehrəliyev Alim Eldar oğlu - kiçik gizir
Allahverdiyev Rahib Məmməd oğlu - kiçik çavuş
Hüseynov Elvin Hüseynağa oğlu - kiçik çavuş.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2024-cü il*

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**"general-leytenant" hərbi rütbəsi**
general-mayor Namiq Sərəfruz oğlu İslamzadəyə

**"general-mayor" hərbi rütbəsi**
polkovnik Həsən Əli oğlu Əlövsədova
polkovnik Vilayət Bərxuda oğlu Quluyevə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2024-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.2.2-ci yarımbəndə "cavablandırılması" sözündən sonra ", habelə dincə qoyulması da daxil olmaqla əkin və çoxillik əkmələrin altında olan kənd təsərrüfatı torpaqlarının fiziki şəxslər tərəfindən təyinatı üzrə istifadəsinin müəyyən edilməsi üçün məlumatların toplanılması, onlara dair arayışın formalaşdırılması və aidiyyəti üzrə ötürülməsi" sözləri əlavə edilsin;

1.2. 3.2.3-3-cü yarımbəndə "cavablandırılması" sözündən sonra ", habelə kənd təsərrüfatı torpaqlarının fiziki şəxslər tərəfindən təyinatı üzrə istifadəsinin müəyyən edilməsi üçün məlumatların (əkin və çoxillik əkmələrin altında olan kənd təsərrüfatı torpaqlarına münasibətdə "subsidiyalar" altsistemində müvafiq məlumatlar olmadıqda) toplanılması, onlara dair arayışın formalaşdırılması və aidiyyəti üzrə ötürülməsi" sözləri əlavə edilsin;

1.3. 5.1.30-cu yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.1.31-ci yarımbənd əlavə edilsin:

"5.1.31. təyinatı üzrə istifadə edilən və təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı təyinatlı torpaqlar barədə məlumatlar (arayışlar).".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2024-cü il*

# YAP Sədrinin müavini ilə Braziliyanın Əmək Partiyasının Beynəlxalq əlaqələr üzrə katibi arasında görüş keçirilib

**İyunun 25-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Azərbaycanda səfərdə olan Braziliyanın Əmək Partiyasının Beynəlxalq əlaqələr üzrə katibi Romenio Pereyra arasında görüş keçirilib.**



Qonağı salamlayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan ilə Braziliya arasında ikitərəfli qaydada və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin inkişafının məmnunluq doğurduğunu vurğulayıb. O, ölkələrimiz arasında müxtəlif sahələrdə məhsuldar işbirliyi üçün geniş potensialın mövcud olduğunu bildirib.

Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində yüksək nüfuza malik etibarlı tərəfdaş kimi tanındığını söyləyən YAP Sədrinin müavini qeyd edib: "Azərbaycanın ölkə başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə son illərdə əldə etdiyi tarixi nailiyyətlər onu nəinki regionda, qlobal miqyasda da söz sahibinə çevirmişdir. Ölkəmizə beynəlxalq müstəvidə böyük inam və etimad mövcuddur. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un cari ilin noyabr ayında Azərbaycanda keçirilməsi haqqında yekdil qərar da bu reallığın bariz ifadəsidir. Bu mühüm beynəlxalq tədbir, heç şübhəsiz, Azərbaycanın beynəlxalq əlaqələrinin keyfiyyətcə yeni müstəviyə yüksəlməsinə təkan verəcək. Azərbaycan dost ölkələrlə, o cümlədən Braziliya Federativ Respublikası ilə münasibətlərin inkişafını daim diqqət mərkəzində saxlayır".

Siyasi partiyalar və parlamentlər arasında əlaqələrin əhəmiyyətini vurğulayan Tahir Budaqov hökumətlərarası komissiyaların da fəaliyyətinin təmin olunmasının dövlətlərarası münasibətlərin inkişafı baxımından önəmli olduğunu söyləyib.

"Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələri uğurla inkişaf edir. YAP müstəqil siyasət həyata keçirən dost və tərəfdaş ölkələrin hakim partiyaları ilə səmərəli işbirliyinə malikdir" deyən Tahir Budaqov Yeni Azərbaycan Partiyası və Braziliya Əmək Partiyası arasında qarşılıqlı səfər və görüşlərin, fikir və təcrübə mübadiləsinin Azərbaycan-Braziliya münasibətlərinin mühüm tərkib hissəsi kimi partiyalararası əlaqələrin inkişafına önəmli töhfə olacağını söyləyib.

Romenio Pereyra səmimi qəbula görə təşəkkür edərək Azərbaycana səfər etməkdən son dərəcə məmnun olduğunu bildirib. O, səfər çərçivəsində keçirdiyi görüşlərin ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə olacağına inamını ifadə edib.

Ölkəsinin olduqca mühüm geostrateji mövqedə yerləşən və inkişaf edən Azərbaycanla işbirliyinə böyük əhəmiyyət verdiyini və əlaqələrin inkişafında maraqlı olduğunu bildirən Romenio Pereyra Braziliyanın COP29-da ali səviyyədə böyük nümayəndə heyəti ilə təmsil olunacağını vurğulayıb. O, Azərbaycanda əldə ediləcək təcrübənin COP 30-a evsahibliyi edəcək ölkəsi üçün vacib olduğunu qeyd edib.

Romenio Pereyra regionda və dünyada nüfuzu artmaqda olan Azərbaycan ilə əlaqələr çərçivəsində Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığın qurulmasının Braziliya Əmək Partiyası üçün böyük önəm daşıdığını söyləyib: "Təmsil etdiyim hakim Braziliya Əmək Partiyası artıq 44 ildir ki, fəaliyyət göstərir və geniş beynəlxalq əlaqələrə malikdir. Biz dost Azərbaycanın iqtidar partiyası olan Yeni Azərbaycan Partiyası ilə səmərəli əməkdaşlıq qurmaq niyyətindəyik".

Görüş zamanı qarşılıqlı maraq doğuran digər bir sıra məsələlər də müzakirə edilib.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Nazir Ceyhun Bayramov İqor Xovayev ilə regionda mövcud vəziyyəti müzakirə edib

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasının xarici işlər nazirinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.**



Bu barədə AZƏRTAC-a Azərbaycanın Xarici İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, görüşdə Azərbaycan-Rusiya ikitərəfli əlaqələri, regional platformalar çərçivəsində görülən işlər, Azərbaycanla Ermənistan arasında sülh prosesinin cari vəziyyəti və perspektivləri, regionda mövcud vəziyyət və son inkişaflar müzakirə olunub.

C.Bayramov Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsi üzrə aparılan danışıqlar prosesi barədə məlumat verib. Bununla yanaşı, Ermənistan konstitusiyasında və digər qanunvericilik aktlarında Azərbaycanın ərazi bütövlüyünə qarşı davam edən iddiaların proses çərçivəsində əsas maneə olduğu diqqətə çatdırılıb. Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Rusiya arasında konsulluq sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub

**İyunun 25-də Bakıda Azərbaycan Xarici İşlər Nazirliyi və Rusiya Xarici İşlər Nazirliyi arasında sayca 11-ci konsulluq məsləhətləşmələri keçirilib.**



Bu barədə AZƏRTAC-a Azərbaycanın Xarici İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinin rəisi Emil Səfərov, Rusiya nümayəndə heyətinə isə Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Konsulluq Departamentinin direktoru Aleksey Klimov rəhbərlik edib. Görüşdə həmçinin Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin və Dövlət Miqrasiya Xidmətinin rəsmiləri iştirak ediblər.

Konsulluq məsləhətləşmələri zamanı iki ölkə arasında konsulluq sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, o cümlədən sahə üzrə ikitərəfli sənədlərin imzalanması və konsulluq xidmətlərinin rəqəmsallaşdırılması imkanları barədə fikir mübadiləsi aparılıb.

Tərəflər iki ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qorunması və onlara konsulluq yardımının göstərilməsi mövzusu üzrə müzakirə aparıb, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ədliyyə, miqrasiya, təhsil və digər vacib sahələrdə əlaqələrin gücləndirilməsi istiqamətində birgə tədbirlərin vacibliyini vurğulayıblar.

Danışıqların sonunda iki ölkənin nümayəndə heyətlərinin rəhbərləri tərəfindən görüşün protokolu imzalanıb.

# "Biz bu Qələbəni Ali Baş Komandanımızın möhkəm iradəsi nəticəsində əldə etdik"

**İyunun 25-də - Silahlı Qüvvələr Günü ərəfəsində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov AZƏRTAC-a və AzTV-yə müsahibə verib. Müsahibəni təqdim edirik.**



*AzTV-nin əməkdaşı Tofiq Abbasov: Bütün zamanlarda xalqların, toplum və dövlətlərin taleyində ordu və Silahlı Qüvvələrin əvəzedilməz müstəsna rolu olub. Çünki onlar, ilk növbədə, insanların təhlükəsizliyini və dövlətin ərazi hüdudlarının toxunulmazlığını təmin ediblər. Bu gün də bu qayda öz qüvvəsindədir. Xüsusilə də biz görürük ki, gündən-günə təhdidlərin, risk və təhlükələrin sayı artır. Təbii ki, Azərbaycan Ordusu da bu istiqamətdə üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir.*

*Bildiyimiz kimi, iyunun 26-sı Azərbaycanda Silahlı Qüvvələr Günüdür. Bu münasibətlə mən və Azərbaycan Dövlət İnformasiya Agentliyindən (AZƏRTAC) həmkarım Abbasəli Yadigarovla birlikdə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovdan xahiş etmişik ki, bizim suallarımızı cavablandırsın. İlk növbədə Azərbaycan Respublikasının müdafiə nazirinə təşəkkürümüzü bildiririk ki, müsahibə üçün bizə vaxt ayırıb. Cənab nazir, icazə verin, söhbətimizin əvvəlində sizi və Silahlı Qüvvələrimizin şəxsi heyətini Milli Ordumuzun yaradılmasının 106-cı ildönümü ilə bağlı təbrik edək. Çünki bu, həqiqətən də, bizim dövlətimizin tarixində əlamətdar bir hadisədir. Digər tərəfdən, biz bilirik ki, dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev ordumuzun inkişafına, onun gününün tələblərinə cavab verməsinə böyük diqqət yetirir. Əlbəttə ki, bu xüsusda çox böyük islahatlar proqramı həyata keçirilir. Mənə elə gəlir ki, söhbətimizin əvvəlində biz 2020-ci ildə əldə etdiyimiz böyük Zəfərə, 2023-cü ildə antiterror tədbirlərinə nəzər salsaq görərik ki, həqiqətən də, Azərbaycanın Milli Ordusu bu gün dünyanın ən güclü ordularından biridir. İstərdik ki, bu məsələyə münasibət bildirərək siz həm də ordumuzun döyüş qabiliyyəti, texniki təchizatı və digər mühüm məsələlər barədə fikirlərinizi bizimlə bölüşəsiniz.*

**Nazir Zakir Həsənov:** Çox sağ olun. Mən də sizi Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə təbrik edirəm. İlk növbədə qeyd etmək istərdim ki, artıq dörd ildir Azərbaycan Ordusu bayramını qalib ordu kimi qeyd edir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Bilirsiniz ki, həmin əməliyyatlar vaxtı Azərbaycan əsgəri çox böyük şücaət göstərdi. Ondan sonra - 2023-cü ildə antiterror əməliyyatı zamanı Azərbaycan Ordusu yüksək peşəkarlıq nümayiş etdirdi. Fürsətdən istifadə edərək Azərbaycan xalqını, şəhid ailələrini, veteranları, qazilərimizi təbrik etmək istəyirəm. Müzəffər Ali Baş Komandan başda olmaqla Silahlı Qüvvələrin bütün şəxsi heyətini təbrik etmək istəyirəm. Əsgərləri, matrosları, gizirləri, miçmanları, zabitləri, yüksəkrütbəli zabitləri təbrik edirəm, onlara cansağlığı, Azərbaycan naminə xidmətlərində uğurlar arzulayıram.

*AzTV-nin əməkdaşı: Əlbəttə, ordumuzun döyüş hazırlığının həmişə yüksək səviyyədə olması həm də millətə, xalqa, dövlətin hər bir nümayəndəsinə əminlik verir. Çünki insanlar tək bu günün qayğıları ilə yaşamırlar, onlar həm də gələcəyə baxırlar. İstəyirlər ki, onların baxışları həmişə nikbin olsun. Bu baxımdan ölkəmizin müdafiə qabiliyyəti, döyüş qabiliyyətimiz və təhdidlərə duruş gətirə bilməyimiz çox vacib əhəmiyyət kəsb edir. Mənə elə gəlir həqiqətən də bu, təsadüfi deyil ki, indi Amerikada, Avropada müxtəlif ölkələrin ən mütərəqqi hərbi məktəblərində Azərbaycan Ordusunun şücaəti barədə danışılır, onun ənənəsi və təcrübəsi öyrənilir. Bax, bu məsələnin məğzində duran əsas göstərici, əsas amil hansıdır?*

**Nazir Zakir Həsənov:** Siz tamamilə düz qeyd etdiniz ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu Vətən müharibəsi zamanı çox yüksək peşəkarlıq nümayiş etdirdi. Ordumuzun apardığı əməliyyatlar, ümumiyyətlə, dünyada hərb elminə yenilik gətirdi. Mən müxtəlif ölkələrə səfərim zamanı görüşlərdə, danışıqlarda görürəm ki, bizə böyük maraq var. Hətta bizim təcrübəmizi öyrənmək üçün çoxlu müraciətlər olur. Biz müttəfiq dövlətlərlə, təbii ki, təcrübəmizi bölüşürük və bu istiqamətdə işlər indiyədək davam edir. Bununla yanaşı, mən xüsusi qeyd etmək istəyirəm ki, keçən görüşlərdə də bildirirdim, möhtərəm cənab Prezident Azərbaycan Ordusunda islahatlara başlayanda qarşıya konkret vəzifələr qoymuşdu - müasir, peşəkar ordu qurulsun, ən müasir silah, texnika ilə təchiz edilsin və ordu ən çətin müxtəlif şəraitlərdə döyüş aparmağa qadir olsun. Biz buna nail olduq. Qeyd etmək istəyirəm ki, indiyədək bizim təcrübəmizi öyrənirlər və biz özümüz də əməliyyatlarımızı təhlil edirik. Təhlillər göstərir ki, bizim islahatların əsas istiqamətləri düzgün seçilib. Biz onların bəhrəsini gördük. Bununla yanaşı, qeyd etmək istəyirəm ki, hərb elmi gündən-günə inkişaf edir. Biz bunu dərindən öyrənirik. Biz müharibə vaxtı əldə etdiyimiz təcrübəni də, nöqsanları da öyrənirik. İstifadə etdiyimiz silahları da öyrənirik - onların hansının tətbiqi bizə daha çox fayda gətirdi, hansılar döyüşlərdə özünü çox da yaxşı göstərmədi. Təbii ki, biz nəticələr çıxardıq və onları dəyişdik. Bütün bu təhlillər göstərdi ki, müharibədəki bütün o təcrübənin tətbiqindən sonra artıq antiterror əməliyyatı zamanı qısa müddətdə düşmən darmadağın edildi. Bu antiterror əməliyyatına dünyada unikal əməliyyat kimi baxırlar, onunla maraqlanırlar. Çox sevindirici haldır ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun əməliyyatları bu gün bütün dünyada dərindən öyrənilir.

*AZƏRTAC-ın əməkdaşı: Cənab nazir, antiterror əməliyyatlarından danışmışkən qeyd edim ki, bu əməliyyatlar ətrafında müxtəlif versiyalar səsləndirilir. Bu əməliyyatların planlaşdırılmasının, həyata keçirilməsinin hədəfi nə idi? Təbii ki, hədəf bəlli idi - Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin tam bərpası. Amma bunu müxtəlif dairələr müxtəlif cür yozurlar. Yəni sizin bununla bağlı fikirlərinizi öyrənmək maraqlı olardı.*

**Nazir Zakir Həsənov:** Yaxşı sualdır. Mən də eşidirəm ki, müxtəlif versiyalar səsləndirirlər. İlk növbədə demək istəyirəm ki, bu əməliyyat kimə qarşı idi. Xatırlayırsınızsa, möhtərəm cənab Prezident çıxışlarında bir neçə dəfə qeyd etmişdir ki, Vətən müharibəsi zamanı Azərbaycanın uğurlu əməliyyatlarından biri Ağdam istiqamətində idi. Ermənistan silahlı qüvvələrinin böyük bir birləşməsi - bizim hesabımızla təxminən 15-18 min nəfərlik şəxsi heyət mühasirəyə düşmüşdü. Biz bu əməliyyatı yekunlaşdırmaq üçün mühasirəyə düşən həmin hərbi birləşmələrin ətrafına toplarımızı, raket sistemlərimizi yığmışdıq və artıq onların zərərsizləşdirilməsi üçün tədbirlərə başlayırdıq. Ermənistanın kapitulyasiya aktına tez qol çəkməsinin səbəblərindən biri də bu idi. Möhtərəm cənab Prezident insanpərvərlik göstərdi və mühasirəyə düşənlərin məhv edilməsinə imkan vermədi. Ona görə də bax, mühasirəyə düşmüş həmin kontingent üçtərəfli Sazişə əsasən Azərbaycanın ərazisini dərhal tərk etməli idi. Ancaq onlar bunu etmədilər, əksinə, təxribatlara əl atdılar, mövqelərini gücləndirməyə başladılar. Bilirsiniz, möhtərəm cənab Prezident çıxışlarında qeyd edirdi ki, antiterror əməliyyatlarının keçirilməsi üçün səbəblər hansılar idi. Birincisi, bilirsiniz ki, bunlar təxribatlar törədirdilər, qanunsuz seçkilər keçirirdilər. Ermənistan rəsmən bunları təbrik etdi. Bunlar hamısı zəmin yaratdı ki, antiterror əməliyyatı keçirilsin. Bu, birincisi. İkincisi, sual verdiniz ki, bu antiterror əməliyyatının hədəfi kim idi. Xüsusi qeyd etmək istəyirəm, möhtərəm cənab Prezident daim deyir ki, mən yaxşı bilirəm nəyi nə vaxt etmək lazımdır. Cənab Prezident bütün güc strukturlarının rəhbərliyini toplayıb tapşırıq verəndə bir neçə məsələyə xüsusi diqqət yetirirdi. İlk növbədə orduya aid təbii olaraq mənə tapşırıq verildi ki, heç bir mülki şəxsə, heç bir mülki obyektə zərbə endirilməsin. Ordu heç bir yaşayış məntəqəsinə daxil olmur. Ordu ancaq və ancaq hərbi birləşmələrə qarşı fəaliyyət göstərir. Digər qurumların rəhbərlərinə - Daxili İşlər Nazirliyinə, xüsusi xidmət orqanlarına, Sərhəd Qoşunlarına tapşırıqlar vermişdi. Qeyd edim ki, bu tapşırıqlar hamısı düzgün verilmişdi. Beynəlxalq qurumların nümayəndələri gəlib bunların hamısını gördülər. Bununla yanaşı, demək istəyirəm ki, hörmətli Birinci vitse-prezident də humanitar məsələlərə çox ciddi fikir verməyi tapşırmışdı və nəzarətdə saxlayırdı. Antiterror əməliyyatından əvvəl, yəni kütləvi zərbələrdən əvvəl Qarabağ iqtisadi zonasında yaşayan ermənilərə bir saat əvvəlcədən xəbər verilmişdi ki, hərbi obyektlərdən uzaq dursunlar. Görün, Azərbaycan necə humanistlik nümayiş etdirir. Bu da onu göstərdi ki, Azərbaycanın həyata keçirdiyi antiterror əməliyyatı ancaq və ancaq erməni silahlı qüvvələrinə qarşı idi. Bilirsiniz, bu yaxınlarda özləri də təsdiqlədilər ki, Qarabağ zonasında yerləşən hərbi birləşmələr erməni silahlı qüvvələrinin tabeliyində olan qurumlar idi.

Mən bir məsələyə də toxunmaq istəyirəm. Bu əməliyyatdan sonra biz külli miqdarda silah-sursat, texnika, 100 mindən çox atıcı silah qənimət götürdük. Bu, nə deməkdir? Bu o deməkdir ki, onlar burada səfərbərlik ehtiyatları yaratmışdılar. Bunların planına əsasən, əgər burada müharibə başlayacaqdısa, onlar Ermənistanın səfərbərlik ehtiyatlarını buraya gətirəcəkdilər və buradakı səfərbərlik ehtiyatlarından istifadə edəcəkdilər. Yəni biz bunların hamısını artıq bildik və tədbirlərimizi gördük. Bununla yanaşı, antiterror əməliyyatı ilə əlaqədar onu da demək istəyirəm ki, bu əməliyyat çox yüksək səviyyədə təşkil olunmuşdu, xüsusilə də şəxsi heyətin qarşılıqlı əlaqəsi planlaşdırılmışdı və həyata keçirilmişdi. Bütün qurumlar - idarəedici qurumlar, qoşun növləri vəzifələrini o qədər düzgün dərk etmişdilər və peşəkarlıqla icra etmişdilər ki, hər yerdə 1 gün deyilir. İndi mən sizə deyəcəyəm Ermənistan silahlı qüvvələri Qarabağ iqtisadi zonasında neçə saata darmadağın olmuşdu. Möhtərəm cənab Prezidentin tapşırığı ilə bütün bu əməliyyatlar təhlil edilmişdi. Ona görə də indi mən antiterror əməliyyatından danışaraq deyəcəyəm ki, Azərbaycan Ordusu necə peşəkarlıq nümayiş etdirib. Hətta dünyanın aparıcı dövlətləri, hərbi qulluqçuları maraqlanırlar və fikirlərini bildirirlər. Təbii, bu sevindirici haldır ki, biz əsgərlərimizlə, zabitlərimizlə fəxr edirik. Açığını deyək ki, biz bu Qələbəni Ali Baş Komandanımızın möhkəm iradəsi nəticəsində əldə etdik.

*AzTV-nin əməkdaşı: Sizin dedikləriniz bir daha təsdiqləyir ki, Qarabağ bölgəsində mülki əhalini Ermənistanın radikal ünsürləri orduya çevirmək niyyətində idilər və həqiqətən də, onların qarşısı alındı. Bunlar çox təhlükəli planlar idi və onlar Azərbaycan xalqına qarşı, əlbəttə ki, genişmiqyaslı əməliyyatlara hazırlaşırdılar. Digər tərəfdən də bütün yolları, kommunikasiyaları minalamışdılar ki, bizim üçün problemlər yaratsınlar. Bu onu göstərir ki, antiterror tədbirləri artıq qaçılmaz idi. Çünki həm də onlar bununla təxribatlara meydan verirdilər.*

**Nazir Zakir Həsənov:** Bəli, mən qeyd etdim, antiterror əməliyyatının başlaması üçün artıq şərait yaranmışdı, onlar bütün təxribatlara əl atırdılar. Siz bilirsiniz ki, onlar ərazini minalayırdılar. Hətta biz minaları beynəlxalq qurumlara təqdim etdik. Bu minalar müharibədən sonra istehsal olunmuşdu. Bununla yanaşı, mən bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda olan hərbçilər Ermənistan silahlı qüvvələrinin bir hissəsi idi. Eyni zamanda, təbii ki, onlar yerli əhalidən də istifadə edirdilər. Bunu mətbuatdan da bilirik, onlar özləri də gizlətmirlər. Bir daha vurğulayım ki, antiterror əməliyyatı bir gündən də az davam etdi. Biz saat 13:00-da başladıq, hissə və birləşmələr çox nizamlı şəkildə hərəkət etdilər və Ermənistan birləşmələrinin bütün təminat yollarını dərhal bağladıq, kütləvi zərbələrlə onların bütün hava hücumundan müdafiə, idarəetmə sistemlərini sıradan çıxardıq. Hərbi hissələrin manevr qabiliyyətinin qarşısını aldıq və saat 22:00-da Rusiya sülhməramlı qüvvələrinin rəhbərliyi mənə müraciət etdi ki, Ermənistanın Azərbaycan ərazisində yerləşən silahlı birləşmələri təslim olmaq istəyirlər. Ancaq biz bilirdik, görürdük ki, bunlar manevr üçün vaxt udmaq istəyirlər. Düzdür, onların birləşmələrinin 99 faizi artıq 9 saatdan sonra mühasirəyə düşmüşdü. Biz bunu görürdük. Ancaq bəzi qurumlar var idi. Ona görə də biz etiraz etdik, dedik ki, əməliyyat davam edir. Onların hamısını tam şəkildə zərərsizləşdirdik və mühasirəyə götürdük. Səhər saat 9 idi, biz Müdafiə Nazirliyinin üzərinə düşən vəzifələri artıq yerinə yetirmişdik. Təkrar müraciət olanda dedik ki, siyasi rəhbərliyə müraciət etsinlər. Onlar müraciət etdilər, Azərbaycanın şərtlərini qəbul etdilər. Mən Ali Baş Komandana məruzə etdim və saat 10-da artıq biz öz üzərimizə düşən vəzifəni yerinə yetirmişdik. Saat 11 üçün tapşırıq aldım ki, hazırlığa başlayın, saat 12-dən atəşkəs elan olunacaq. Yəni möhtərəm cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri, Daxili İşlər Nazirliyi, xüsusi xidmət orqanları, Sərhəd Qoşunları hamısı birgə qarşılıqlı əlaqədə bu əməliyyatı qısa müddətdə çox peşəkar səviyyədə həyata keçirdi. Demək istəyirəm ki, biz sonra əməliyyatı dərindən təhlil etdik. Məsələn, cənab Prezident tapşırdı ki, əməliyyatın hər mərhələsini təhlil edin. Necə ki, biz müharibə vaxtı təhlil edirdik, nəticə çıxarırdıq, nöqsanları aradan qaldırırdıq, indi də təhlil edirdik. Məsələn, kütləvi atəş zərbəsi endirirdik, indi torpaqlar azaddır, həmin yerləri bir-bir gəzirdik. Deyim ki, zərbələrin 99 faizindən çoxu hədəfi yüksək dəqiqliklə, nöqtəsinə kimi vurmuşdu. Yəni biz gördük ki, əgər Vətən müharibəsi vaxtı zərbələrin təqribən 80 faizi dəqiq vurulmuşdusa, artıq bu əməliyyatda onların daha yüksək dəqiqliyinə nail olduq. İndi daha asandır, ərazilər azaddır, gedirsən, baxırsan. Manevr və digər məsələlər düzgün planlaşdırılmışdı, düzgün və vaxtında həyata keçirilmişdi. Yəni bunlar hamısı bizə bir daha imkan verir deyək ki, əməliyyat yüksək səviyyədə təşkil olunmuşdu və Azərbaycan Ordusu yüksək peşəkarlıq nümayiş etdirdi.

*AzTV-nin əməkdaşı: Bəlli olduğu kimi, heç yerdə heç bir mülki obyekt dağıdılmadı, mülki vətəndaşlar zərər çəkmədilər. Bu, bir daha hərb tarixinə düşən vacib bir məqamdır ki, onun da arxasında Azərbaycan Ordusunun məharəti dayanır.*

**Nazir Zakir Həsənov:** Sizə bir məsələni də deyim. Əməliyyat vaxtı bir neçə digər əməliyyat da gedirdi. Məsələn, biz nəticə çıxardıq ki, ermənilər hər dəfə ərazini tərk edəndə, ya da belə əməliyyatlar olanda bizim təbii sərvətlərimizi məhv edirdilər - yandırırdılar, talayırdılar, özləri ilə aparırdılar, partladırdılar. Ona görə də İqtisadiyyat Nazirliyi bizim təbii sərvətlərimiz olan böyük müəssisələrin siyahısını təqdim etmişdi ki, onları xilas edək. Məsələn, götürək hərbi polisdən ibarət qruplar yaradılmışdı və onlar əməliyyat vaxtı dərhal hərəkət edərək həmin müəssisələri mühasirəyə götürdülər və onları qoruyub saxladılar, xilas etdilər. Bunun dəyəri milyardlarla dollardır. Yəni bir neçə belə müəssisə oldu. Bu da onu göstərir ki, bu vəzifələr qarşılıqlı əlaqədə yüksək peşəkarlıqla yerinə yetirildi.

*AzTV-nin əməkdaşı: Biz söhbətimizin əvvəlində sizi çox maraqla dinlədik, islahatlar barədə danışdınız. Bu islahatların tərkib hissəsindən biri də yüksəksəviyyəli yeni kadrların hazırlanmasıdır. Çünki ordu birləşmələri kompleksləşdirilir, bu da çox vacib amildir, gələcəkdə bizim uğurlarımızı şərtləndirən məqamdır. Bu baxımdan da cənab Prezidentin çox məşhur bir kəlamı var. O deyir ki, ordu nə qədər güclü olsa da, texnika ilə təmin olunsa da, texnologiyaları mənimsəyə bilsə də, amma Qələbəni əldə edən əlində silah olan əsgər və zabitdir. Mənə elə gəlir ki, bizim, həqiqətən də, islahatlarımızın nəticəsində ordumuzun fərdi göstəriciləri, şəxsi heyətin bacarıqları da yüksək və müasir tələblər səviyyəsindədir. Necə düşünürsünüz?*

**Nazir Zakir Həsənov:** Bu suala bir az geniş cavab vermək istəyirəm. Mən bunu həmişə deyirəm. Yeni, müasir silah almaq işin 10 faizidir. Burada şərtlər var, bu silahı saxlamaq şərtləri. Məsələn, indi müasir silahları elə şəraitdə saxlamaq lazımdır ki, o, texniki baxımdan döyüşə tam hazır vəziyyətdə olsun. Orada kondisionerlər işləyir və digər məsələlər. Təsəvvür edin, elə raket sistemləri var ki, onların üzərində gündəlik 15 əməliyyat keçirirlər ki, o, döyüş vəziyyətinə daim hazır olsun. Biz gördük ki, 44 günlük Vətən müharibəsində düşmənin bu məsələdə problemləri var idi. Atırdılar, haraya gedirdi bilinmirdi. Yəni ki, digər problemlər də var idi - silahların, sursatların saxlanması prosesi, bunları daim bərpa etmək məsələsi. Cənab Prezidentin də dediyi kimi, ən vacib məsələ bunlardan istifadə edən insandır. Bunların hazırlanması işin 50 faizidir, şəxsi heyətin hazırlanması da digər 50 faiz. Burada qeyd etməliyik ki, cənab Prezident buna xüsusi diqqət yetirir. Bilirsiniz ki, cənab Prezidentin tapşırığına əsasən biz qardaş Türkiyə Silahlı Qüvvələri ilə sıx əməkdaşlıq edirik. Türkiyə Silahlı Qüvvələri NATO-nun aparıcı ordularından biridir. Biz onların təcrübəsindən bəhrələnirik və tətbiq edirik. Xüsusilə də Milli Müdafiə Universitetinin yaradılması barədə sərəncam var. Bilirsiniz ki, Milli Müdafiə Universitetinin tərkibində yeni hərbi kolleclərin yaradılması ilə bağlı Prezidentin sərəncamı oldu. Bu, Azərbaycan Ordusunun peşəkarlığının artırılması istiqamətində böyük addımdır. Hətta gənclərin hərbi peşəyə marağının artırılması üçün orada maliyyə şərtləri çox gözəldir. Yəni bu istiqamətdə böyük işlər görülür. Biz Naxçıvanda, Bakıda kolleclərin sosial bazasını yaratmışıq. Görürük ki, böyük maraq var. Bu kolleclərdə oxumaq üçün artıq 1000-dən çox müraciət var. Bu kolleclərin fəaliyyəti, ümumiyyətlə, peşəkar kadrların hazırlanmasına yönəlib. Bu, çox önəmlidir. Ümumiyyətlə, mən deyim ki, təhlil etməyə imkanım var. Mən 2013-cü ildə Müdafiə Nazirliyinə təyinat almışam. İndi artıq 10 ildən çox vaxt keçib. Möhtərəm cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan Ordusu böyük inkişaf yolu keçib. Dünyada çox peşəkar ordu sayılır, nüfuzu çox yüksəkdir. Xüsusilə də döyüş təcrübəsi çox yüksəkdir. Haraya gedirsən, aparıcı dövlətlərdə maraqlı suallar verirlər. Ancaq bir suala mən hər zaman cavab vermişəm. Onlar soruşurlar ki, sizin Qələbənizin əsas səbəbi nədir? Mən də deyirəm ki, möhtərəm cənab Prezidentin dəmir iradəsi. Görürsünüz, indi Azərbaycana qarşı necə ikili standartlar var, necə təxribatlar törədirlər, çıxışlar edirlər, yığıncaqlar keçirirlər, xeyri yoxdur. Bax, bu möhkəm iradə Azərbaycana qarşı təxribatların qarşısını alır.

*AZƏRTAC-ın əməkdaşı: Azərbaycanın hərbi sahədə beynəlxalq əməkdaşlığından danışaq. Bildiyimiz kimi, Şuşa Bəyannaməsindən sonra Azərbaycan və Türkiyə hərbi müttəfiqlər olublar. Bundan sonra keçirilən Azərbaycan-Türkiyə hərbi təlimləri, ölkəmizin müdafiə sənayesinin inkişafı Silahlı Qüvvələrimizin texniki təchizatına və beynəlxalq nüfuzuna hansı dərəcədə təsir göstərib?*

**Nazir Zakir Həsənov:** Bizim hərbi əməkdaşlığımızda, ilk növbədə qardaş Türkiyənin adını çəkirik. Siz tamamilə düz buyurdunuz ki, Şuşa Bəyannaməsinə əsasən biz müttəfiqik və iki ordunun inteqrasiyası yüksək səviyyədədir, təkcə təhsildə, təlimdə deyil, bütün sahələrdə. Hətta idarəetmə məntəqələrimiz də bir-biri ilə bağlıdır. Biz birgə fəaliyyət göstəririk. Möhtərəm cənab Prezidentin çox məşhur kəlamı var: "Bir millət, iki dövlət və bir yumruq". Həm təhsildə, həm təlimdə, həm kadrların hazırlanması istiqaməti üzrə təlim növləri də var. Bilirsiniz ki, həm təcrübə mübadiləsi, bununla yanaşı, hərbi sənaye sahəsində böyük işlər görülür. Bu yaxınlarda cənab Prezidentin qəbul etdiyi qərara əsasən, ən müasir silah və texnikanın, yaxud onların bir hissəsinin Azərbaycanda da istehsalı təşkil olunacaq. Xüsusi qeyd etmək istəyirəm, sevindirici haldır ki, qardaş Türkiyənin hərbi sənayesi çox sürətlə inkişaf edir. Söhbət təkcə "Bayraktar"dan, "Akıncı"lardan getmir, digər məsələlərdə də. Deyim ki, Türkiyənin hərbi sənayesi xüsusilə son illər çox inkişaf edib. Təbii ki, Azərbaycan da bundan bəhrələnir. Bu istiqamətdə işlər sürətlə həyata keçirilir.

*AzTV-nin əməkdaşı: Cənab nazir, son illər ərzində görürük ki, Azərbaycanda silahların, hərbi texnologiyanın nümayişi ilə bağlı sərgilər, konfranslar keçirilir və ildən-ilə iştirakçıların sayı artır. Sevindirici hal ondan ibarətdir ki, Azərbaycan istehsalı olan silah növləri də artıq işıq üzü görüb və onları da xarici ölkələrin nümayəndələri çox böyük həvəslə həm diqqətdən keçirirlər, həm də bizdən alırlar. Əlbəttə ki, bu, prioritetlər sırasında əsas məqamlardan biridir. Yadınıza gəlirsə, ilin əvvəlində cənab Prezident yerli televiziya kanallarına müsahibəsində dedi ki, biz yeni dövrə qədəm qoyuruq və bu dövrün yeni prioritetləri var. Mən istərdim siz bu məsələyə də münasibət bildirəsiniz: söhbət hansı prioritetlərdən gedir və biz nə dərəcədə onların həllinə yaxınıq?*

**Nazir Zakir Həsənov:** Yaxşı sualdır. Dünyada nə baş verdiyini görürsünüz. Təəssüflər olsun ki, vəziyyət gündən-günə gərginləşir. Müharibələr genişlənir, müharibəyə cəlb olunan dövlətlərin sayı artır və hər bir dövlət öz təhlükəsizliyini təmin etmək üçün tədbirlər görür. Biz görürük ki, möhtərəm cənab Prezidentin Müdafiə Sənayesi Nazirliyini yaradanda çox böyük uzaqgörənliyi indi təsdiqini tapır. İndi dünyada sursat almaq üçün növbəyə durmaq lazımdır. Təəssüflər olsun ki, bütün dünya silahlanır. Əgər biz indiki vəziyyətlə beş il bundan qabağı müqayisə etsək, tam fərqli vəziyyət görərik. Ona görə artıq biz bu ərəfəyə hazırlıqlı gəlmişik. Bizim imkanımız var ki, öz tələbatımızı azı 70 faiz təmin edək. Bizim məqsədimiz ondan ibarətdir ki, bunu daha da yüksək səviyyəyə qaldıraq. Burada söhbət atıcı silahlardan gedir. İndi də biz qarşıya vəzifə qoymuşuq ki, özümüzü digər mərmilərlə, raketlərlə təmin edək. Mən sizi əmin edim ki, cənab Prezidentin hər bir sözünün arxasında iş durur və bu istiqamətdə də böyük işlər gedir. Azərbaycan qarşısında elə məsələlər qoyulub ki, sevindirici haldır, inşallah, biz ona da nail olacağıq, özümüzü ən müasir silah, texnika və sursatla təmin edəcəyik. Qardaş Türkiyənin imkanlarından istifadə edəcəyik və birgə istehsal həyata keçirəcəyik.

*AZƏRTAC-ın əməkdaşı: Cənab nazir, bir məsələ də maraqlıdır. Doğrudur, son dövrlərdə bu məsələnin bir az siyasi tərəfi var. Ermənistan militarizasiya siyasətini davam etdirir. Müxtəlif ölkələrdən müxtəlif çaplı silahlar alır, onların arasında bəzən hücum silahları da olur. Buna qarşı ordumuzun hazırlığı yeni dövr üçün nə yerdədir? Siz danışdınız, yeni dövrə uyğunlaşdırma, amma həmin silahlara qarşı Azərbaycan Ordusu tərəfindən hər hansı addımların atılması planlaşdırılırmı?*

**Nazir Zakir Həsənov:** Ümumiyyətlə, hər bir dövlətin ordusu daim hazır vəziyyətdə olmalıdır. Biz qonşu dövlətlərdə gedən bütün prosesləri izləyirik. Silahlı Qüvvələrin inkişafını, yəni hansı istiqamətdə silahlanmasını - hamısı ilə maraqlanırıq və öyrənirik. Təbii ki, dost dövlətlərin uğurlarına sevinirik, kimlə problemlərimiz var, onları daha dərindən öyrənirik. Hər bir silahı, onların imkanlarını, bizə hansı problem yarada biləcəyini dərindən öyrənirik və bunların hamısını nəzərə alırıq. Bununla yanaşı, qeyd etmək istəyirəm ki, cənab Prezident çıxışında açıq şəkildə dedi, əgər biz görsək ki, Azərbaycana təhdid var, biz öz tədbirimizi görəcəyik. Dəfələrlə deyib ki, təkcə Ermənistan deyil, heç bir dövlət Azərbaycana hədə-qorxu gələ bilməz, heç bir dövlət Azərbaycanla təhdid dilində danışa bilməz. Azərbaycan güclü dövlətdir, onun güclü rəhbəri və güclü ordusu var. Bu, ilk şərtdir. Bununla yanaşı, biz öz tədbirlərimizi görürük. Ali Baş Komandan bu məsələni ciddi nəzarətdə saxlayır.

*AzTV-nin əməkdaşı: Cənab nazir, faktiki olaraq biz görürük ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq bizim hərbi büdcəmiz də ilbəil artır. Təbii ki, bu məsələ bəzi qüvvələri qorxudur. Digər tərəfdən, onlar yersiz olaraq Azərbaycanı militarizasiya siyasəti aparmaqda ittiham etməyə cəhdlər göstərirlər. Ancaq biz bütün yersiz qeyd və ittihamları rədd edirik. Çünki Azərbaycan 30 il ərzində kənardan, xaricdən çox böyük təhdidlərlə üz-üzə qaldı, sonra biz işğal dövrünü yaşadıq. Sizcə, bu əsassız ittihamlar nəyə görə səslənir? Onların niyyəti nədən ibarətdir? Özü də bilirlər ki, Azərbaycanın heç bir dövlətə qarşı nə ərazi iddiası var, nə də Ermənistanı çıxmaq şərtilə bizim hansısa dövlətlə mübahisəli vəziyyətimiz var. Bu piar kampaniyalar nəyə hesablanıb?*

**Nazir Zakir Həsənov:** İkili standartlar. Azərbaycan müstəqilliyini bərpa edəndən ikili standartlarla qarşılaşırıq. Otuz ildir bizim torpaqlarımızı işğal etmişdilər. Nə oldu? Qərarlar qəbul edirdilər, ancaq bu qərarların arxasında heç nə durmurdu. Torpaqlarımızın 20 faizi işğal olunmuşdu, bir milyondan çox qaçqın və məcburi köçkünümüz var idi. Bunun haqqında heç kim danışmır. Buradan köçən ermənilərə bizim tərəfimizdən bütün şərait yaradıldı. Heç kim onları buradan qovmurdu, ancaq gördünüz ki, onlar özləri də gedəndə sizlərlə - jurnalistlərlə qarşılaşanda deyirdilər ki, heç kim bizi qovmur, buradan sağ-salamat çıxıb gedirik. Hətta yanacaq da vermişdilər ki, gedin, yemək də verirdilər. Buraya BMT-dən iki qrup gəlmişdi, gəldilər gördülər. Mən axı əməliyyat haqqında deyəndə, elə belə demirdim ki, möhtərəm cənab Prezident ciddi tapşırıq vermişdi. Hörmətli Birinci vitse-prezident humanitar məsələləri ciddi nəzarətdə saxlayırdı. Onlar bilirdilər ki, bu ikili standartları bizə qarşı yenə də tətbiq edəcəklər. Ancaq biz tədbirimizi gördük. Nə qədər çalışsalar da, hələ ki şükürlər olsun, hədəflərinə çata bilmirlər. Yığılırlar, danışırlar, nəsə deyirlər. Möhtərəm cənab Prezidentin möhkəm iradəsi bunun hamısının qarşısını alır. Bununla yanaşı, bəzi böyük dövlətlərin Qafqazda maraqları var. Onlar böyük maraqlarını burada yaşayan xalqların üzərindən həyata keçirmək istəyirlər. Təbii ki, biz buna imkan verməməliyik. İmkan verməməliyik ki, onlar burada yenə də gərginlik yaratsınlar. Buradakı xalqlar illərlə gərginlik içində yaşayıblar. Ona görə də çalışmaq lazımdır ki, sülh olsun, inkişaf olsun və Qafqazdakı bütün xalqlar firavanlıq içərisində yaşasınlar.

*AzTV-nin əməkdaşı: Cənab nazir, müsahibəyə görə çox sağ olun. Əlbəttə ki, ölkəmizin dünyada nüfuzu durmadan artır. Ordumuzun da gücü qatqat artıb. Əminik ki, təhlükəsizliyi, sabitliyi qorumaq iqtidarındayıq. Bu proseslərdə, əlbəttə ki, müttəfiqlər vacib amildir. Amma bir həqiqət var ki, ən etibarlı müttəfiqimiz Azərbaycanın Silahlı Qüvvələridir. Bu gün biz ordumuzun yaradılmasının 106-cı ildönümünü fərəhlə qeyd edirik. Bu münasibətlə bir daha sizi və sizin simanızda şəxsi heyəti təbrik edirik. Sizə yeni-yeni uğurlar diləyirik. Əlbəttə ki, cənab Prezidentin orduya olan diqqəti özünü tam şəkildə doğruldur. Biz bir daha göstəririk ki, Azərbaycan Ordusu sabitlik, sülh, əmin-amanlığın keşiyində duran vacib institutlardan biridir.*

**Nazir Zakir Həsənov:** Çox sağ olun, təşəkkür edirəm.

Milli Məclisin iclasında

# Dövlət büdcəsi 40 milyard manata çatdı

**İyunun 25-də Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirilib. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, iyunun 26-da ölkəmizdə Silahlı Qüvvələr Günü qeyd edilir. 106 il öncə yaradılmış Azərbaycan Ordusu şərəfli inkişaf yolu keçərək bu gün dünyanın ən güclü orduları sırasında yer alır.**



Milli Məclisin Sədri qeyd edib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində və birgünlük antiterror tədbirlərində milli hərb tariximizə yazdıqları şanlı səhifələr xalqımızın qürur mənbəyidir: "Qəhrəman ordumuzun döyüş meydanlarında göstərdiyi hünərlər qarşıya qoyulan hədəflərə nail olmaq üçün onun ən mürəkkəb hərbi əməliyyatları yerinə yetirməyə qadir olduğunu nümayiş etdirmişdir. Azərbaycan torpaqlarını 30 il işğal altında saxlamış Ermənistan silahlı qüvvələri darmadağın edilmiş, əzəli və tarixi torpaqlarımız olan Qarabağ və Şərqi Zəngəzur düşmən əsarətindən xilas edilmişdir.

Tarixi ədalətin öz yerini tutması, dövlətimizin ərazi bütövlüyünün bərpa olunması naminə canından keçmiş şəhidlərimizin, qanlı döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin igidliyini və fədakarlığını biz heç zaman unutmayacağıq".

Milli Məclisin Sədri bildirib ki, Silahlı Qüvvələr Gününü bayram edərkən Azərbaycan hərbi nailiyyətlərini qeyd etməklə yanaşı, müdafiə potensialını daha da möhkəmləndirməyə, regionda daimi sülh və sabitlik yaradılmasına kömək göstərməyə sadiq olduğunu da təsdiq edir.

"Bu gün Silahlı Qüvvələrimiz işğaldan azad olunmuş bölgələrin müdafiəsi, dövlət sərhədlərimizin qorunması naminə öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirirlər.

Əminliklə söyləmək olar ki, Azərbaycan Silahlı Qüvvələri qarşıdakı illərdə daha da inkişaf edəcək və dünyanın qüdrətli orduları sırasında öz yerini möhkəmləndirəcəkdir", - deyə Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib.

Spiker Sahibə Qafarova çıxışının sonunda öz adından və deputatlar adından Silahlı Qüvvələr Günü münasibətilə Müzəffər Ali Baş Komandanı, Silahlı Qüvvələrin qəhrəman əsgər və zabitlərini, bütün hərbi qulluqçularımızı ürəkdən təbrik edib, Azərbaycanın milli maraqlarının və hərbi təhlükəsizliyinin qorunması naminə şərəfli missiyalarını həyata keçirməkdə onlara yeni uğurlar arzulayıb.

Sonra iclasda cari məsələlər müzakirə olunub. Komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, Fazil Mustafa, deputatlar Bəhruz Məhərrəmov, Elşad Mirbəşiroğlu, Sahib Alıyev, Ceyhun Məmmədov, Etibar Əliyev, Vüqar Bayramov, Tural Gəncəliyev çıxış ediblər. Deputatlar Silahlı Qüvvələr Günü münasibətilə təbriklərini çatdırıblar, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində, lokal xarakterli antiterror tədbirlərində, suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpa edilməsində nümayiş etdirdiyi qəhrəmanlıq və şücaəti qürur hissi ilə qeyd ediblər. Çıxışlarda son illər Azərbaycanda ordu quruculuğu və hərbi potensialın möhkəmləndirilməsi, müdafiə və milli təhlükəsizliklə bağlı məsələlərin həlli istiqamətində atılan addımlar təqdirəlayiq hesab olunub. Hərbçilərin, habelə şəhid ailələri və qazilərin sosial təminatının daha da gücləndirilməsi sahəsində həyata keçirilən islahatların, dövlət dəstəyinin əhəmiyyətindən bəhs edilib.

Müzakirələr zamanı habelə bəzi dövlətlərin Cənubi Qafqazda sülhü və təhlükəsizliyi təhdid edən destruktiv fəaliyyəti pislənilib. Azərbaycanın regionda sabitliyin və əmin-amanlığın qorunub saxlanılmasında səyləri vurğulanıb.

Millət vəkilləri bir sıra digər aktual mövzularda da öz fikirlərini bölüşüblər.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başlayıb. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Tahir Mirkişili komitə iclasında üçüncü oxunuşda müzakirə edilən qanun layihəsinə dair layihə təşəbbüskarları tərəfindən dəyişiklik irəli sürüldüyünü deyib. Bildirilib ki, təklif olunan dəyişikliyə əsasən, dövlət büdcəsinə Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların həcmi 500 milyon manat əvəzinə 535 milyon manat artırılaraq, 6 milyard 435 milyon manata çatdırılır. Qeyd edilib ki, əlavə 35 milyon manat daxilolmaların Əlavə Dəyər Vergisinin (ƏDV) həcminin artması hesabına təmin olunacağı ilə izah edilir. Dəyişiklik nəticəsində dövlət büdcəsinin qeyri-neft-qaz gəlirləri 18 milyard 619 milyon manat təşkil edəcək. Bununla yanaşı, dövlət büdcəsinin xərclərində də Dövlət Gömrük Komitəsinin xərclərinin 35 milyon manat artırılması təklif olunur.

Diqqətə çatdırılıb ki, nəticədə ilkin təqdim olunmuş rəqəmə nisbətən, dövlət büdcəsinin gəlirləri 0,1 faiz artırılaraq 36 milyard 388 milyon, dövlət büdcəsinin xərcləri 0,1 faiz artırılaraq 39 milyard 742,3 milyon, dövlət büdcəsinin cari xərcləri 0,1 faiz artırılaraq 23 milyard 59,4 milyon manat təşkil edəcək. İcmal büdcənin gəlirləri, ilkin təqdim olunmuş rəqəmə nisbətən 0,1 faiz artırılaraq 43 milyard 515 milyon, xərcləri isə 0,1 faiz artırılaraq 45 milyard 626,8 milyon manat olacaq.

Komitə sədri bildirib ki, dövlət büdcəsinə dəyişikliklə bağlı qanun layihəsi 2024-cü ildə ölkəmiz qarşısında yaranacaq çağırışlara layiqli cavab vermək və bütün istiqamətlərdə dövlət siyasətini uğurla həyata keçirmək üçün mühüm maliyyə bazası yaradacaq.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələrinə dair məlumat verib.

Hər iki sənəd barədə birinci və ikinci oxunuş zamanı geniş məlumat verildiyini deyən komitə sədri bir daha xatırladıb ki, təqdim edilmiş sənədlərə əsasən, Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il üçün dürüstləşdirilmiş gəlir və xərcləri bərabər olaraq 30 milyon manat artırılaraq 6 milyard 949 milyon 860 min manat təşkil edəcək. Qeyd olunub ki, İşsizlikdən Sığorta Fondunun 2024-cü il üçün dürüstləşdirilmiş büdcəsi 4,7 milyon manat artırılacaq və bu artım qeyri-büdcə sektoru üzrə baş verəcək.

Musa Quliyev qanun layihələrinin ikinci oxunuşda müzakirələri zamanı deputatlar tərəfindən bəzi sosial problemlərlə əlaqədar qaldırılan məsələlərlə bağlı araşdırmaların aparıldığını və nəticələri barədə onlara məlumat verildiyini də söyləyib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bu iki məsələ barədə onun rəhbərlik etdiyi komitənin müsbət rəyini açıqlayıb.

İclasda 2024-cü ilin dövlət büdcəsində, Dövlət Sosial Müdafiə və İşsizlikdən Sığorta fondlarının büdcələrində dəyişikliklərlə bağlı qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Parlamentin Sədri gündəliyin digər iki məsələsinin Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olduğunu, hər iki qanun layihəsinin beynəlxalq sənədlərin təsdiqi ilə bağlı olduğunu və müvafiq Konstitusiya qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul ediləcəyini bildirib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında ümumvətəndaş pasportlarının sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib. Azərbaycanla Mərakeş arasında münasibətlərin yüksək səviyyədə olduğunu deyən komitə sədri ölkələrimizin Qoşulmama Hərəkatı, digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının inkişaf etdiyini söyləyib. O, sənədin iki dövlət arasında əlaqələrin dərinləşməsi baxımından əhəmiyyətini qeyd edib.

Qanun layihəsi səsə qoyularaq qəbul olunub.

Səməd Seyidov "Azərbaycan Respublikası Hökuməti ilə Qambiya Respublikası Hökuməti arasında diplomatik pasportlara malik şəxslərin qarşılıqlı viza tələbindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsini də təqdim edib. Komitə sədri Azərbaycanla Qambiya arasında diplomatik pasportlara malik şəxslərin qarşılıqlı viza tələbindən azad edilməsinə dair sənədin qəbul olunmasının ölkəmizin milli maraqlarına uyğun olduğunu bildirib.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Spiker Sahibə Qafarova gündəliyin növbəti 5 məsələsinin üçüncü oxunuşda qanun layihələri olduğunu deyib.

Əmək və sosial siyasət komitəsinin üzvü Vüqar Bayramov "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinə dair məlumatı diqqətə çatdırıb. O, sənədin sosial təminatın gücləndirilməsi baxımından əhəmiyyətini qeyd edərək təklif olunan dəyişikliklərdə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması məqsədilə əlavə iş yerlərinin yaradılması və məqsədli proqramların həyata keçirilməsi, habelə peşə hazırlığı ilə bağlı müddəaların əks olunduğunu bildirib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, layihəyə dair əlavə heç bir rəy və təklifin daxil olmadığını söyləyib.

Layihə ölkəmizdə qanunsuz miqrantların müəyyən edilməsi və qanunsuz miqrasiyanın qarşısının alınması, o cümlədən miqrasiya qanunvericiliyinin pozulması hallarının aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması məqsədilə hazırlanıb. Sənəddə təklif olunan dəyişikliyə əsasən, aralarında nikahın bağlanmasına yol verilməyən şəxslərin sırasına ikisindən biri və ya hər ikisi ölkə ərazisində qanunsuz olan və yaxud yaşayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərin də əlavə edilməsi nəzərdə tutulur.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Yol hərəkəti haqqında" və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, komitənin layihə ilə bağlı müsbət rəy verdiyini bildirib. Sənəddə təklif olunan dəyişikliklər qanunvericilikdə nəzərdə tutulan səlahiyyətlərin publik hüquqi şəxs statuslu qurumlar tərəfindən də həyata keçirilməsinə imkan yaratmaq məqsədilə hazırlanıb.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov sənəd barədə bu komitənin rəyini söylədikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Elnur Allahverdiyev "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Bildirib ki, layihə birinci və ikinci oxunuşda ətraflı müzakirə edilib və sənədlə bağlı deputatlardan heç bir irad və təklif daxil olmayıb.

Sənəddə peşəkar mühasib sertifikatlarının verilməsi üçün imtahanlarda iştirakın ödənişli olmasının, bu imtahanda iştirak etmək üçün ödənişin məbləğinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təsdiq edilməsinin hüquqi əsasları təsbit edilir.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsinə dair məlumatı nəzərə çatdırıb. O, layihə ilə bağlı əlavə heç bir təklifin daxil olmadığını bildirib.

Sənəddə Azərbaycanın diplomatik nümayəndəliklərində və ya konsulluq idarələrində nikah bağlamaq istəyən şəxslərin tibbi müayinədən öz vəsaitləri hesabına müraciət etdikləri diplomatik nümayəndəliyin akkreditə olunduğu, yaxud yerləşdiyi xarici dövlətdə seçdikləri tibb müəssisəsində keçmələri, habelə Azərbaycanın diplomatik nümayəndəliklərində və ya konsulluq idarələrində nikaha daxil olmaq barədə ərizəyə həmin tibb müəssisələri tərəfindən verilmiş tibbi müayinədən keçdiklərini təsdiq edən sənədin əlavə edilməsi təklif olunur.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Milli Məclisin Sədri gündəliyin digər yeddi məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu qeyd edib.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc gündəliyin 11-ci məsələsi olan Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. Elektron dövlət xidmətlərinin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin təkmilləşdirilməsi məqsədilə hazırlanan qanun layihəsinin əvvəlki oxunuşu barədə məlumat verən komitə sədri sənədin əhəmiyyətini vurğulayıb və olduğu kimi səsə qoyulmasını təklif edib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova məsələyə dair komitələrinin müsbət rəylərini səsləndirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) qanun layihəsi barədə məlumat verib. O, layihənin birinci oxunuşu zamanı heç bir iradın olmadığını, ikinci oxunuşda əlavə təkliflərin daxil edilmədiyini deyib.

Qanun layihəsi Azərbaycan Prezidentinin "Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında" 15 iyul 2021-ci il tarixli fərmanı çərçivəsində hazırlanıb. Sənəddə kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadənin səmərəliliyini yüksəltmək üçün kənd təsərrüfatı yerlərinin məqsədli təyinatının dəyişdirilməsinin çevik mexanizminin yaradılması məsələləri təsbit olunur.

Layihə ətrafında müzakirələrdə Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, deputatlar Qüdrət Həsənquliyev, Razi Nurullayev, Bəhruz Məhərrəmov fikir və qeydlərini açıqlayıblar.

Komitə sədri Tahir Rzayev qaldırılan məsələlərə münasibət bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Gündəliyin 13-cü məsələsi olan Əmək Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib.

Təklif olunan dəyişikliklərin əmək münasibətlərinin elektronlaşdırılmasının daha geniş hüquqi bazasının yaradılmasına xidmət etdiyini deyən Musa Quliyev qanun layihəsinin qəbulundan sonra əmək müqavilələrinin bağlanması, şərtlərinin dəyişdirilməsi və xitamının sənədləşdirilməsi, əmək şəraiti, əməyin ödənilməsi, təhlükəsizliyin təmini və müxtəlif məşğulluq tədbirlərinin həyata keçirilməsi, sosial tərəfdaşlarla iş kimi əksər proseslərin tam elektronlaşacağını bildirib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin müsbət rəyi dinlənildikdən sonra layihə səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov gündəliyin 14-cü məsələsi olan "Yol hərəkəti haqqında" qanunda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verərək bildirib ki, qanun layihəsinin birinci oxunuşu zamanı təklif olunan dəyişikliklərlə bağlı ətraflı məlumat verilib. O, layihə ilə bağlı hər hansı bir rəy və təklif daxil olmadığı üçün sənədin olduğu kimi səsə qoyulmasını xahiş edib.

Layihənin müzakirəsində komitə sədri Zahid Oruc və deputat Naqif Həmzəyev fikirlərini bildiriblər. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib. Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Növbəti məsələyə - "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə (ikinci oxunuş) ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Elşən Musayev məlumat verib. Bildirib ki, ilk oxunuşdan sonra komitəyə sənədlə bağlı heç bir müraciət daxil olmayıb.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Gündəliyin 16-cı məsələsi olan Ailə Məcəlləsində, Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumatı Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova təqdim edib. Komitə sədri bildirib ki, əhalinin reproduktiv sağlamlığının tibbi aspektləri ilə dövlətin demoqrafik siyasəti arasında sıx əlaqə mövcuddur. Bu mənada, erkən nikah və qohum evlilikləri problemi sosial-iqtisadi əhəmiyyət kəsb edir. Erkən yaşda nikah və qohum evliliklərin yayılmasına təkan verən amillərdən söz açan komitə sədri bu cür evliliklərin fəsadlarını diqqətə çatdırıb. Mövzu ilə əlaqədar Milli Məclisdə keçirilən geniş müzakirələrdə qaldırılan məsələlərə qanunvericilik təşəbbüsü subyektinin münasibətini açıqlayan komitə sədri qeyd edib ki, onlara gələcəkdə baxılması məqsədəmüvafiq hesab olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qanun layihəsi ilə bağlı komitəsinin müsbət rəyini səsləndirib və təklif olunan dəyişikliklərin hüquqi və dünyəvi dövlətçilik kontekstində əhəmiyyətini vurğulayıb.

Sənədin müzakirəsində parlamentin komitə sədri Fazil Mustafa, deputatlar Fəzail Ağamalı, Emin Hacıyev, Bəhruz Məhərrəmov çıxış ediblər, layihə ilə bağlı fikirlərini bildiriblər.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova gündəliyin sonuncu məsələsi - "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat vermək üçün sözü Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyevə təqdim edib.

Komitə sədri bildirib ki, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanunun 3-cü maddəsinə təklif olunan dəyişikliyə əsasən, yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçot onun ailə üzvləri üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada saxlanılır.

Musa Quliyev sənədin birinci oxunuşda müzakirəsi zamanı deputatların səsləndirdikləri sualları cavablandırıb və qaldırdıqları məsələlərə aydınlıq gətirib.

Məsələ ilə bağlı deputatlar Razi Nurullayevin və Aydın Mirzəzadənin fikirləri dinlənildikdən sonra sənəd səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Sülh uğrunda müharibə

## "Dəmir yumruğ"un sülhyaratma missiyası

**Sülh istəyirsənsə, müharibəyə hazır olmalısan!**
**Zamanın sınağından çıxmış müdrik tövsiyədir!**
**Bəli, heç kəs özündən güclüsü ilə cəngə girmək istəməz...**
**Heç kəs özündən güclüsü ilə dava etmək niyyətinə düşməz...**
**Heç kəs özündən güclüsünə öz iradəsini qəbul etdirmək fikrində olmaz.**
**Nəticəsi irəlicədən bəlli davaya kim başlayar?**
**Namərd qonşusu olanlar isə bu həqiqəti heç vaxt unutmamalıdırlar!**
**Güclü ordu yaratmalı və saxlamalı, daim onu ən yeni silahlarla təchiz edərək təlimlər keçməlidirlər.**
**Heç zaman unutmamalısan ki, qonşun müxənnətdirsə, deməli, fürsət gözləyir.**

*Ermənistan 30 il sülhə gəlmədi, işğala son qoymadı.*

*44 gün ərzində isə ordusunu darmadağın edərək torpaqlarımızdan qovduq!*

*Sonra ona kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalatdıq!*

* Ermənistan Laçın dəhlizini özününkü sayaraq illər boyu o yolla ölkəmizə terrorçu, silah-sursat, rüşvətxor senator, konqresmen, Duma deputatı, mina daşıdı.

**Bircə gün ərzində sərhədimizdə nəzarət-buraxılış məntəqəsi yaradaraq xəyanət yolunu birdəfəlik bağladıq!**

* Ermənistan Xankəndidəki qondarma quruma dəstəyini dayandırmadı, yeni "prezident" seçilməsini təbrik etdi, qanunsuz silahlı birləşmələrini, terrorçu dəstələrini Qarabağdan çıxarmadı.

**23 saatlıq antiterror tədbirində separatçıların 30 ildə yaratdıqları bütün hərbi qurğularını dağıtdıq, hərbçilərinin hamısını tərk-silah edərək ölkədən qovub çıxartdıq!**

*Azərbaycan vətəndaşlığını qəbul etmək istəməyən ermənilər də onların dalınca getdilər.*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev əvvəlcə sözünü sakitliklə deyir, istəyini qarşı tərəfə sülh yolu ilə, xəbərdarlıq şəklində çatdırır...**

**Onu başa düşməyəndə, nəticə çıxarmayanda, həddini aşanda isə "dəmir yumruğ"unu işə salır!**

* İndiyədək dünyanın gözü qarşısında baş verən bütün bu hadisələr göstərir ki, Azərbaycanın apardığı ədalətli müharibədir!

* Sülhə xidmət edən müharibədir!

* Beynəlxalq hüququn təmininə şərait yaradan müharibədir!

* Yolunu azanları, ağlını itirənləri düz yola gətirməyə, ağıllandırmağa xidmət edən müharibədir!

**Bütün bunlar ədalətli müharibəmizin əsl mahiyyəti, mənəvi, tərbiyələndirici tərəfidir!**

❖ ❖ ❖

Bütün dünyanın, o cümlədən Ermənistanın və hayların müdafiəçilərinin yaxşı bildikləri sadə bir həqiqət də var.

Dünyada baş verən prosesləri yaxından izləyənlər dəfələrlə bu həqiqətin şahidinə çevriliblər.

Azərbaycan əvvəlcə beynəlxalq hüquq, tarixilik və ədalət baxımından özünə məxsus olanı sülh yolu ilə, danışıqlar əsasında tələb edir.

Qarşı tərəfin müxtəlif oyunbazlıqlarını sakitcə izləyir, səbirlə gözləyir...

Görəndə ki, kimlərsə özlərini gicliyə qoyaraq özününkü olmayana əbədi sahib çıxmağa çalışır, yaxud müxtəlif bəhanələrlə dediyinə, imzaladığı sənədə əməl etmək istəmir, onda "dəmir yumruğ"u işə salır!

**Qanuni haqqına gücü və digər imkanları sayəsində nail olur!**

*Bir neçə misal:*

Rusiyanın zəmanəti ilə 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın qəsdən əməl olunmayan bir neçə bəndi vardı.

* Laçın və Zəngəzur dəhlizlərini açmaq və birgə nəzarətlə işləməsini təmin etmək.

* Azərbaycan ərazisində fəaliyyətdə olan Ermənistana məxsus qanunsuz silahlı birləşmələri və terrorçu qrupları tərksilah edərək ölkə ərazisindən çıxarmaq.

* Qarabağdakı etnik ermənilərin Azərbaycan qanunları əsasında yaşamalarının və ölkə vətəndaşlığını qəbul etmələrinin təmin olunmasına dəstək vermək!

**Nə Ermənistanın, nə də Qarabağdakı qanunsuz qurumun rəhbərliyi verdikləri sözü yerinə yetirdilər!**

NƏTİCƏDƏ:

* 23 aprel 2023-cü ildə Azərbaycan Ordusu Laçın yolunda nəzarət-buraxılış məntəqəsi yaradaraq dövlətimizin ərazi bütövlüyünü təmin etdi!



Bundan sonra Laçın yoluna özümüz nəzarət etməyə başladıq!

* 19-20 sentyabrda 23 saatlıq antiterror tədbirləri nəticəsində Qarabağdakı terrorçu qruplar və qanunsuz hərbi birləşmələr tərk-silah olunaraq təslim aktını imzaladılar!

*Ərazimizdən qovuldular!*

* Ardınca qondarma rəhbərlərsiz, ordusuz qalan və Azərbaycanda yaşamaq istəməyənlər dinməz-söyləməz başlarını aşağı salıb Ermənistana getdilər!

*Nə bir mülki obyektə ziyan dəydi, nə də bir dinc sakinin burnu qanadı.*

**İndi üçtərəfli Bəyanatın icra olunmayan digər bəndləri qalır.**

**Azərbaycan yenə məsələnin sülh yolu ilə həllinə üstünlük verərək gözləyir.**

Amma səbrin də, oyunbazlığın da sərhədi, tükənən vaxtı olur!

İndiyədək baş verənlərdən düzgün nəticə çıxararaq ağıllanmaq gərəkdir, haylar!

❖ ❖ ❖

**Azərbaycanla Ermənistan vasitəçilərsiz, təkbətək danışdılar.**

*Ermənistanın baş naziri N.Paşinyan yeni reallığı düzgün qiymətləndirərək doğru qərar qəbul etdi:*

*Azərbaycana məxsus dörd kəndin boşaldılmasına, həmin istiqamətdən delimitasiya və demarkasiya prosesinin başlanmasına start verdi.*

Bundan rəncidəyə düşən Ermənistanın və erməni xalqının əsl düşmənləri, forpost ölkəni dilənçi vəziyyətinə salanlar, əhalinin xaricə kütləvi qaçışına səbəb olanlar, Yerabrulun yaranmasına və genişlənməsinə xidmət edənlər yenidən ortalığa düşdülər.

**Görün müharibənin sülh müqaviləsi ilə başa çatmasına, Cənubi Qafqazda əbədi sülh, əməkdaşlıq yaranmasına etiraz edənlər kimlərdir.**

*Qarabağ klanı.*

Qarabağ münaqişəsi başlamazdan əvvəl ortalıqda qalan, özlərindən yuxarıdakılara yaltaqcasına xidmət göstərərək yüngül bir vəzifə, çörək qazanmaq istəyən R.Koçaryan və S.Sarkisyan münaqişə və müharibə dövründə əsl milyarderlərə çevrildilər, əmlakları Ermənistana və Rusiyaya belə sığmır.

**Ermənistanın bugünkü acınacaqlı durumunun birbaşa təqsirkarlarından olan bu cəlladlar hələ məhkəmə qarşısında bəraət qazanmamış yeni cinayətlər törətmək istəyirlər.**

*Erməni kilsəsi.*

Bu kilsə erməni diasporu ilə Ermənistanı birləşdirən bağlardan biridir.

Erməni katolikosları heç zaman sülhə, barışa xidmət etməyiblər...

Əksinə, müharibənin təhrikçiləri kimi çıxış edərək din pərdəsi altında öz cavanlarını "ət maşını"na göndəriblər.

**44 günlük müharibədə əli avtomatlı keşişlər də bizə qarşı vuruşdular.**

*Revanşistlər.*

Millətçilik hissi, "Böyük Ermənistan" xülyası ilə zəhərlənmiş bu tip revanşistlər məğlubiyyətləri ilə barışmaq istəmirlər.

Erməni gənclərini qisasa təhrik edirlər.

*Həm də yenidən müharibə baş verəcəyi halda Ermənistanın və erməni xalqının nə günə qalacağının fərqində deyillər.*

*Belə getsə, kişi cinsi olmayan, yalnız qadınlardan ibarət yeni Ermənistanın yarana biləcəyini görünür, dərk etmirlər!*

❖ ❖ ❖

Özgəyə ümid olan şamsız qalar - demişlər!

Bu gün Ermənistan da, Gürcüstan da ABŞ-yə, Qərbə üz tutublar, onlara arxalanırlar.

İnanırlar ki, nə vaxtsa onları Avropa İttifaqına qəbul edəcəklər və bu hesaba yağ içindəki böyrək kimi yaşayacaqlar.

**Amma hər iki ölkədə nə sabitlik var, nə də sabaha inam.**

*Milli maraqlarını hər şeydən uca tutan Azərbaycan isə sürətlə inkişaf edir, qarşıya qoyduğu bütün hədəflərə uğurla nail olur!*

Azərbaycan uzun illərdir ki, Gürcüstanı böyük fayda gətirən nəhəng layihələrin iştirakçısına çevirib.

Ermənistan da dalandan yaxa qurtara, belə layihələrdən bəhrələnə bilər...

Amma əvvəlcə ağıllanmalı, sülhün şərtlərinə əməl etməli, özgələrin qoltuğuna sığınmaqdan əl çəkməlidir!

**Silahla Azərbaycanın üstünə gələnlər tabutla geri qayıdacaqlar!**

**Sülh yolu ilə əməkdaşlıq edənlər isə qazanacaqlar!**

❖ ❖ ❖

O şey ki, xoşluqla alına bilər, onu zora çevirməyə ehtiyac yoxdur!

Ermənistandakılar da, onlara "qorxma" deyib ürək-dirək verənlər də, erməni diasporu da, qisasçılıq hissi ilə yaşayanlar da bir məsələni dəqiq bilməlidirlər:

* Getdi artıq o günlər!

* Bitdi "Böyük Ermənistan" xülyası!

* Nə dünya o dünyadır, nə də Azərbaycan keçmişdəki Azərbaycan!

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı möhtəşəm ordu 30 illik işğala 44 gündə son qoydu, düşmən ordusunu məhv etdi!**

*12 mindən çox erməni əsgər və zabiti, hətta generallar belə fərariyə çevrildi, döyüş meydanını qoyub qaçdılar.*

**Nə ABŞ-nin, nə Avropa İttifaqının, nə də Fransanın sözlərinə inanaraq ağlınızı itirməyin!**

*ABŞ-nin və Avropa İttifaqının ayırdığı vəsait, Fransanın göndərdiyi köhnə-kürüş hərbi texnika və ya öldürücü silahlarla nəyisə dəyişmək mümkün deyil!*

**Gürcüstanda və Ukraynada baş verənləri heç zaman unutmayın!**

**10 milyonluq Azərbaycanın qarşısında 3 milyonluq Ermənistan heç nədir!**

*Durbin götürərək bütün günü Azərbaycan ərazisinə baxan köhnə jandarma, casus və kəşfiyyatçılara da bel bağlamayın!*

**Cənab İlham Əliyevin dediyi kimi, bir güllə atılan kimi onların hamısı gəldikləri yerədək qaçacaqlar!**

*Azərbaycanın verdiyi sülh təklifləri həqiqəti əks etdirir, ədalətlidir, beynəlxalq hüquqa söykənir!*

**Sülh istəyimizin arxasında isə qüdrətli ordumuz dayanır!**

**Bunu isə heç zaman yaddan çıxarmayın!**

❖ ❖ ❖

* Azərbaycan 30 il ərzində Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə ümid bəsləyərək gözlədi.

* Haqqa, ədalətə inanaraq gözlədi.

* Beynəlxalq hüquqa əməl ediləcəyinə inanaraq gözlədi.

* ATƏT-in Minsk qrupunun vəzifə borcunu yerinə yetirəcəyinə inanaraq gözlədi.

* Dünyanın ən böyük təşkilatı sayılan BMT-nin Təhlükəsizlik Şurasının öz qətnamələrinə əməl edəcəyinə inanaraq gözlədi.

**Eyni zamanda gözləyə-gözləyə öz işini görərək, mövqeyini də açıq bəyan etdi!**

**Prezident İlham Əliyev dəfələrlə hamının eşidəcəyi şəkildə bildirdi:**

* Azərbaycan bir qarış torpağını belə heç kəsə güzəştə getməyəcək!

* Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına yol verməyəcək!

**İlham Əliyevin Azərbaycana rəhbərliyinin 20 ili ərzində:**

* Azərbaycan tarixinin ən qüdrətli dövləti səviyyəsinə yüksəldi!

* Dünyada nüfuzu artdı, beynəlxalq qurum və təşkilatlarda onu müdafiə edənlər çoxaldı!

* Özünə güclü ordu yaradaraq onu ən müasir silahlarla silahlandırdı!

* Yeni gənc nəsil, Vətən uğrunda hər an şəhid olmağa hazır əsgər və zabitlər, xüsusi təyinatlılar yetişdi!

* Hücum diplomatiyasından hücum taktikasına keçdi!

**30 ildə bütün dünyanın sülh danışıqları ilə həll edə bilmədiyi münaqişəni 44 gündə hünərlə çözərək sülhün yolunu açdı!**

Ancaq Ermənistan və onun havadarları heç zaman unutmamalıdırlar ki, bu Zəfərin arxasında qüdrətli Azərbaycan və onun möhtəşəm ordusu dayanır!

*Ermənistan yaranmış fürsətdən istifadə edərək blokadadan çıxmalı, dövlətçiliyini xilas etməlidir!*

Sözünün sahibi olan cənab İlham Əliyev sözünü deyərək xəbərdarlıqlarını edib!

Adətən uğursuz sülh danışıqlarından sonra qalibiyyətli hərbi əməliyyatlar gəlir!

**Bu, Müzəffər Ali Baş Komandan İlham Əliyevin taktikasıdır!**

**Həm də dəfələrlə sınaqdan uğurla çıxmış taktikası!**

**Bəxtiyar SADIQOV**

# Vətən sizə əbədi minnətdardır

## Azərbaycan polisi dövlətə və xalqa sədaqətinin növbəti nümunəsini göstərdi

**Azərbaycan xalqı 3 qəhrəman polisinin yasını tutur...**

**O qəhrəmanlar ki, silahlı cinayətkarı zərərsizləşdirmək üçün çəkinmədən, qorxmadan sinələrini odlu silaha sipər etdilər...**

**Cinayətkarın əlində odlu silahın olduğunu görən Azərbaycan polisi yenə də özünü ləyaqətlə apardı və həyatını belə qurban verməkdən çəkinmədi...**




Gecə-gündüz usanmadan xalqın, asayişin keşiyində duran, dar gündə harayına hamıdan tez yetişən polisə elə qoruduğu adam güllə atdı...

Ailə üzvlərinin arxasında gizlənən cinayətkar da çox yaxşı bilirdi ki, Azərbaycan polisi heç zaman vətəndaşa güllə atmaz!

Budur, Azərbaycan polisi - dincliyimiz, asayişimiz üçün özünü qurban verən, dövlətin təhlükəsizliyini qorumaq naminə canlarından keçən qəhrəmanlar...

Eldəniz Məmmədov...

Mahir Ağayev...

Mirəli Heydərov...

Bir ailənin üzvlərini, məsumları yaşatmaq üçün həyatlarını qurban verərək şəhidlik zirvəsinə ucaldılar...

İyunun 24-də Xəzər rayonu Şüvəlan qəsəbəsində baş verən cinayət hadisəsi ölkənin gündəmində ən çox müzakirə olunan mövzuya çevrilib. Daha doğrusu, ölkə ictimaiyyəti məyusluq içərisindədir. Çünki xalq polisini yaxşı tanıyır, onun göstərdiyi xidmətə 24 saat şahidlik edir. Həftə ərzində 7 gün, gün ərzində 24 saat təhlükəsiz yaşamaq istəyən hər bir insan polisə etibar edir və bu etibar hörmətlə, inamla şərtlənir.

Həyatın elə anları var ki, onlar insanın daxilində mənəvi bir öhdəlik yaradır. Ancaq polisin həyatı və xidməti elə bu cür anlardan ibarətdir və bəzən bu, onun həyatı bahasına başa gəlir. Bu şərəfli peşəni seçən hər bir insan özü ilə bərabər doğmalarını da bu riskin çətiri altında yaşamağa məhkum edir.

Doğrudur, hər peşənin bir-birindən fərqli xüsusiyyətləri, üstünlükləri və çətinlikləri var. Bu peşələrin içində polisin xidməti çətinliyi və məsuliyyəti ilə seçilir. İnsan neçə gün yuxusuz qala bilər, neçə həftə istirahətsiz işləyə bilər?!












Amma polis bu yuxusuz gecələri və istirahətsiz həftələri xidməti vəzifə öhdəliyi hesab edir, xalqa və qanuna məsuliyyətlə xidmət edir. Elə bu səbəbdəndir ki, polis işində istirahət anlayışı yoxdur. Onlar gecə-gündüz demədən, qar-borana, qızmar günəşə, sərt küləyə baxmadan yollarda hərəkəti tənzimləyir, ölkəmizi dünyanın ən təhlükəsiz dövlətlərindən birinə çevirirlər.

Ölümləri bahasına da olsa, bir kimsəyə zərər vermədən vəzifə borcunu şərəflə yerinə yetirirlər...

Budur, əsl qəhrəmanlıq...

Budur, Azərbaycan polisinin amalı...

Gəlin, bir müqayisəyə nəzər yetirək:

2024-sü ilin ilk günündən bu günədək ABŞ-də polis 545 nəfəri qətlə yetirib. 2023-cü ildə polisin öldürdüyü şəxslərin sayı 1247 nəfər olub. Onlardan 27 faizi qaradərili insanlardır. Ümumilikdə son 10 ildə polisin törətdiyi ən çox qətl hadisəsi 2023-cü ildə qeydə alınıb. 2024-cü ilin ilk 5 ayı ərzindəki göstəricilər artım tendensiyasını göstərir.

2013-2023-cü illərdə qətl hadisəsi törədən polislərdən 98,1 faizi cinayət məsuliyyətinə belə cəlb olunmayıb. Ümumilikdə 2013-cü ildən indiyədək polis 12 910 nəfəri qətlə yetirib.

İki həftə öncə "Global Terrorism Index 2024"ün yaydığı hesabata görə, Azərbaycan ən təhlükəsiz ölkələr arasında yer alıb. Reytinq sıralanması indeksləri terror hadisələri, ölümlər, girovlar, terrorçuluqla mübarizə, terrorçuluğun araşdırılması effektivliyi və digər çoxsaylı göstəricilər üzrə qəbul edilmiş mürəkkəb hesablamalara əsaslanır. "0" indekslə sonuncu - 89-cu yerdə qərarlaşan Azərbaycan dünyada terrorla bağlı ən təhlükəsiz ölkələrdən biri kimi ən yüksək reytinqə sahiblənib.

Bu faktlar reallıqdır. Reytinq siyahısı göstərir ki, Azərbaycanda daxili sabitlik yüksək səviyyədə təmin edilir. Onun icraçısı isə polisdir...

Ölkəmizdə hər bir şəxsin qanuni mənafeyinin, hüquq və azadlıqlarının etibarlı təmin olunması üçün davamlı tədbirlər görülür, cinayətkarlığa qarşı mübarizədə polis əməkdaşları dəfələrlə həyatlarını təhlükədə qoyaraq vətəndaşlarımızı, habelə digər hüquq-mühafizə orqanlarının işçiləri ilə çiyin-çiyinə ölkəmizin ərazisində ictimai sabitliyi qoruyurlar.

ABŞ polisi üçün isə fərqi yoxdur, istər cinayətkar olsun, istərsə də günahsız vətəndaş, hüquq-mühafizə orqanlarının əməkdaşlarına bir azca müqavimət göstərən, onları təhqir edənlər yerindəcə güllələnirlər.

Azərbaycan polisi isə cinayətkara belə güllə atmır, ona məsləhət edir, yol göstərir. Vətəndaşının sağlamlığı naminə özünü odun-alovun içinə atır, sinəsini güllənin qabağına verir - Eldəniz, Mahir və Mirəli kimi...

Bizlər bu 3 igidin və onların timsalında bütün hüquq mühafizə orqanlarının əməkdaşlarının fədakarlığı, qəhrəmanlığı sayəsində yaradılan sabitliyi, rahatlığı, özgüvəni həyatımızın hər anında yaşayırıq. Amma insanlarda, ümumən cəmiyyətdə bu hissin hansı çətinliklər bahasına yarandığının bəlkə də heç fərqində olmuruq….

Onlar şəhiddirlər, ölkə vətəndaşı üçün canlarından keçən əsl igidlərdirlər...

Onlar qəhrəmandırlar, gələcəkdə bu peşəni seçmək istəyən gənclər üçün ideala çevriləcək əsl qəhrəman!

Allah rəhmət eləsin, ruhunuz şad olsun!

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Daxili işlər naziri Oğuz rayonunda vətəndaş qəbulu və sıra baxışı keçirib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 25-də Oğuz Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Oğuz rayonundakı Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra rayon polis şöbəsinin inzibati binasında Oğuz, Şəki, Qax, Zaqatala, Balakən, Qəbələ şəhər və rayonlarından qəbula gələn 224 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

19 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 88 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda iyun ayı üzrə vətəndaşlarla görüş cədvəlinə əsasən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev iyunun 25-də Siyəzən şəhərində yerləşən Heydər Əliyev Mərkəzində vətəndaşlarla görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Şabran, Siyəzən və Xızı rayonları sakinləri ilə görüş zamanı nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərə baxılıb. Müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verilib. Vətəndaşların müraciətlərində qaldırılan problemlərin bir qismi dərhal müsbət həllini tapıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə qeydiyyata alınıb və müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

* * *

İyun ayının 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Sabirabad rayonunda vətəndaşların müraciətlərini dinləyib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Saatlı, Sabirabad, İmişli və Beyləqan rayonlarından olan vətəndaşlar dini icmanın dövlət qeydiyyatına alınması, dini təhsil, maarifləndirmə işinin genişləndirilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Dövlət komitəsinin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş görüşdə vətəndaşların müraciət və təklifləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

Görüşdən sonra dövlət komitəsinin sədri Ramin Məmmədov Sabirabadda bir qrup şəhid ailəsi ilə görüşüb. R.Məmmədov şəhid ailələrinin qayğıları ilə yaxından maraqlanıb, qaldırılan məsələlərin həlli ilə bağlı qanunvericilik çərçivəsində tədbirlərin görüləcəyini bildirib.

# Azərbaycanın fövqəladə hallar naziri Türkiyənin Jandarma Hava Qüvvələrinin komandanı ilə görüşüb



**İyunun 25-də Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Jandarma Hava Qüvvələrinin komandanı general-leytenant Əli Doğanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, nazir Kəmaləddin Heydərov Azərbaycan və Türkiyə liderlərinin müdrik uzaqgörənliyi, qarşılıqlı etimadı və siyasi iradəsi sayəsində iki qardaş ölkə arasında münasibətlərin strateji müttəfiqlik səviyyəsinə yüksəldiyini məmnunluqla xatırladaraq, bu çərçivədə fövqəladə halların idarə edilməsi istiqamətində uyğun qurumlar arasında əlaqələrin daim genişləndiyini qeyd edib.

Fövqəladə Hallar Nazirliyinin fəaliyyət istiqamətlərindən ətraflı bəhs edən nazir istər ölkə daxilində, istərsə də xarici ölkələrdə baş vermiş irimiqyaslı fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması ilə əlaqədar nazirliyin Aviasiya dəstəsinin həyata keçirdiyi tədbirlərdən danışıb, hazırkı səfərin qurumlar arasında mövcud sıx əlaqələrin daha da dərinləşməsinə əlavə təkan verəcəyinə əminlik ifadə edib.

Səmimi görüşə görə təşəkkürünü bildirən Türkiyə Respublikasının Jandarma Hava Qüvvələrinin komandanı general-leytenant Əli Doğan Azərbaycanda olmasından məmnunluğunu ifadə edib. Ə.Doğan fövqəladə hallarla effektli mübarizə məqsədilə iki ölkənin uyğun qurumları arasında əlaqələrin daha da genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, səfər çərçivəsində Əli Doğanın başçılıq etdiyi nümayəndə heyəti FHN-in Aviasiya dəstəsinə səfər edərək qurumun fəaliyyəti ilə yerində tanış olacaq.

# Birinci Qarabağ müharibəsində itkin düşmüş daha 20 nəfərin şəxsiyyəti müəyyən olunub




**Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında (Dövlət Komissiyası) təmsil olunan Azərbaycan Respublikasının Baş Prokurorluğu, Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-Tibb Baş İdarəsi, Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi, AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun mütəxəssis heyəti tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində Birinci Qarabağ müharibəsində itkin düşmüş daha 20 nəfərin şəxsiyyəti müəyyən olunub.**

Bu barədə AZƏRTAC-a Dövlət Komissiyasından məlumat verilib. Eyniləşdirmənin nəticələri ilə bağlı iyunun 25-də Dövlət Komissiyasının İşçi qrupu tərəfindən itkin ailələri ilə görüş təşkil olunub, talelərinə aydınlıq gətirilmiş şəxslər barədə onlara ətraflı məlumat verilərək sualları cavablandırılıb.

Hazırda həmin şəxslərin dəfn mərasimlərinin təşkili ilə bağlı aidiyyəti dövlət qurumları ilə birlikdə zəruri işlər həyata keçirilir.

Dəfn mərasimləri barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

# Səbinə Əliyeva Mərakeşdə İƏT Ombudsmanlar Assosiasiyasının İdarə Heyətinin 11-ci iclasında çıxış edib

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiasiyasının (İƏT OA) İdarə Heyətinin Mərakeşdə keçirilən 11-ci iclasında iştirak edib.**



Ombudsman Aparatından AZƏRTAC-a bildiriblər ki, müvəkkil assosiasiyaya üzv ölkələrin ombudsmanlarının iştirak etdikləri tədbirdə çıxışında hazırda dünyada mövcud olan iqlim problemlərinin insan hüquqlarının gələcəyi ilə bağlı bir sıra narahatlıqlara əsas yaratdığını, ekoloji hüquqların təşviqi ilə əlaqədar beynəlxalq əməkdaşlığın genişləndirilməsinin mühüm önəm daşıdığını vurğulayıb. Ombudsman bu problemlərin qlobal ictimaiyyətin diqqətinə çatdırılmasında və səmərəli həll yollarının tapılmasında milli insan hüquqları təsisatlarının vacib rol oynadığını qeyd edib.

Silahlı münaqişələrin ekologiyaya mənfi təsirlərindən danışan müvəkkil Azərbaycanın üzləşdiyi mina problemindən bəhs edib, azad olunmuş ərazilərdə otuz ilə yaxın işğal müddətində basdırılmış minaların insan həyatına və sağlamlığına təhdid törətdiyini, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışına ciddi maneə yaratdığını, eləcə də dağılmış infrastrukturun və ekosistemin bərpasının xeyli maliyyə vəsaiti tələb etdiyini diqqətə çatdırıb.

Ölkəmizdə ekoloji problemlərlə bağlı mühüm tədbirlərin həyata keçirildiyini qeyd edən ombudsman ətraf mühitin mühafizəsi ilə bağlı bir çox dövlət proqramları, strategiyalar, milli fəaliyyət planları və digər sənədlərin təsdiqləndiyini və icra olunduğunu qeyd edib.

Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunduğunu bildirən S.Əliyeva cari ildə ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcəyini söyləyib. Müvəkkil COP29 çərçivəsində iqlim dəyişikliyi və insan hüquqları mövzusunda Ombudsman və milli insan hüquqları institutlarının Bakı Forumunun keçiriləcəyini söyləyib və assosiasiya üzvlərini bu tədbirə dəvət edib.



# Qəhrəmanlar ordusu



**Ordu hər bir xalqın qürur yeridir. Güclü orduya malik olmaq bir xalqın müstəqil dövlətə sahib olmasıdır. Əldə silah Vətənin keşiyində dayanan əsgər xalqın əminliyidir. Bu baxımdan müasir dünyamız hər nə qədər müharibələrə qarşı olsa da, tərəqqipərvər bəşəriyyət dövlətləri sülhə, əmin-amanlığa çağırsa da, yenə də heç kim ordunun rolunu inkar etmir. Əksinə, hər bir müstəqil ölkə müasir dövrün elmi-texniki nailiyyətlərindən faydalanaraq öz müdafiə qüdrətini daha da artırmağa can atır. Deməli, hələ əsrlər sonra da güclü ordu dövlətlər üçün həlledici üstünlüklərdən olaraq qalacaq.**

Azərbaycan xalqı həmişə sülhün, əmin-amanlığın qədir-qiymətini bilib. Qonşuları ilə mehriban, isti münasibətlərə üstünlük verib. Biz davakar olmamışıq, döyüşkən olmuşuq. Hücum etməmişik, ancaq müdafiəni də unutmamışıq. Son dərəcə əlverişli coğrafi mövqeyə, zəngin təbii ehtiyatlara malik bu məmləkətinsə qapısından düşmən əskik olmayıb. Ona görə də bir əlimizdə duz-çörək olubsa, o biri ilə də sivri qılıncın qəbzəsindən yapışmışıq. Təbii sərvətlərlə zəngin olan belə bir coğrafi ərazidə, müxtəlif geopolitik maraqların kəsişmə məkanında ordu bizim üçün milli varlıq məsələsidir.

26 İyun dövlətimizin əsas atributlarından sayılan Silahlı Qüvvələr Günüdür. Vətən müharibəsində qazandığımız tarixi zəfər, ordumuzun gücü ilə ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi bu günün dəyərini daha da yüksəldir, onun varlığından, qüdrətindən fərəhlənən vətəndaşlarımızın sevincinə sevinc qatır.

Azərbaycanın qazandığı tarixi qələbə ordu quruculuğu prosesini uğurla həyata keçirən Müzəffər Ali Baş Komandan İlham Əliyevin yürütdüyü siyasətin təntənəsidir. Müstəqil Azərbaycan dövlətini böyük nailiyyətlərə aparan digər inkişaf istiqamətləri kimi Azərbaycan Ordusunu bugünkü qüdrətinə yetirmiş proseslər də öz başlanğıcını Ümummilli Lider Heydər Əliyevin strateji inkişaf kursundan götürür. Ulu Öndər ordu mövzusuna həyatımızın ən əsas məsələlərindən biri kimi yanaşır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsini əsas vəzifə olaraq irəli sürür, bunu ictimai məsuliyyət kimi diqqətə çatdırır, bu xüsusda bildirirdi: "Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir".

## Ordunun təməli

Ümummilli Liderin bu kəlmələri real əməllərə, bu böyük dövlət adamının yaratdığı şəxsi nümunəyə əsaslanırdı. Bu bir faktdır ki, ölkəmizdə müəyyən müddətdən sonra Azərbaycan üçün hava-su kimi lazım olacaq peşəkar hərbi kadrların hazırlanması prosesinə məhz Heydər Əliyevin 1969-cu ildə ölkə rəhbərliyinə gəlişindən sonra başlanmışdı. Müdrik dövlət xadimi 1971-ci ildə böyük zəhmət bahasına respublikada hərbi kadrlar hazırlayan məktəbin - görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi liseyin yaradılmasına nail oldu. Sözügedən məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrların hazırlanmasına şərait yaratdı. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra C.Naxçıvanski adına Hərbi Məktəb ordu quruculuğunun əsas bazalarından birinə çevrildi. Ulu Öndər Heydər Əliyevin sayəsində azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində oxumasına, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasına geniş imkanlar açıldı.

1993-cü ilin iyununda, müstəqilliyini yenicə əldə etmiş Azərbaycanın ağır təhlükələrlə üz-üzə qaldığı vaxtda xalqın təkidli tələbi ilə hakimiyyət rəhbərliyinə qayıtdıqdan sonra Ümummilli Liderin həyata keçirdiyi dövlət quruculuğu proseslərində də ordu quruculuğu məsələlərinə müstəsna əhəmiyyətli məsələ kimi xüsusi diqqət yetirilirdi.

Həmin dövrdə ölkədə nizami ordudan, vahid komandanlıqdan hələ əsər-əlamət yox idi. Müxtəlif hərbi dəstələr ayrı-ayrı qüvvələr tərəfindən idarə olunur, hakimiyyət davalarında vasitə kimi bu sulahlı qruplaşmalardan istifadə edilir, bu da ölkəni vətəndaş müharibəsi təhlükəsinə sürükləyirdi. Bu vəziyyətdən istifadə edən düşmənin torpaqlarımıza təcavüzü getdikcə daha geniş miqyas alırdı. Belə bir ağır vaxtda ölkənin gələcək taleyinə görə məsuliyyəti üzərinə götürmüş Ulu Öndər Heydər Əliyev başıpozuq silahlı dəstələri ləğv edərək nizami ordu quruculuğu prosesinə start verdi. Azərbaycan Milli Ordusunun formalaşması prosesində yeni bir mərhələnin əsasını qoydu. 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin formalaşması daha da sürətləndi. Həyata keçirilən uğurlu siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına və döyüş ruhunun yüksəldilməsinə xüsusi diqqət ayrıldı. Bu istiqamətdə görülən işlərin tərkib hissəsi kimi Azərbaycan Prezidentinin 22 may 1998-ci il tarixli fərmanı ilə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu.

Hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması hərb sahəsində milli kadr ehtiyatının formalaşması prosesinə əhəmiyyətli töhfə verdi. Azərbaycan Ordusu tədricən modernləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırıldı. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına, bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildə isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na qoşuldu. İl ərzində 2 mindən çox Azərbaycan hərbçisi NATO proqramlarında, layihələrdə və digər ikitərəfli əməkdaşlıq proqramlarında iştirak edərək ən son hərbi yenilikləri mənimsədilər. Beynəlxalq sülhməramlı qüvvələrin tərkibində Kosovoda, Əfqanıstanda və İraqda zəngin təcrübə qazanan və öz standartlarını NATO standartlarına uyğunlaşdıran Azərbaycan Ordusu modern orduya çevrildi.

## Sərkərdə

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev qüdrətli sərkərdə məharəti ilə ordu quruculuğu siyasətini daha da inkişaf etdirdi. Hərbçilərimizin peşəkarlığının artırılmasına, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizatına daim xüsusi diqqət yetirdi. Dövlət rəhbərimizin həyata keçirdiyi strateji inkişaf siyasəti nəticəsində Azərbaycanın qazandığı sosial-iqtisadi uğurlar, ölkəmizin genişlənən maliyyə imkanları, qurduğu xarici tərəfdaşlıqlar bu sahədə imkanları daha da artırdı. Ali Baş Komandanın effektiv ordu quruculuğu siyasətinin məntiqli nəticəsi kimi Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Təsadüfi deyil ki, nüfuzlu "Global Fire Power" mərkəzinin 55 göstərici əsasında hazırladığı hesabatda Azərbaycan Ordusu Cənubi Qafqazda birinci, dünyada ilk əlli ordu sırasında yer aldı. Azərbaycan Prezidenti gənc nəslin vətənpərvərlik tərbiyəsinə də xüsusi diqqət ayıraraq Vətən uğrunda hər cür fədakarlığa hazır olan, orduda xidmətə şərəf işi kimi yanaşan yeni bir nəsil yetişdirdi.

Ordu quruculuğu prosesinə paralel olaraq Azərbaycan Prezidentinin təşəbbüsü və bilavasitə nəzarəti ilə ölkəmizdə hərbi sənaye kompleksi də yaradıldı. Azərbaycanda mindən çox hərbi təyinatlı məhsulun istehsalı təmin edildi. Bu gün Azərbaycan istehsalı olan silahlar dünyanın aparıcı beynəlxalq sərgilərində nümayiş olunur. Bu cür nailiyyətlər Azərbaycana öz ordusunu zəruri silah, sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaradır. Azərbaycan öz zavodlarında istehsal olunmuş hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz etməklə yanaşı, bir sıra ölkələrlə silah və hərbi texnikaların satın alınması və hərbi məhsulların istehsalına dair müqavilələrlə hərbi əməkdaşlıq əlaqələrini də genişləndirməkdədir.

## Zəfərdən zəfərə

Həyata keçirilən məqsədyönlü siyasət sayəsində Azərbaycan Ordusunun getdikcə artan gücü 2016-cı ilin Aprel döyüşlərində özünü göstərdi. Həmin ilin 2 aprelində Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Aprel döyüşlərindən iki il sonra - 2018-ci ilin mayında şanlı ordumuz xalqımıza Günnüt zəfərini bəxş etdi. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər ordumuzun nəzarətinə keçdi. Bütün bu qələbələrin tarixi-məntiqi davamı kimi Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 2020-ci ilin 27 sentyabrında düşmən təxribatına qarşı əks-hücum əməliyyatı ilə başlayan 44 günlük Vətən müharibəsində tarixinin ən böyük Qələbəsini qazandı. Döyüşlərdə bir addım da geri çəkilməyən əsgər və zabitlərimiz düşmənə sarsıdıcı zərbə vuraraq 44 gün ərzində 5 şəhəri, 4 qəsəbəni, 300-dək kəndi işğaldan azad etməyə nail oldu. Azərbaycan Ordusunun qüdrəti qarşısında işğalçı ordusu darmadağın olan Ermənistan 10 noyabr 2020-ci il tarixdə faktiki kapitulyasiya aktına imza atmaq məcburiyyətində qaldı. Razılaşmaya uyğun olaraq, noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları Azərbaycana təhvil verildi.

Azərbaycan bu şanlı qələbəni qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına qazandı və bütün dünya Azərbaycanın bu şanlı qələbəsinə şahid oldu. İkinci Qarabağ müharibəsi zamanı on minlərlə əsgər və zabiti döyüş mövqelərini qoyub qaçan Ermənistandan fərqli olaraq Azərbaycan Ordusunda bircə nəfərin də fərarilik etməməsi, yaralı əsgər və zabitlərimizin hərbi hospitallarda, xəstəxanalarda tez sağalıb yenidən döyüş meydanına qaytmaq üçün tibb işçilərindən xahişləri, könüllü cəbhəyə yola düşmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarələrinə müraciət edən on minlərlə gəncimizin vətənpərvərlik ruhu Azərbaycan Ordusundakı, Azərbaycan gəncliyindəki döyüş ruhunun, əzminin göstəricisidir. Ölkəmiz öz ərazi bütövlüyünü bu gənclərin igidliyi hesabına bərpa etdi. 44 günlük vətən müharibəsi və 2023-cü ilin sentyabrında həyata keçirilən 23 saatlıq antiterror tədbirləri nəticəsində torpaqlarımızda işğalçılığın, separatçılığın ömrünə birdəfəlik son qoyuldu.

Azərbaycan Ordusunun gücü qarşısında işğalçıların başqa seçimləri yox idi. Aparıcı Qərb mətbu orqanlarında, habelə ABŞ-nin Milli Müharibə Kollecinin (National War College) və Seton Hall Universitetinin Diplomatiya və Beynəlxalq Münasibətlər Məktəbinin analitik nəşrlərində Azərbaycan Ordusunun hərbi taktikası öyrənilərkən belə qənaətə gəlinib ki, ordumuzun qarşısında hətta dünyanın aparıcı ölkəsi olsaydı belə onun da heç bir şansı olmayacaqdı. Təsadüfi deyil ki, İkinci Qarabağ müharibəsi zamanı istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur və müvafiq ali hərbi məktəblərin dərsliklərinə salınaraq öyrənilir. ABŞ Hərbi Akademiyası və Pentaqonun rəsmiləri Azərbaycan Ordusunun hərbi əməliyyatlarının öyrənilməsi zərurətini qeyd edirlər.

## Sülh və inkişafın keşiyində

Azərbaycanda ordu quruculuğu tarixi zəfərimizdən sonra da uğurla davam etdirilir. 44 günlük Vətən müharibəsi zamanı qazanılmış təcrübə çevik və sürətli manevrə malik, yüksək dağlıq və çətin şəraitdə döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirə biləcək yeni birləşmələrin yaradılması zərurətini ortaya qoydu. Məhz bu zərurət Quru Qoşunlarının Əməliyyat (Komando) hərbi hissələrinin yaradılmasını aktuallaşdırdı. Buna görə də Azərbaycan Prezidentinin tapşırığı ilə ordumuzda yeni təyinatlı Komando hərbi hissəsi yaradıldı. Komando briqadaları istənilən tapşırığı yerinə yetirmək iqtidarındadır. Bu hərbi hissələr yüksək fiziki və döyüş hazırlığına malik peşəkar hərbi qulluqçularla komplektləşdirilir. Komando adına sahib olmaq üçün hərbi qulluqçuların komando təməl və komando ixtisas kursunu müvəffəqiyyətlə bitirməsi, müvafiq rəngdə beret və döş nişanını əldə etməsi şərtdir. Bu ixtisas kursunu keçmək çox çətindir və xüsusi məharət tələb edir. Bu kursda təlimlər "Görünmədən görmək, ölmədən dönmək" şüarı altında keçirilir. İxtisas kursu qarda və soyuqda döyüş əməliyyatı, quru komando əməliyyatı, suüstü komando əməliyyatı, hava-desant əməliyyatı, yaşayış məntəqələrində antiterror əməliyyatı mərhələləri üzrə aparılır. Bu qüvvələrin yaranması Milli Ordumuzun döyüş qabiliyyətini daha da yüksəldir. Hazırda Azərbaycan Ordusu Türkiyə Silahlı Qüvvələri modelinə uğurla uyğunlaşdırılır və yeni keyfiyyət mərhələsinə keçid edir. Buna müvafiq olaraq ordumuzun təşkilati-ştat strukturu optimallaşdırılıb, idarəetmə təkmilləşdirilib və əməliyyat qabiliyyəti inkişaf etdirilib.

Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə 2022-ci ildə Milli Müdafiə Universitetinin yaradılması da ölkəmizdə ordu quruculuğunin yeni mərhələdə uğurla davam etdirilməsinin daha bir nümunəsidir. Milli Müdafiə Universitetinin başlıca vəzifələrindən biri Azərbaycan Ordusunda ali hərbi təhsilin bütün səviyyələri və əlavə təhsil proqramları üzrə ixtisaslı kadrlar hazırlamaqdır.

Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 mart tarixli fərmanı ilə "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı"nda da dəyişikliklər edilib. Belə ki, Silahlı Qüvvələrin Hərbi Akademiyası təhsil müəssisəsi kimi ləğv olunub, onun maddi-texniki bazası əsasında iki müstəqil institut yaradılıb: Hərbi Elmi Tədqiqat İnstitutu, Hərbi İdarəetmə İnstitutu. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi fəaliyyətini Heydər Əliyev adına Hərbi İnstitut kimi davam etdirir. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Cəmşid Naxçıvanski adına Hərbi Lisey və Heydər Əliyev adına Hərbi Lisey də Milli Müdafiə Universitetinin tabeliyinə verilib. Milli Müdafiə Universitetinin tabeliyində Bakı Hərbi Kolleci, Gəncə Hərbi Kolleci və Naxçıvan Hərbi Kolleci də təşkil olunub.

Azərbaycan Ordusu qəhrəmanlar ordusudur. O, güclü, peşəkar, müharibədə, real döyüş əməliyyatlarında öz sözünü demiş və özünü təsdiq etmiş ordudur. "Bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur" deyən ölkə Prezidenti yüksək hazırlıqlı hərbçilərimizin peşəkarlığı, Azərbaycan şahinlərinin məharəti, ən müasir silahlar, hərbi texnika, xüsusilə cəmiyyətdəki vətənpərvərlik əzmini yüksək dəyərləndirir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin təşəbbüsü ilə Vətən müharibəsindəki qələbə münasibətilə təsis edilmiş orden və medallar, azad yurdlarımızda ucaldılan zəfər muzeyləri əsgər və zabitlərimizin qəhrəmanlığını, Vətən uğrunda göstərdikləri rəşadəti simvollaşdırır. Azərbaycan Ordusu bundan sonra da daim güclənəcək, öz qüdrəti ilə regionumuzda sülhün, təhlükəsizliyin, davamlı inkişafın keşiyində duracaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanın Silahlı Qüvvələri təhlükəsizliyimizin qarantıdır

**"Müstəqil dövlətimizin və xalqımızın təhlükəsizliyinin təmin olunmasında ordu amili müstəsna əhəmiyyət kəsb edir. Yəni Silahlı Qüvvələrimiz müstəqilliyimizin qarantlarından biridir. Azərbaycan xalqı ordumuzla, qəhrəman hərbçilərimizlə qürur duyur. Vətəndaşlarımız 26 İyun - Silahlı Qüvvələr Gününü böyük ruh yüksəkliyi və təntənə ilə qeyd edirlər".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə deyib.

O bildirib ki, Milli Ordumuzun formalaşmasının zəngin tarixi var. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ilk hərbi hissə - Əlahiddə Azərbaycan Korpusu yaradılıb. Həmin il mayın 28-də qəbul edilmiş "İstiqlal bəyannaməsi"ndə qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. Həmin vaxt hökumət tərəfindən 25 min nəfərlik ordu yaratmaq vəzifəsi qarşıya qoyuldu. Avqustun 1-də Azərbaycanın Hərb Nazirliyi təsis olundu. 1920-ci ildə Azərbaycan sovet işğalına məruz qaldıqdan sonra hərbi nazirlik ləğv olundu. Yalnız dövlətimizin müstəqilliyinin bərpasından, daha dəqiq desək, 1993-cü ilin iyununda Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsindən sonra Azərbaycan Respublikasının nizami ordusu yaradıldı. Ümummilli Liderin 1998-ci il 22 may tarixli qərarına əsasən, 26 İyun Silahlı Qüvvələr Günü elan olundu. Qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin qüdrətinin artırılması istiqamətində kompleks tədbirlər həyata keçirilib. Ordu quruculuğuna xüsusi diqqət yetirən Ulu Öndər deyirdi: "Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə cəmləşdirən, əks etdirən Azərbaycan Ordusunun döyüşçüsü ordumuzu möhkəmləndirə bilər və hər an qələbəyə nail ola bilər". Bəli, Azərbaycan Ordusunda hərbi-vətənpərvərlik ruhu çox yüksəkdir. Bu amil torpaqlarımızın erməni işğalından azad olunmasında mühüm rol oynadı.

YAP İdarə Heyətinin üzvü qeyd edib ki, Prezident İlham Əliyevin hakimiyyəti dövründə ordu quruculuğu məsələləri hər zaman diqqət mərkəzində olub. Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizatı daim ön planda saxlanıldı. Effektiv ordu quruculuğu siyasətinin məntiqli nəticəsidir ki, Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Təsadüfi deyil ki, nüfuzlu "Global Fire Power" mərkəzinin 55 göstərici əsasında hazırladığı hesabatda Azərbaycan Ordusu Cənubi Qafqazda birinci, dünyada ilk əlli ordu sırasında yer aldı. Eyni zamanda Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanda hərbi sənaye kompleksi də yaradılıb. Azərbaycanda mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur. Bu cür nailiyyətlər Azərbaycana öz ordusunu zəruri silah, sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaradıb.

Pərvin Kərimzadə vurğulayıb: "Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz 2020-ci il sentyabrın 27-də əks-hücum əməliyyatı ilə başlayan 44 günlük Vətən müharibəsində düşmən üzərində Qələbə qazanaraq tarixi nailiyyətə imza atdı. Döyüşlərdə bir addım da geri çəkilməyən Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə vuraraq, 44 gün ərzində - noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 300-dək kəndi işğaldan azad etdi. Düşmənin tam məğlubiyyəti ilə nəticələnən bu müharibə noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalamaları ilə başa çatdı. Bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları Azərbaycana təhvil verildi. Düşmənin kapitulyasiyası ordumuzun gücü hesabına əldə olunmuş nəticədir. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı Qələbəsinin şahidi oldu. 2023-cü ilin sentyabrında isə birgünlük antiterror tədbirləri nəticəsində Qarabağda erməni separatizmi məhv edildi və dövlətimizin suverenliyi tam təmin olundu. Ümumiyyətlə, Azərbaycan Ordusu həm 44 günlük müharibə, həm də antiterror tədbirləri zamanı beynəlxalq humanitar tələblərə uyğun davranaraq mülki əhaliyə zərər vermədi, əksinə, dinc insanların qorunması üçün zəruri addımlar atdı. Bu baxımdan Azərbaycan Ordusu bütün dünya üçün nümunə yaratmış oldu. Bütün bunlar açıq şəkildə təsdiq edir ki, Azərbaycan Ordusu paradlar ordusu deyil, güclü, peşəkar, müharibədə, real döyüş əməliyyatlarında öz sözünü demiş, özünü təsdiq etmiş ordudur. Postmüharibə dövründə isə Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub. Hazırda Azərbaycan Silahlı Qüvvələrinin yeni dövrün çağırışları əsasında komplektləşdirilməsi işləri uğurla davam etdirilir".

# Ərazi bütövlüyümüzün təminatçısı



**"Bu gün qürur hissi ilə deyə bilərəm ki, biz Silahlı Qüvvələr Gününü müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik. Bu, tarixi nailiyyətdir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq zəfər olmamışdır. Biz bütün gücümüzü səfərbər edərək düşmənə sarsıdıcı zərbələr endirib, düşməni məğlub etdik, tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etdik". Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin bəyan etdiyi kimi, rəşadətli Azərbaycan Ordusu xalqımıza yüz illər boyu fəxarətlə xatırlayacaqları qəhrəmanlıq salnaməsi bəxş edib.**

Bu il isə müstəqil Azərbaycanın tarixində ilk dəfədir ki, Silahlı Qüvvələr Gününü suverenliyimizin bərpasının gətirdiyi coşqu ilə qeyd edirik. Cənubi Qafqazın ən böyük hərbi gücü Azərbaycan Silahlı Qüvvələrinin 106 yaşını yurdumuzun hər qarışında bayram edir, ay-ulduzlu, üçrəngli bayrağımızın Xankəndidə, Xocalıda, Əsgəranda, Xocavənddə, Suqovuşanda - bütün Qarabağda dalğalandırılmasından təsvirəgəlməz qürur hissi keçiririk.

## Heydər Əliyevin yaratdığı ordu

1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun tarixi Ulu Öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli fərmanına əsasən, Azərbaycan Silahlı Qüvvələr Günü elan olunub və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

Silahlı Qüvvələrimizin inkişaf tarixi Ulu Öndər Heydər Əliyevin adı ilə birbaşa bağlıdır.

Müstəqilliyimizin ilk illərində ölkəyə rəhbərlik edənlərin səriştəsiz fəaliyyətləri nəticəsində nizami ordu quruculuğu həyata keçirilmədi. Müxtəlif hərbi dəstələr isə ayrı-ayrı qüvvələr tərəfindən idarə olunurdu. Bundan istifadə edən düşmənin torpaqlarımıza təcavüzü getdikcə daha geniş miqyas alırdı. Belə bir ağır vaxtda hakimiyyətə qayıdan Heydər Əliyev başıpozuq silahlı dəstələri ləğv edərək nizami ordu quruculuğu prosesinə start verdi.

1994-cü ildə atəşkəs elan olunduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin formalaşması daha da sürətləndi. 1990-cı illərin ortalarından başlayaraq Azərbaycanın NATO ilə sıx və səmərəli əməkdaşlığı ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə, Silahlı Qüvvələrimizin modernləşdirilməsinə, müasir standartlara uyğunlaşdırılmasına imkan yaratdı.

Ulu Öndər ordunun gücünün dövlətin var olmasında müstəsna əhəmiyyətə malik olduğunu hər zaman diqqətə çatdırırdı: "Biz müstəqil dövlətik. Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir".

## Qələbəyə aparan yollar

Heydər Əliyev siyasi kursunu uğurla davam etdirərək Azərbaycanı inkişaf mərhələsinə yüksəldən Prezident İlham Əliyev ordu quruculuğu işini daim şəxsi diqqətində saxladı. Hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizatı kimi məsələlər daim ön planda saxlanıldı.

Məhz Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Təsadüfi deyil ki, nüfuzlu "Global Fire Power" mərkəzinin 55 göstərici əsasında hazırladığı hesabatda Azərbaycan Ordusu Cənubi Qafqazda birinci, dünyada ilk əlli ordu sırasında yer aldı.

Bütün dünya Azərbaycan Ordusunun gücünə 2016-cı ilin aprelində Lələtəpə qələbəsi zamanı şahidlik etdi. Həmin zaman "dəmir yumruq" işə düşərək cəmi dörd günə işğalda olan torpaqlarımızın 2 min hektardan çoxunu azadlığına qovuşdurdu və Lələtəpə qələbəsi ilə böyük Zəfərin başlanğıcını qoydu.

Şanlı Aprel döyüşləri Ermənistanın uzun illər ərzində guya güclü ordusunun olması haqqında yaratdığı mifin də elə mif olduğunu sübut etdi. Bu döyüşlər, əslində, Ermənistan ordusunun qorxaqlar, acizlər, fərarilər yığını olduğunu faktlarla ortaya qoydu.

Azərbaycan Ordusunun daha bir uğuru 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazanıldı. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi.

Həm Aprel döyüşləri, həm də Günnüt əməliyyatı böyük Zəfərə aparan yolda atılan mühüm və uğurlu addımlar oldu.

## Şanlı tarix

Azərbaycan Silahlı Qüvvələri 44 günlük Vətən müharibəsində Ermənistan ordusunu məhv edərək hansı gücə və qüdrətə malik olduğunu dünyaya göstərdi. Qəhrəman döyüşçülərimiz Vətən uğrunda çıxdıqları haqq yürüşündə daim irəli getdilər, düşmən tapdağından azad etdikləri ərazilərimizdən bir qarış belə geri çəkilmədilər. Sinələrini Vətənə sipər edən igid oğullarımız torpaqlarımızı yağı tapdağından qarış-qarış azad etdilər, bayrağımızı Qarabağın incisi Şuşada dalğalandırdılar. Ermənistan ordusu faktiki olaraq məhv edildi, Ağdam, Laçın, Kəlbəcər bir güllə atılmadan, bir itki verilmədən azad edildi.

2020-ci ildə Bakıda Azadlıq meydanında keçirilən Zəfər paradındakı çıxışında Müzəffər Ali Baş Komandan İlham Əliyev də fəxr hissi ilə vurğuladı ki, Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu: "Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq".

"Dəmir yumruq" Şuşa qələbəsi ilə xalqımıza qürur, düşmənlərimizə unuda bilməyəcəkləri dərs verdi, "Qarabağ Azərbaycandır!" həqiqətinin altına qızıl möhür vurdu.

## Ordumuz erməni separatizminə son qoydu

2023-cü il sentyabrın 19-20-də cəmi 23 saat davam edən antiterror tədbirlərində isə Silahlı Qüvvələrimiz separatçıları məhv edərək, Qarabağda quldur yuvasını dağıtdılar. Bununla da bütün torpaqlarımız üzərində suverenliyimiz tam bərpa edildi. Oktyabrın 15-də - Prezident seçilməsinin 20-ci ildönümündə Xankəndidə Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Azərbaycan bayrağının dalğalandırılması böyük tarixi hadisə oldu.

Həmin vaxt çıxışında şanlı qələbələrimizin qazanılmasında Azərbaycan Ordusunun misilsiz xidmətlərindən bəhs edən Müzəffər Ali Baş Komandan İlham Əliyev bir daha ordu quruculuğuna diqqət çəkərək dedi: "Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda keçən ay cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik".

2023-cü il noyabrın 8-də Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradın məhz Xankəndidə keçirilməsinin də öz rəmzi mənası oldu. Qalib lider İlham Əliyevin siyasi əzmi, qətiyyəti, Silahlı Qüvvələrimizin gücü sayəsində torpaqlarımız işğaldan azad edildi, Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, suverenliyini təmin etdi.

Dövlət-xalq-ordu birliyimiz sayəsində əldə etdiyimiz tarixi zəfərlər yeni-yeni qələbələrimizə də rəvac verib. 2024-cü il may ayının 24-də Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndləri də azadlığına qovuşdu.

## Ordumuz bu gün daha güclüdür

Tarixi zəfərlərimizdən sonra da Silahlı Qüvvələrimizin döyüş imkanlarının artırılması prioritet vəzifələr sırasındadır. Bundan irəli gələrək bütün qoşun növlərinin maddi-texniki bazası ən müasir standartlar səviyyəsinə çatdırılır. Silahlı Qüvvələrimizin arsenalı Azərbaycanın müdafiə sənayesinin istehsal etdiyi hərbi texnika və silah-sursatlarla yanaşı, dost ölkələrin, xüsusilə qardaş Türkiyənin hərbi sənayesinin məhsulları, pilotsuz uçuş aparatları ilə daha da zənginləşdirilir. Bir sözlə, Azərbaycan Ordusu hər ötən gün daha da güclənir.

"Biz bu gün Silahlı Qüvvələrimizi vahid proqram əsasında inkişaf etdiririk və əminəm ki, yaxın gələcəkdə bizim ordumuz yeni, yüksək səviyyəyə qalxacaqdır" - deyə ötən ilin iyununda - Silahlı Qüvvələr Günü ərəfəsində Müdafiə Nazirliyinin Komando hərbi hissələrinin birində nitqi zamanı Müzəffər Ali Baş Komandan da bəyan etdi ki, bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha güclüdür.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



# Cənubi Qafqazın ən güclü Silahlı Qüvvələri

**"Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana hakimiyyətə gəlişindən sonra ölkəmizdə milli hərbi kadrların hazırlanmasına başlanıldı, bu işdə dahi şəxsiyyətin müstəsna xidmətləri olub. 1971-ci ildə SSRİ rəhbərliyinin böyük təzyiqlərinə baxmayaraq, Heydər Əliyev Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin açılmasına nail oldu. Sovet rəhbərliyi hər zaman azərbaycanlı hərbi kadrların hazırlanmasına mane olmağa çalışsa da, Heydər Əliyev yüzlərlə azərbaycanlı gənci SSRİ-nin digər şəhərlərində yerləşən ali hərbi məktəblərdə təhsil almağa göndərib. 1993-cü ildə xalqın haqlı tələbi ilə ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyev Azərbaycanda ordu quruculuğuna xüsusi diqqət ayırıb".**



Milli Məclisin deputatı Kamilə Əliyeva qəzetimizə açıqlamasında bildirib ki, AXC-Müsavat cütlüyünün hakimiyyəti zamanı Ermənistan şəhər və kəndlərimizi işğal etməyə başladı. Ordudakı hərc-mərclik, ovaxtkı hakimiyyətdə olanların da etiraf etdikləri kimi, fərarilik baş alıb gedirdi. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən dərhal sonra bütün ordu birləşmələrini vahid komandanlıq ətrafında birləşdirdi. O zamanlar Ulu Öndərin komandanlığı altında Füzuli istiqamətində uğurlu hərbi əməliyyatlar keçirildi və ərazilərimizin bir hissəsi işğaldan azad edildi. "1994-cü ildə Ümummilli Liderin uzaqgörən siyasəti nəticəsində Azərbaycanla Ermənistan arasında atəşkəs haqqında müqavilə imzalandı. Bundan sonra Azərbaycanda güclü ordu quruculuğuna başlanıldı. Silahlı Qüvvələrimizin maddi-texniki bazası yenidən quruldu, hərbçilərimizin sosial vəziyyətinə xüsusi diqqət ayrıldı. Ordumuzun müasir silahlarla təzhizatına başlanıldı", - deyə deputat əlavə edib.

K.Əliyeva xatırladıb ki, Ulu Öndərin 1998-ci il 22 may tarixli sərəncamına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yaradıldığı 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olunub və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilməyə başlandı. Bugünkü güclü Azərbaycan Ordusunun yaranması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1999-cu ildə Heydər Əliyevin imzaladığı fərmanla Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası yaradıldı, 2001-ci ildə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilər Məktəbinin əsası qoyuldu. 2001-ci ildən Azərbaycan NATO-nun "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat" planına qoşuldu. Beynəlxalq sülhməramlı qüvvələrin tərkibində Azərbaycan hərbçiləri İraqda, Kosovada, Əfqanıstanda xidmət keçməyə başladılar.

Deputat qeyd edib ki, bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı altında Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü ordusuna çevrilib: "Dövlət başçısının təşəbbüsü ilə yaradılan Müdafiə Sənayesi Nazirliyi mindən çox müdafiə və hücumtəyinatlı məhsullar istehsal edir. Prezident İlham Əliyev hər zaman Milli Ordumuzun müdafiə qüdrətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılmasına böyük diqqət ayırır. Son illərdə Azərbaycanın hərbi sənaye kompleksində ən müasir və müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları istehsal edilir. Azərbaycanın zavodlarında istehsal edilən hərbi təyinatlı məhsullar ordumuzu əhəmiyyətli dərəcədə təchiz edir. Bu hərbi məhsullar Azərbaycan Ordusunu təmin etməklə yanaşı, digər xarici ölkələrə də ixrac olunur. Eyni zamanda ölkəmiz bir çox dövlətlə müqavilələr imzalayaraq hərbi əməkdaşlıq əlaqələrini gücləndirir".

Azərbaycan Ordusunun döyüş hazırlığına görə MDB ölkələri arasında lider - ön sıralarda qərarlaşdığını deyən deputat bildirib ki, "Qlobal Fire Power" mərkəzinin hazırladığı hesabatda ordumuz Cənubi Qafqazda birinci, dünyada ilk 50 ordu sırasında yer alıb. Azərbaycan Silahlı Qüvvələrinin bugünkü arsenalında dünyanın ən müasir və güclü döyüş texnikaları yer alır. Prezident İlham Əliyev Azərbaycanı güclü iqtisadiyyatı və yenilməz ordusu olan bir dövlətə çevirdi. 2016-cı ilin aprel ayında Azərbaycan Ordusu nəyə qadir olduğunu nümayiş etdirdi, Ermənistan ordusunun təxribatına cavab olaraq əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğratdı. Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsi azad edildi. Bu 2020-ci ildəki şanlı qələbəmizə aparan yolun başlanğıcı oldu. İki il sonra - 2018-ci ildə ordumuz Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq hissəsini işğaldan azad edərək əlverişli mövqeləri ələ keçirdi: "Ali Baş Komandan İlham Əliyevin qurduğu ordu 44 günə Ermənistan ordusunu darmadağın edərək 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad etdi. Dövlət başçısının təşəbbüsü ilə Vətən müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medalları təsis edildi. Azərbaycan Ordusunun igid əsgər və zabitləri "Zəfər" və "Qarabağ" ordenləri, həmçinin "Vətən Müharibəsi Qəhrəmanı" da daxil olmaqla 15 yeni orden və medalla təltif olundular. Vətən müharibəsində Azərbaycan Ordusunun hərbi taktikasını öyrənən Qərb və ABŞ hərbi mərkəzləri heç bir dövlətin qoşunlarının bu ordunun qarşısında tab gətirə bilməyəcəyini vurğuladılar".

Deputat xatırladıb ki, Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə 2022-ci ildə Milli Müdafiə Universiteti yaradılıb. Ordunun türk ordu modeli əsasında yenidən qurulması Silahlı Qüvvələrin gücünü daha da artırır. Azərbaycan və Türkiyə silahlı qüvvələrinin birlikdə keçirdiyi hərbi təlimlər döyüş qabiliyyətinin gücləndirilməsinə böyük təkan verir. Bununla yanaşı, Azərbaycan dövləti İsrail, Rusiya, Pakistan kimi dövlətlərdən ən müasir silahlar alır və ordumuzun istifadəsinə verir.

K.Əliyeva vurğulayıb ki, bu gün hər bir gənc güclü, qüdrətli Azərbaycan Ordusunda xidmət etməyi şərəf hesab edir: "26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranması günü münasibətilə Ali Baş Komandan İlham Əliyev başda olmaqla, bütün hərbçilərimizi, ümumilikdə Azərbaycan xalqını təbrik edirik. Yaşasın Müzəffər Ali Baş Komandan! Yaşasın Azərbaycan əsgəri!"

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qəhrəmanlıq salnaməsi yazan ordu

**"Silahlı Qüvvələrin qəhrəmanlığının nəticəsində 44 günlük Vətən müharibəsində əldə edilən Şanlı Qələbə Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazılıb. Bu qələbə Zəfər ili kimi qeyd olunur. Bu zəfərin memarı Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, icraçısı isə qəhrəman Azərbaycan əsgəridir".**



Bu sözləri "Azərbaycan" qəzetinə hərbi ekspert Ədalət Verdiyev deyib. O qeyd edib ki, məhz Silahlı Qüvvələrimizin möhtəşəm qələbəsi sayəsində 30 illik işğal siyasəti yürüdən Ermənistan diz üstə çökdürülüb və bu zəfər bizi onilliklər boyu həsrətini çəkdiyimiz doğma yurd yerlərimizə qovuşdurub: "Çox çətin iqlim şəraitində və mürəkkəb relyefə malik ərazilərdə düşmənin 30 illik müdafiə sədlərini bir neçə saat ərzində darmadağın edən Azərbaycan Ordusu cəmi 44 günə tarix boyu unutmayacağımız böyük qəhrəmanlıq nümunələri göstərdi. Bir çox məntəqənin azad olunmasında hərbçilərimizin göstərdiyi şücaət bu gün bir çox ölkənin hərbi elmi araşdırma mərkəzləri tərəfindən öyrənilir. Xarici mütəxəssislər ordumuzun Hadrutda, Şuşada, Cəbrayılda, Füzulidə göstərdiyi yüksək döyüş potensialının sirrini bu gün də tam aça bilmirlər".

Ekspert vurğulayıb ki, Vətən müharibəsindən sonrakı sərhəd toqquşmalarında və antiterror tədbirlərində də Azərbaycan beşinci nəsil müharibəni apara bilən silahlı qüvvələrə malik olduğunu bir daha nümayiş etdirib. Vətən müharibəsində möhtəşəm qələbə çalan Silahlı Qüvvələrimizdə türk ordu modelinə keçid kifayət qədər sürətlə davam edir. Azərbaycan müharibədən sonrakı dövrdə də ordu quruculuğu və silahlı qüvvələrin təminat və təchizatında çox mühüm addımlar atır. Bu gün Azərbaycan Ordusu Türkiyədə istehsal olunan istənilən hərbi vasitələri əldə etmək imkanı qazanıb. Digər tərəfdən hərbi-texniki sahədə həm Türk Dövlətləri Təşkilatına üzv, həm də digər müttəfiq və dost ölkələrlə əməkdaşlıq uğurla davam etdirilir.

Ordumuzun beynəxalq reytinqi İkinci Qarabağ savaşından sonra hər il daha da yaxşılaşır. Ermənistan ilə güc balansında kifayət qədər irəlidə olan Azərbaycan dünyanın əlliliyə daxil olan güclü qalib ordusuna malikdir. Azərbaycan Silahlı Qüvvələrinin təminat və təchizatında Müdafiə Sənayesi Nazirliyinin də böyük rolu olduğunu qeyd edən Ə.Verdiyev əlavə edib ki, hazırda ölkəmizdə beşinci nəsil tank qırıcısı üçün ehtiyat hissələri istehsal olunur.

"Azərbaycan Türkiyə və digər müttəfiqlərlə birgə müəssisələrin yaradılması, hərbi-texniki sahədə əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlu addımlar atır. Bu il Bakıda keçiriləcək ADEX sərgisində Azərbaycan və Türkiyənin birgə istehsalı olan bəzi məhsulları da görəcəyik. Yaxın üç il ərzində isə bu məhsullar ixrac olunacaq", - deyə o bildirib. Ekspertin sözlərinə görə, Ali Baş Komandan İlham Əliyev üçün ordunun təminatı, ən müasir silah və texnikalarla təchizatı daim prioritet olaraq qalır. Azərbaycan regional gücdən qlobal gücə çevrilmək istiqamətində ciddi addımlar atır. Silahlı Qüvvələrin döyüş potensialının artırılması üçün dövlət büdcəsindən ayırmalar daim artırılır. Zəruri olan bütün vasitələr, texnikaların ən yaxşı nümunələri Azərbaycan əsgərinin istifadəsinə verilir. Bu, gələcəkdə Azərbaycana qarşı olan revanşist qüvvələrin baş qaldırmaması üçün çox vacib məsələlərdən biridir.

Azərbaycan Ordusunun şəxsi heyəti Ali Baş Komandanın istənilən əmrini, istənilən anda yerinə yetirməyə tam hazırdır.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Zəfər ordusu

**"Ordu istənilən dövlətin gücü, qüdrəti və möhkəmliyidir. Azərbaycan Silahlı Qüvvələri 1991-ci ildə dövlət müstəqilliyimiz bərpa edildiyi gündən müstəqilliyimizin keşiyində durub. Ona görə də 26 İyun təkcə hərbçilərimizin deyil, Azərbaycan xalqının bayramıdır".**



Milli Məclisin deputatı Aydın Mirzəzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, ilk dövrlərdə zəif hakimiyyətin olması Silahlı Qüvvələrin normal formalaşmasına da ciddi təsir edib. Bununla belə özünümüdafiə dəstələri, ayrı-ayrı regionlarda əlinə silah götürüb torpağını müdafiə edənlər erməni işğalçıları ilə çox ciddi mübarizə aparıblar.

Deputatın sözlərinə görə, 1990-cı illərdə çox təəssüf ki, Silahlı Qüvvələrin hələ tam formalaşmaması ərazimizin müəyyən hissəsinin itirilməsinə səbəb oldu. Ancaq Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi və ondan sonra dövlət quruculuğunda ciddi islahatların aparılması bütün sahələr kimi ordu quruculuğuna ciddi təsir etdi. Böyüyən büdcəmizin əhəmiyyətli hissəsi yeni silahların alınmasına, təlimlərin keçirilməsinə, hərbi qulluqçuların sosial problemlərinin həll edilməsinə yönəldildi. Ordumuzun NATO standartlarına uyğun olaraq qurulması, hərbi təhsilin keyfiyyətinin artırılması öz nəticəsini verdi. Azərbaycan Ordusu ildən-ilə yüksək peşəkarlığını göstərməyə başlayırdı. Erməni işğalçılarının Azərbaycanın yeni ərazilərini işğal etmək cəhdinin qarşısı alınır, onların təxribatlarına təsirli cavablar verilirdi. "Cəbhə xəttində arasıra baş verən lokal döyüşlərdə ordumuz Ermənistan silahlı qüvvələrini ciddi itkilər verməyə məcbur edirdi. Beləliklə, 2016-cı ilin dördgünlük Aprel döyüşlərində Azərbaycan Ordusu ilk qələbəsini qazandı. Ulu Öndər Heydər Əliyevin dövlət quruculuğu siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin hərbi quruculuq siyasəti ilkin nəticəsini verdi. Azərbaycan qətiyyətlə torpaqlarının işğaldan azad edilməsi istiqamətində çox ciddi siyasət aparmağa başladı və 2020-ci ildə 44 günlük müharibədə torpaqlarının bir hissəsini qəhrəmanlıqla işğaldan azad etdi. Bəzilərini isə döyüşsüz geri qaytardı. Ordumuz Azərbaycan-Ermənistan sərhədinə çıxaraq ərazi bütövlüyümüzü ciddi şəkildə qorumağa başladı".

Ötən il sentyabrın 20-də birgünlük antiterror tədbirinin Silahlı Qüvvələrin qüdrətini bir daha göstərdiyini vurğulayan A.Mirzəzadə qeyd edib ki, Azərbaycan Ordusu bu gün regionun ən güclü ordusu kimi dövlət müstəqilliyinin keşiyində durur: "Ordu quruculuğuna dövlət səviyyəsində çox ciddi əhəmiyyət verilir. Bütün dövrlərdə Azərbaycan Ordusu ən müasir silahlarla təchiz edilib. Hərbi təhsil günün ən yüksək tələbləri səviyyəsində qurulub. Zabitlərin vaxtaşırı xarici ölkələrdə hərbi təlimlərdə iştirakı, eyni zamanda kurslar keçməsi də ordumuzun möhkəmlənməsinə səbəb olub. Vaxtaşırı keçirilən hərbi təlimlər Azərbaycan Ordusunun ərazi bütövlüyümüzü qorumaq üçün ciddi sınaqlara hazır olduğunu göstərir. Silahlı Qüvvələrimiz bu gün dünyanın ən güclü 50 ordusundan biridir. Azərbaycan Ordusunun döyüş təcrübəsi dünyanın aparıcı dövlətlərinin baş qərargahlarında ciddi surətdə öyrənilir".

Deputat bildirib ki, Azərbaycan əsgəri bu gün öz torpağını qorumaq üçün istənilən fədakarlığa hazırdır. Torpaqlarımızın işğaldan azad olunmasında da xalq-ordu birliyinin böyük rolu oldu. Hər bir azərbaycanlı ordumuzun möhkəm olmasında maraqlıdır və gənclərimizin böyük həvəslə hərbi xidmətə yollanması ordumuzu gücləndirən faktorlardan biridir. Milli Ordumuzun yaranmasının 106-cı ildönümündə birmənalı şəkildə müstəqilliyimizi, kimliyimizi qoruyan şərəfli Silahlı Qüvvələrə malik olduğumuzu görürük və bu ordu bu gün də, sabah da dövlət müstəqilliyimizin qorunmasında vacib vəzifələr yerinə yetirir. Xalqımız öz əsgərinə inanır və Silahlı Qüvvələrimizin bundan sonra da güclü olması üçün dövlətimiz, rəhbərliyimiz tərəfindən bütün vacib addımlar atılır.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Bizə Qələbə yaşadanlar



**Bu günü dünyada müxtəlif vaxtlarda bütün dövlətlər və xalqlar qeyd edirlər. Həqiqətən də, bu bayram böyük təntənə ilə keçirilir, hamı onun mümkün qədər dəbdəbəli olmasına can atır. Lakin burada incə bir məqamı qeyd etmək lazımdir ki, Azərbaycan Respublikası üçün Silahlı Qüvvələrin yaradılması günü tamamilə unikal, fərqli və bənzərsiz hadisədir. Bizim bu bayrama uzanan yolumuz hamıdan fərqlidir.**

Əlbəttə ki, hərbi quruculuqda bütün xalqların keçdiyi yollardan, islahatlardan biz də uğurla adlayaraq Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında dünyada ən nadir və unikal ordulardan birinə sahib olduq. Azərbaycan dövlətinin qısa zaman kəsiyi ərzində qurduğu bu ordu hər birimizə böyük fəxarət və qürur hissi bəxş etdi. Biz düşmən üzərində qələbə çalmaqla yanaşı, həm də misilsiz qürura sahib olduq. Ali Baş Komandanın qurduğu ordu onun komandanlığı altında düşməni darmadağın etdi, erməni silahlıları bu gün də o müharibəni vahimə ilə xatırlayırlar. Hər birimiz üçün Prezident, Ali Baş Komandan İlham Əliyevin bu gün də quruculuğunu davam etdirdiyi ordu and yerimiz qədər müqəddəsdir. Ordumuza sonsuz sevgi ilə səcdə edirik.

1992-ci ili xatırlayıram. Yeni formalaşan ordumuz ilk addımlarını atırdı. Nizam-intizam yaranırdı, ov silahları tədricən avtomatlarla, pulemyotlarla əvəz edilirdi. Bu kiçik addımlara az qala uşaq kimi sevinirdik! Hər alınan yeni texnika, tank bizim üçün sanki inqilabi bir çevriliş idi. Həqiqətən də, ən kiçik addım belə bizə möhtəşəm islahatlar kimi təsir edirdi.

Amma onu da etiraf edək ki, o illərdə ermənilər bizdən daha sürətlə silahlanır, havadarlarından daha mükəmməl dəstək alırdılar və nəticədə torpaqlarımızın 20 faizini asanlıqla işğal edə bildilər. Bir milyondan artıq insan öz ev-eşiyindən didərgin düşmüşdü. Ermənistandan və Qarabağdan üzü bəri gələn qaçqın və məcburi köçkün maşınlarının sayı-hesabı yox idi. Şəhərlərimiz, qəsəbə və kəndlərimiz uzun illər düşmən tapdağı altında qaldı, minlərlə insan qırıldı. Ev-eşiklərini atıb qaçmağa məcbur olan milyondan yuxarı insanı ozamankı əsgərlərimiz müdafiə etmək gücündə deyildi. Erməni faşistləri azğınlaşmışdı, harınlaşmışdı və tam əmin idilər ki, Azərbaycan heç vaxt onlara qarşı bir addım belə ata bilməyəcək.

Erməni hərbçilərinin ozamankı harın təbəssümünü unutmaq çətindir. Bu sırtıq gülüş sanki onların peysərinin piyindən çırtlayıb çıxırdı. Əyninə hərbi mundir geyən hər erməni dığası bir Napoleon qədər lovğa idi. Özlərindən razı, müştəbeh idilər. Hər gecə yuxularında Bakı bulvarında samovar çayı içməyə gəlirdilər.

Torpaqlarımızı qoltuqlara sığınaraq ələ keçirsələr də, özlərini ən döyüşkən və qalib xalq kimi hamıya sırımaqdan zövq alırdılar. Amma Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev güclü ordu quruculuğuna start verdi. Uzun illər yeni bir ordunun qurulması, onun ən müasir silahlarla təmin edilməsi üçün bütün zəruri addımları atırdı. Amma bu haqda o qədər də danışılmırdı.

Özlərindən razı erməni yaraqlıları isə yalnız şişib lovğalanmaqdan zövq alırdılar. Onların simalarındakı iyrənc qalib pozasını heç vaxt unutmaq mümkün deyil. 30 illik işğalın tikanlı çələngini boyunlarına "böyük qələbə"nin uğuru kimi atmışdılar.

Erməni yaraqlıları işğal edilmiş ərazilərdə piylənib lambada oynadıqca Ali Baş Komandanımız İlham Əliyev bütün dünyanı heyran qoyan nadir ordu yarada bildi. Bu baxımdan Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü həm də bizim üçün mənliyimizə, şərəf və ləyaqətimizə dönüş günüdür. İlham Əliyev hər birimizə ordumuzla, gücümüzlə, vətənimizlə öyünməyə imkan yaratdı. Biz fərqli bir xalqa, qələbəni bayraq kimi başının üstündə qaldıranlara çevrildik!

Məşhur İsrail eksperti Arye Qut belə hesab edir ki, Azərbaycan Ordusu ən güclü və müasir silahlarla təchiz edilmiş, yüksək hazırlıq səviyyəsi və möhtəşəm döyüş ruhu olan ordudur.

Hətta erməni ekspertləri belə Azərbaycan Ordusunun yüksək təchizatını, unikal döyüş qabiliyyətini etiraf edirlər: "Azərbaycan əsgərlərinin döyüş hazırlığına milyonlarla dollar xərcləyiblər. Xüsusi təyinatlı bölmələrin döyüşçüləri müxtəlif ölkələrdə beynəlxalq hazırlıq kursları keçiblər".

Azərbaycan Ordusunun taktikasını analiz edən "Foreign Policy" nəşri yazır ki, "ABŞ Qarabağ müharibəsindən müəyyən nəticələrə gəlmişdir". Azərbaycan Qarabağ müharibəsini dronların hesabına udmuşdur. Belə çıxır ki, Azərbaycan bütün dünyada müharibələrin aparılma tərzini dəyişmişdir. Artıq dronlarla daha sürətli və cəld müharibə aparmaq mümkündür. "Foreign Policy" jurnalının siyasi şərhçisi Cek Detç yazır: "Siz pilotsuz uçan obyektlərin vurduğu tankların videolarına baxa bilərsiniz". "Elə erməni qoşunları həmin dronlarla məğlub edilib". Bunu da ABŞ silahlı qüvvələrinin polkovniki Skott Şou yazır. Onun sözlərinə görə, Azərbaycan Ermənistanı məğlub etdikdən sonra artıq Amerika hərbçiləri hava məkanında Çin kimi rəqiblərlə döyüşdə üstünlük əldə edə bilməyəcəklər. Hətta ən kasıb ölkələr də yeni hava hücumundan müdafiə vasitələrini çox ucuz qiymətə ala biləcəklər.

Beləliklə, pilotsuz uçan obyektlər daha real təhlükələrə çevrilirlər. ABŞ silahlı qüvvələrinin generalı Pol Frenk Qarabağda videodöyüşləri saatlarla analiz etdikdən sonra belə qənatə gəlir ki, artıq Yaxın Şərqdəki müharibələrdən diqqətin daha çox Çinə yönəldilməsi zərurətə çevrilir. Dünyanın ekspertlərinin gəldiyi son qənaət belədir ki, müasir hərbi sənaye yenidən velosiped kəşf etmək məcburiyyətindədir.

*Bahadur İMANQULİYEV, "Azərbaycan"*

# Sülhün və təhlükəsizliyin keşiyində

## Azərbaycan Silahlı Qüvvələri sürətli inkişaf yolundadır

**"Bu gün Azərbaycan Ordusunun yaranmasının 106-cı ildönümüdür. Ordumuz Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə, suverenliyinə təhdidin qarşısını alan böyük qüvvədir".**



Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, Azərbaycan Silahlı Qüvvələri - Quru Qoşunlarından, Hərbi Hava, Hərbi Dəniz Qüvvələrindən, eyni zamanda, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları, Milli Qvardiya, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizlik Xidməti, Fövqəladə Hallar Nazirliyi və Xüsusi Dövlət Mühafizə Xidmətindən ibarətdir. Əsas məqam odur ki, Azərbaycan Ordusu yaranması ilə çox mühüm məsələləri həll edib. Azərbaycan Ordusu tək təlimlərdə özünü göstərmədi, həmçinin döyüşkən bir ordu kimi dünyanın aparıcı 50 ordusundan birinə çevrildi. Bu ordu döyüşə-döyüşə formalaşdı. "Azərbaycan Ordusu həm dağ, həm quru şəraitində, həm də digər bütün istiqamətlərdə döyüş taktikasına malik olan qüvvədir. Vaxtilə Ulu Öndərin yaratdığı hərbi məktəblərin müdavimləri bu gün artıq təcrübəli generallardır. Yəni Ümummilli Liderin əsasını qoyduğu ənənə və müasir milli kadrlar vaxtilə yaradılmış həmin akademiyaların, hərbi ali məktəblərin məzunlarından ibarətdir. Azərbaycan Ordusunun müxtəlif korpusları hamısı birmənalı şəkildə sərhədləri qoruyan, eyni zamanda, suverenliyə olan təhdidin qarşısını alan silahlı birləşmələrdir. Hər birinin ayrı-ayrılıqda öz funksiyası var", - deyə deputat əlavə edib.

A.Nağıyevin sözlərinə görə, Azərbaycan xalqı arxayındır ki, onu qoruyan güclü ordusu var. 44 günlük müharibədə Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, rəşadətli Azərbaycan Ordusunun, şəhadəti şərəf sayan Azərbaycan igidlərinin vəhdətindən ibarət olan bir qələbəyə nail olduq. Vətən müharibəsində bir daha gördük ki, Azərbaycan Ordusu hansı hücum və müdafiə taktikalarından istifadə edir. Orduda necə ruh yüksəkliyi var. Orduda ruh yüksəkliyi, kadr potensialı yüksək olmadıqda qalib gəlmək olmaz.

Bu gün Azərbaycan Ordusunun hərtərəfli inkişafı üçün lazımi addımlar atıldığını bildirən deputat deyib ki, ordunun formalaşmasında Ali Baş Komandan İlham Əliyevin rolu danılmazdır: "44 günlük müharibədə bir daha dünyaya göstərdik ki, vuruşmağı bacaran qüdrətli ordumuz var. Ermənistan ordusunu darmadağın edərək, erməni faşizminə böyük zərbə vuraraq Qarabağ və ətraf rayonları işğaldan azad etdik. 2023-cü ilin sentyabrında cəmi 23 saat ərzində lokal antiterror tədbirləri çərçivəsində torpaqlarımızda erməni separatizminin son dayaqlarını da məhv etdik. Xankəndi, Əsgəran, Ağdərə, Xocalı və digər ərazilər terrorçulardan təmizləndi. Bu, Azərbaycan Ordusunun səriştəsi, onların müharibə vaxtı qazandığı təcrübələr, eyni zamanda döyüş ruhudur".

Müsahibimiz vurğulayıb ki, Azərbaycan Silahlı Qüvvələri sürətli inkişaf yolundadır. Ordu ən müasir texnika və texnologiya ilə təmin olunub, NATO standartlarına uyğun türk ordu modelinə keçid sürətlə davam edir. Ordumuz Vətən müharibəsindəki dövrlə müqayisədə daha güclü, daha qüdrətlidir. Bu isə sadəcə ölkəmizin deyil, bütün regionun təhlükəsizliyinin qorunmasında, dincliyin, sabitliyin təmin olunmasında mühüm amildir.

A.Nağıyev qeyd edib ki, Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təminatına bundan sonra da böyük töhfə verəcək. Hər zaman malik olduğu yüksək döyüş əzmi, ruhu dünya orduları arasında qabaqcıl mövqeyini qoruyub saxlamasına şərait yaradacaq. Orduya olan münasibət, qayğı ən yüksək səviyyədə təşkil olunub. Məhz dövlət tərəfindən hərbçilərə göstərilən diqqət, onlara ayrılmış müavinətlər, hərbi qüvvələrin veteranlarına göstərilən qayğı göz önündədir.

Ali Baş Komandanın tapşırığına uyğun olaraq Azərbaycan Ordusunun gələcək inkişafı üçün hər cür addımlar atılır. "Silahlı Qüvvələr Günü münasibətilə rəhbərlik başda olmaqla bütün hərbçilərimizi təbrik edir, onlara xidməti fəaliyyətlərində uğurlar arzulayıram. Peşəkar, eyni zamanda öz sənətini bilən və vətənpərvər ruhda övlad yetişdirən hər bir Azərbaycan valideyninə minnətdarıq", - deyə deputat bildirib.

*Ə.QARDAŞXANOVA, "Azərbaycan"*

# Mavi beretlilər



## Komandolar bir əsrdən çox yaşı olan Azərbaycan Ordusunun yeni nəfəsi hesab olunurlar

**Otuzillik işğalı sona yetirən və 21-ci əsrdə müharibənin aparılması qaydaları ilə bağlı dünya hərb tarixinə yazılan 44 gün… 2020-ci ilin payızında Azərbaycan Ordusu 44 addımda Şuşa zirvəsini fəth edərək üçrəngli Dövlət bayrağımızı bütün dünyanın görə biləcəyi nöqtədən asdı. Biz payızın 44 anında yalnız bir ölkəni deyil, ona dəstək olan hər kəsi qarşımıza alıb savaşdıq və qalib ayrıldıq.**

Şanlı Zəfərin qürurunu və sevincini yaşasaq da, naxələf qonşularımıza, onların daxilində bizə qarşı olan kinə, revanş hisslərinə bələd idik. Odur ki, daha da güclənməyi və Vətən keşiyində ayıq-sayıq dayanmağı seçdik. Zaman bizə yanılmadığımızı dəfələrlə göstərdi. Ötən il isə Qarabağda Ermənistan ordusunun tör-töküntülərinə və separatçılara qarşı həyata keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı düşmən cəmi 23 saat 43 dəqiqə tab gətirə bildi. Əməliyyat 24 saat tamam olmadan qaldırılan ağ bayraq və Azərbaycanın Konstitusiya quruluşunun tam bərpası ilə nəticələndi. Bu, Azərbaycan Ordusunun Vətən müharibəsindən sonra daha da güclənməsinin ən bariz nümunəsi idi.

Hazırda Azərbaycanda ordu quruculuğu prosesi sürətlə davam edir, Silahlı Qüvvələrimizin arsenalı müasirləşdirilir, hərbi qulluqçuların peşəkarlığı artırılır. Qırx dörd günlük haqq savaşımızın ilk günündən son gününədək dəstəyini ən yüksək səviyyədə göstərən Türkiyə postmüharibə dövründə də qardaşını tək buraxmır. Təsadüfi deyil ki, hazırda iki qardaş ölkənin hərbi əməkdaşlığı yüksək səviyyədədir. Daha çox qardaş Türkiyə modelinə uyğunlaşdırılan Azərbaycan Ordusu müasir silahlarla təchiz olunur, komplektləşdirilir. Bu xüsusda Ali Baş Komandanın tapşırığı ilə Azərbaycan Ordusunda Türkiyə Silahlı Qüvvələrinin təcrübəsi əsasında komando hərbi hissələrinin yaradıldığını qeyd etmək yerinə düşər. Bir əsrdən çox tarixə malik Azərbaycan Silahlı Qüvvələrinin yeni nəfəsi hesab olunan komando hissələri Qarabağda aparılan uğurlu antiterror əməliyyatı ilə özlərini doğrultdular.

AZƏRTAC xəbər verir ki, media nümayəndələri Azərbaycan Ordusunun yaradılmasının 106-cı ildönümü ərəfəsində komando birləşmələrindən birinə - Hadrutdakı hərbi hissəyə baş çəkib, hərbi qulluqçularla yaxından söhbət etmək imkanı əldə edib, onlar üçün yaradılan şəraitlə tanış olublar.

Əvvəlcə jurnalistlər üçün ordumuzun arsenalındakı yerli və xarici silahların kiçik bir hissəsi, komandoların geyimləri, qidalanmasının nümayiş etdirildiyi sərgi təşkil olunub.

17 ildir Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçu Saleh İsmayılov sərgidə nümayiş etdirilən dönərqanadlı "Kargu 2" zərbə dronu barədə məlumat verərək həmin silahın düşmənin canlı qüvvəsini məhv etmək üçün təyin olunduğunu deyib: "Tam döyüşə hazırlıq çəkisi 8 kiloqramdır, təlim və döyüş başlıqlarından ibarətdir. 1,2 kiloqram çəkiyə malik olan döyüş başlığı 840 qəlpədən ibarətdir. Zərbə dronu tam təchizatla 5 kilometr uçuş məsafəsində 45 dəqiqə qala bilir. Düşmənin canlı qüvvəsini aşkarladıqda onu həmin dron vasitəsilə məhv etmək mümkündür. "Mover 3D" və "Mover 3E" müşahidə dronları isə döyüşlərdə xüsusi tapşırıqlarda qrupların tərkibində qarşıdakı düşmənin fəaliyyətlərini göstərir".

44 günlük Vətən müharibəsində Cəbrayıl rayonu istiqamətində aparılan hərbi əməliyyatlarda iştirak etdiyini fəxrlə qeyd edən S.İsmayılov Qalib Azərbaycan Ordusunun hərbi qulluqçusu olmaqdan qürur duyduğunu bildirib və 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə ordumuzun bütün mənsublarını təbrik edib.

Sərgidə Azərbaycan Ordusunun arsenalındakı yerli silahların parametrləri barədə məlumat verən ordumuzun hərbi qulluqçusu Röyal Cəfərov Azərbaycan istehsalı olan "İstiqlal" silahı barədə danışıb: "İstiqlal" silahı 14,5 millimetrlik çapa malikdir. Uzunluğu 2 min 256 millimetr olan silah optik və mexaniki nişangahla təchiz olunub. Maksimum uçuş məsafəsi 7 min, optik və mexaniki nişangahla uçuş məsafəsi 2 min metrdir.

"RPG" 40 millimetrlik fərdi avtomatik qumbaraatan isə düşmənin açıq səngərdə və yamaclar arxasında olan canlı qüvvəsini məhv etmək üçün nəzərdə tutulub. O cümlədən asma atışa malikdir. Çəkisi 5,9 kiloqram, uçuş məsafəsi 1000 metr, effektli uçuş məsafəsi 375 metrdir".

Daha sonra jurnalistlər əsgər yataqxanası, idman kompleksi və camaşırxananın fəaliyyəti ilə tanış olublar.

Doqquz aydır komando birliyində xidmət edən hərbi qulluqçu Samir Cəfərov onların Vətənə layiqli şəkildə xidmət etməsi üçün hər cür şəraitin yaradıldığını deyib: "Peşəkarlığımızın artırılması üçün təlimlər yüksək şəkildə aparılır. Hərbi hissədə qidalanmağımıza, fiziki hazırlığımızın yüksək səviyyədə olmasına xüsusi diqqət yetirilir. Burada asudə və istirahət vaxtlarımızı səmərəli keçirmək imkanları mövcuddur".

S.Cəfərov Vətən müharibəsində əldə edilən qələbədən sonra orduda xidmət etmək həvəsinin yarandığını və o zaman yeni yaradılan komando birləşməsində xidmət etməyə qərar verdiyini deyib: "Vətən müharibəsi dövründə hərbi xidmətdə Tovuzda idim. O zaman təəssüf ki, döyüşmək imkanım olmadı. Lakin qalib ordunun bir mənsubu kimi Vətənə xidmət etməyi qarşıma məqsəd qoydum. Müharibədən qısa müddət sonra yaradılan komando hissələri diqqətimi cəlb etdi. Özümü həmin birləşmənin üzvü kimi görmək istəyirdim və keçdiyim təlimlərdən sonra buna nail oldum. Rəşadətli Azərbaycan Ordusunun mənsubu olmaqdan və Vətən keşiyi çəkməkdən qürur duyuram".

Lokal xarakterli antiterror tədbirləri zamanı Xocalı istiqamətində aparılan əməliyyatın iştirakçısı olmuş Azərbaycan Ordusunun hərbi qulluqçusu Ehtiram Allahyarov döyüş hazırlıqlarının yüksək səviyyədə saxlanılması üçün kurslara, təlimlərə cəlb edildiklərini vurğulayıb. E.Allahyarov bundan sonra da düşmənə layiqli cavab verməyə hazır olduqlarını diqqətə çatdırıb.

"Başda şəhidlərimizin ailələri, qazilər, müharibə veteranları olmaqla ordumuzun bütün mənsublarını Silahlı Qüvvələr Günü münasibətilə təbrik edirəm. Rəşadətli Azərbaycan Ordusunda xidmət etməkdən fəxarət hissi duyuram", - deyə hərbi qulluqçu fikirlərinə yekun vurub.

Mediaturdan aldığımız təəssüratlar bizə həm qürur verdi, həm də əminliyimizi birəbeş artırdı. Gördüyümüz o idi ki, Ərgünəş dağının yaxınlığında türkçülüyün ifadəsi olan mavi rəngin işığı dostlara güvən bəxş edir, düşmənlərin gözünü qamaşdırır. Hadrutda - iki çayın arasında, iki qüdrətli türk dövlətinin birliyinin daha bir timsalı olan mavi beretlilər layiqli və ayıq-sayıq xidmətləri ilə bizə xor baxanları ürkütməyə davam edirlər.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 307 **QƏRAR** Bakı şəhəri, 20 iyun 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 501 nömrəli Qərarı ilə təsdiq edilmiş “Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası”nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 501 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1602 (Cild I); 2024, № 1, maddə 109) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.4-cü bənddə "Protez-Ortopedik Bərpa Mərkəzi" sözləri "Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi" sözləri ilə əvəz edilsin.

2. 2.5-ci bəndə "hazırlanması" sözündən sonra ", dəyişdirilməsi" sözü əlavə edilsin.

3. 2.6-cı bəndə "müəyyən olunmuş" sözlərindən sonra "istifadə və" sözləri əlavə olunsun və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Şəxsə bu Qaydanın əlavəsinin 1.1.5-ci yarımbəndində göstərilən kosmetik yuxarı ətraf protezi verildiyi halda, bu Qaydanın əlavəsinin 1.1.1-ci, 1.1.2-ci və 1.1.3-cü yarımbəndlərində göstərilən əsas yuxarı ətraf protezlərinin istifadə müddəti 1 il artırılır.".

4. 2.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.7. Bu Qaydanın əlavəsi ilə müəyyən olunmuş istifadə müddəti bitdikdən sonra reabilitasiya vasitələri Mərkəz tərəfindən yenisi ilə əvəz edilir.".

5. Aşağıdakı məzmunda 2.7-1-ci, 2.7-2-ci və 2.11-ci bəndlər əlavə edilsin:

"2.7-1. Reabilitasiya vasitələri bu Qaydanın 3-cü hissəsinin müddəaları nəzərə alınmaqla, müəyyən edilmiş təminat müddətində istehsalat qüsuru aşkarlandığı halda, Mərkəzin tibbi-texniki komissiyasının qərarı əsasında Mərkəzin vəsaiti hesabına təmir edilir və ya bu Qaydanın əlavəsi ilə müəyyən edilmiş təmir müddətlərində təmir etmək mümkün olmadıqda yenisi ilə əvəz edilir.

2.7-2. Bu Qaydanın 3-cü hissəsinin müddəaları nəzərə alınmaqla, reabilitasiya vasitələri istifadə müddəti başa çatmazdan əvvəl yararsız vəziyyətə düşdükdə, yaxud Şəxsdə hər hansı bir xəstəlik və ya anatomik-funksional dəyişiklik baş verdikdə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsin inkişafı ilə əlaqədar istifadəyə uyğun olmadığı təqdirdə həmin reabilitasiya vasitələri Mərkəzin tibbi-texniki komissiyasının qərarı əsasında dövlət vəsaiti hesabına təmir edilir və ya bu Qaydanın əlavəsi ilə müəyyən edilmiş təmir müddətlərində təmir etmək mümkün olmadıqda isə yenisi ilə əvəz edilir.

2.11. Bu Qaydanın 3.14-cü bəndində nəzərdə tutulmuş hal istisna olmaqla, Şəxsə verilmiş reabilitasiya vasitələrinin satılması və ya bağışlanması qadağandır.".

6. 3.6-cı və 3.7-ci bəndlər ləğv edilsin.

7. 3.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.8. Təkərli oturacaqlar təyin edilərkən Şəxsin yaşı, çəkisi və boyu nəzərə alınır. Tibbi göstəriş olduğu halda, Şəxs bir ədəd açıq məkanda istifadə üçün mexaniki və ya mühərrikli, bir ədəd qapalı məkanda (otaqda) istifadə üçün, eləcə də bir ədəd sanitar təchizatlı mexaniki təkərli oturacaqla təmin edilir.".

8. 3.9-cu bəndin birinci cümləsi ləğv edilsin.

9. 3.12-ci bənddə "Agentlik" sözü "Mərkəz" sözü ilə əvəz edilsin.

10. 3.13-cü bənd ləğv edilsin.

11. 3.14-3.16-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

"3.14. Minik avtomobili verilmiş Şəxs vəfat etdikdən sonra avtomobil onun ailə üzvündən birinin adına keçirilməklə qeydiyyatdan çıxarılır və vəfat etmiş Şəxsin ailəsinin mülkiyyətinə verilir.

3.15. Minik avtomobili almış ailəsi (ər-arvad, valideynlər və uşaqlar) olmayan Şəxs vəfat etdikdə minik avtomobili Sosial Xidmətlər Agentliyi tərəfindən götürülür və növbəlilik siyahısındakı ardıcıllığa uyğun olaraq digər Şəxsə verilir.

3.16. Şəxsə verilmiş təkərli oturacaqlar istifadə müddəti başa çatmamışdan əvvəl yararsız vəziyyətə düşdükdə, Şəxsin və ya onun qanuni nümayəndəsinin müraciəti əsasında Mərkəzin tibbi-texniki komissiyası tərəfindən həmin reabilitasiya vasitələrinə 3 (üç) iş günü müddətində texniki baxış keçirilir, təmiri mümkün olduqda Mərkəzin tibbi-texniki komissiyasının qərarı əsasında təmir olunur və ya bu Qaydanın əlavəsi ilə müəyyən edilmiş təmir müddətlərində təmiri mümkün olmadıqda Mərkəzin tibbi-texniki komissiyasının aktı və Agentliyin qərarı əsasında Mərkəz tərəfindən yenisi ilə əvəz olunur.".

12. Aşağıdakı məzmunda 3.16-1-ci bənd əlavə edilsin:

"3.16-1. 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə verilmiş təkərli oturacaqlar, istifadə müddəti başa çatmamışdan əvvəl şəxsin inkişafı ilə əlaqədar istifadəyə uyğun olmadığı təqdirdə, onun qanuni nümayəndəsinin müraciəti əsasında həmin reabilitasiya vasitəsi Mərkəzin tibbi-texniki komissiyasının qərarı əsasında Mərkəz tərəfindən yenisi ilə əvəz olunur.".

13. "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"na əlavə - "Əlilliyi olan şəxslərə reabilitasiya vasitələrinin verilməsinə dair tibbi göstərişlər, əks- göstərişlər, reabilitasiya vasitələrinin istifadə, təminat, hazırlanma, təmir və ya dəyişdirilmə müddətləri" yeni redaksiyada verilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 316 **QƏRAR** Bakı şəhəri, 25 iyun 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 4 dekabr tarixli 527 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası haqqında Əsasnamə”də dəyişiklik edilməsi və “Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının yaradılması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 20 fevral tarixli 58 nömrəli Qərarının ləğv edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 noyabr tarixli 2340 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 14 mart tarixli 22 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 4 dekabr tarixli 527 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12, maddə 2475 (Cild I) ilə təsdiq edilmiş "Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2-ci bənddə "Nazirlər Kabineti" sözləri "Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.2. 5.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.1. Şura üzvlərinin sayı və tərkibi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilir.".

2. "Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 20 fevral tarixli 58 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 361 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 318 **QƏRAR** Bakı şəhəri, 25 iyun 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 fevral tarixli 54 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)” publik hüquqi şəxsin Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Kosmik fəaliyyət haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 927-VIQ nömrəli Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 4 avqust tarixli 2291 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 fevral tarixli 54 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 178 (Cild I); 2024, № 4, maddə 456) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci bənddə "həyata keçirən," sözləri "və "Kosmik fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq milli kosmik operator funksiyalarını həyata keçirən, habelə" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 2.1.15-ci, 3.1.8-1-3.1.8-5-ci yarımbəndlər əlavə edilsin:

"2.1.15. kosmik fəzada milli fəaliyyətin əlaqələndirilməsini və həmin fəaliyyətə texniki nəzarəti həyata keçirmək;";

"3.1.8-1. kosmik obyektlərin dövlət reyestrində qeydiyyata alınmış kosmik obyektlərə, həmçinin belə kosmik obyektlərin orbitdən çıxarılmasına dair qəbul etdiyi məlumatları "Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəzanın tədqiqi və istifadəsi üzrə dövlətlərin fəaliyyət prinsipləri haqqında" Müqavilədə nəzərdə tutulmuş qaydada BMT-yə təqdim etmək;

3.1.8-2. "Beynəlxalq Telekommunikasiya İttifaqının Radiorabitə Reqlamentinin və Ümumdünya Radiorabitə Konfransının Yekun Aktlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada orbital mövqeləri, onlarla əlaqədar radiotezlikləri, habelə peyk şəbəkələrini Nazirliklə birgə koordinasiya etmək;

3.1.8-3. Azərbaycan Respublikasının, habelə xarici ölkələrin telekommunikasiya peykləri vasitəsilə ölkə daxilində və xaricdə peyk sistemlərini və telekommunikasiya peyk şəbəkələrini təşkil etmək;

3.1.8-4. Azərbaycan Respublikasında filialı və ya nümayəndəliyi olmayan xarici kosmik operatorun (onun səlahiyyətləndirdiyi xarici hüquqi şəxsin) istismar etdiyi xarici kosmik obyektdən Nazirlik tərəfindən təsdiq edilmiş göstəricilərdə ilkin informasiyaların Azərbaycan Respublikasında birbaşa yer stansiyası vasitəsilə qəbulunu həyata keçirmək;

3.1.8-5. kosmik obyektlərin dövlət reyestrində qeydiyyata alınmış kosmik obyektin kosmik operatoru tərəfindən idarə edilməsi mümkün olmadıqda, "Ay və digər səma cisimləri də daxil olmaqla, kosmik fəzanın tədqiqi və istifadəsi üzrə dövlətlərin fəaliyyət prinsipləri haqqında" Müqaviləyə əsasən kosmik uçuşun təhlükəsizliyi üçün onun əvəzinə kosmik obyektin (mülkiyyətçisinin təmin etdiyi) müvəqqəti idarə edilməsini həyata keçirmək;".

3. 3.1.8-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.8. kosmik fəaliyyət subyektlərinin kosmik obyektlər üzərində mülkiyyət və digər əşya hüquqlarının əmələ gəlməsi, məhdudlaşdırılması (yüklülüyü), başqasına keçməsi və bu hüquqlara xitam verilməsinin kosmik obyektlərin dövlət reyestrində qeydiyyata alınması üçün tədbirlər görmək;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 312 **QƏRAR** Bakı şəhəri, 24 iyun 2024-cü il

## “Gömrük dəyərinin müəyyən edilməsi üsullarının tətbiqinə dair Qaydalar”ın təsdiq edilməsi haqqında

"Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 775-VIQD nömrəli Qanununun tətbiqi və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 yanvar tarixli 2004 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Gömrük dəyərinin müəyyən edilməsi üsullarının tətbiqinə dair Qaydalar" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

3. Bu Qərarın 1-ci hissəsi dərc edildiyi tarixdən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 313 **QƏRAR** Bakı şəhəri, 24 iyun 2024-cü il

## Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması haqqında

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2024-cü il 1 oktyabr saat 06:00-dək uzadılsın.

2. "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1209 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 11 mart tarixli 131 nömrəli Qərarı)1.1-ci bəndində "iyul" sözü "oktyabr" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 314 **QƏRAR** Bakı şəhəri, 25 iyun 2024-cü il

## “Qapalı paylayıcı şəbəkələrin fəaliyyət Qaydaları”nın təsdiq edilməsi haqqında

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 may tarixli 2143 nömrəli Fərmanının 2.2.4-cü yarımbəndinin 4-cü abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Qapalı paylayıcı şəbəkələrin fəaliyyət Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki, "Qapalı paylayıcı şəbəkələrin fəaliyyət Qaydaları"nda nəzərdə tutulmuş tənzimləyicinin səlahiyyətləri 2028-ci il iyulun 1-dək Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən həyata keçirilir.

3. Bu Qərar 2025-ci il iyulun 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 317 **QƏRAR** Bakı şəhəri, 25 iyun 2024-cü il

## “Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 13 noyabr tarixli 259 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" 2023-cü il 3 noyabr tarixli 2340 nömrəli və "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 noyabr tarixli 2340 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" 2024-cü il 14 mart tarixli 22 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 13 noyabr tarixli 259 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1198 (Cild I); 2024, № 4, maddə 437) aşağıdakı dəyişikliklər edilsin:

1. 13-cü və 14-cü hissələrdə "Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsinə və səmərəli istifadəsinə dövlət nəzarətinin təşkili Qaydaları"nın 2.4-cü bəndində "Azərbaycan Milli Elmlər Akademiyasının müvafiq bölmə və strukturlarının" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyindəki müvafiq qurumlarının" sözləri ilə əvəz edilsin.

3. Həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - "Azərbaycan Respublikasına məxsus ənənəvi mədəni brend bitkilərinin yayıldığı areallarda bu cür bitkilərin becərilməsinin davam etdirilməsi və sahələrin genişləndirilməsi Qaydası"nın 2.2-ci bəndinin birinci cümləsində, 2.3-cü bəndində, 2.4-cü bəndinin birinci cümləsində, 2.5-ci, 2.7-ci və 2.8-ci bəndlərində "Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin.

4. Həmin Qərarla təsdiq edilmiş 5 nömrəli əlavə - "Ölkə daxilində genetik modifikasiya olunmuş bitkilərin mövcudluğu və yayılma zonasının aşkarlanması Qaydası" üzrə:

4.1. 2.3-cü, 2.5-ci bəndlərdə və 2.8.1-ci yarımbənddə "Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin;

4.2. 2.4-cü bənddə "Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə, "Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətində" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən" sözləri ilə əvəz edilsin.

5. Həmin Qərarla təsdiq edilmiş 7 nömrəli əlavə - "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi üzrə idarəetmə sisteminə daxil olan Elmi-Texniki Şuranın Əsasnaməsi" üzrə:

5.1. 1.2-ci bənddə "Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin;

5.2. 5.3-cü bəndin ikinci cümləsində "AMEA Rəyasət Heyətində" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyində, Azərbaycan Respublikası" sözləri ilə əvəz edilsin.

6. Həmin Qərarla təsdiq edilmiş 9 nömrəli əlavə - "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi üzrə idarəetmə sisteminə daxil olan prioritet fəaliyyət istiqamətləri üzrə işçi qruplarının Əsasnaməsi"nin 3.1-ci bəndinin birinci cümləsində "AMEA-nın Aqrar Elmləri Bölməsi" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Beynəlxalq tədbirdə Azərbaycanda gender fərqlərinin aradan qaldırılması istiqamətində görülən işlərdən danışılıb







**İyunun 25-də Mərakeş Krallığının paytaxtı Rabat şəhərində keçirilən "Qayğı iqtisadiyyatı və sosial müdafiə: Qadınların səlahiyyətləndirilməsi, iş imkanları və rifahının təmin edilməsinin əsasları" mövzusunda I Beynəlxalq Konfrans keçirilib.**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, iki gün davam edəcək konfransın "Qayğı iqtisadiyyatında qadınların gücləndirilməsi, ailənin möhkəmliyi və rifahının artırılması" mövzusunda təşkil olunan yüksəksəviyyəli nazirlər plenarında çıxış edən komitə sədri Bahar Muradova iki ölkə arasında bir çox istiqamətlərdə, o cümlədən ailə və sosial məsələlər sahəsində əməkdaşlığın intensivləşdiyini bildirib. Deyib ki, bu əlaqələrin möhkəmləndirilməsi və şaxələndirilməsi üçün səylər artırılır. Ötən il Qoşulmama Hərəkatına üzv dövlətlərin sosial sahəyə məsul nazirlərinin Bakıda keçirilən konfransına diqqət çəkən B.Muradova Azərbaycanın təşəbbüsü ilə təşkilatın "Qadın qolu"nun yaradılması barədə bəyannamənin qəbul olunduğunu deyib.

Qayğı iqtisadiyyatının sosial müdafiə çərçivəsində inteqrasiya olunmasının daha inklüziv və ədalətli bir cəmiyyət qurmaq üçün şərait yaratdığından bəhs edən komitə sədri nəticədə ehtiyacı olan insanların daha yaxşı və əlçatan xidmətlərə malik olması, həmçinin qadınların səlahiyyətləndirilməsi üçün böyük potensial yarandığını deyib.

B.Muradova vurğulayıb ki, hazırkı dönəmdə qazanılmış tarixi Qələbədən sonra regionda sülh yaratmağa çalışan Azərbaycanda sosial-iqtisadi siyasətin əsas prioritetlərindən biri də məhz işğaldan azad olunmuş ərazilərə qısa zamanda daha çox əhalini qaytarmaq, onların təhlükəsiz yaşamına və məşğulluğunun təmin edilməsinə nail olmaqdır.

Ölkəmizdə müvafiq sahədə qəbul edilən normativ-hüquqi aktlara və qanunvericiliyə dəyişikliklərə diqqət çəkən komitə sədri deyib ki, məşğulluq sahəsində gender fərqinin aradan qaldırılması və iqtisadi bacarıqlarının artırılması məqsədilə müvafiq dəstək proqramları həyata keçirilir.

"Azərbaycan - 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi çərçivəsində qəbul olunmuş "2022-2026-cı illərdə sosial iqtisadi inkişaf Strategiyası" barədə məlumat verən B.Muradova sənəd çərçivəsində həyata keçirilməsi hədəflənən işlərdən danışıb. Qeyd olunub ki, bu istiqamətdə həyata keçirilməsi planlaşdırılan əsas hədəflərdən biri sosial ödənişlərin ünvanlı və aztəminatlı ailələr üçün yönəldilməsidir. O, bu məqsədlə milli qanunvericilikdə qadınlar üçün bir sıra sosial müavinətlərin nəzərdə tutulduğunu vurğulayıb.

"Qarşıda duran ən mühüm vəzifələrdən biri də ailə institutunun möhkəmləndirilməsi, ailə dəyərlərinin qorunmasıdır", - deyən B.Muradova diqqətə çatdırıb ki, ölkələrimizdə hərtərəfli qayğı iqtisadiyyatının inkişafını gücləndirmək, ailələrimizin möhkəmliyini qoruyub saxlamaq və bu əsasda qadınlarımızın güclənməsinə nail olmaq üçün yaşıl iqtisadiyyatın inkişafına və ekoloji mühitin sağlamlığının qorunub saxlanılmasına da ciddi formada çalışmalıyıq.

COP29-un bu il Azərbaycanda keçiriləcəyini xatırladan komitə sədri bu məqsədlə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyini söyləyib. Eyni zamanda qəbul edilmiş fəaliyyət planı üzrə bir çox layihələrin icra olunduğunu diqqətə çatdırıb.

Sonda B.Muradova yüksəksəviyyəli tərəflər konfransı çərçivəsində qadınların gücləndirilməsi və ailələrin rifahının yaxşılaşdırılması istiqamətində mövzuların müzakirəsinin mühüm dəyişikliklərlə nəticələnəcəyini bildirib. Həmçinin qarşılıqlı təcrübə mübadiləsinin ölkələrimizdə sosial müdafiə sisteminin gücləndirilməsi və bərabər imkanlar şəraitində bərabərliyi təmin etmək sahəsindəki işə böyük töhfə verəcəyinə inamını ifadə edib.

Daha sonra digər çıxışlar dinlənilib və konfrans panel sessiyalarla davam edib.

Qeyd edək ki, konfransa 20-yə yaxın ölkəni təmsil edən aidiyyəti nazir və qurum rəhbərləri də daxil olmaqla, 900-ə yaxın iştirakçı qatılıb.

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan" şirkəti və onun törəmə şirkətləri

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

26 İyun - Silahlı Qüvvələr Günü

münasibətilə Azərbaycan xalqını və Müzəffər Azərbaycan Ordusunu təbrik edir, yeni-yeni uğurlar arzulayırlar!

# Şuşada "By Youth For Youth" Beynəlxalq Forumu öz işini başa vurub





**Şuşa şəhərində "By Youth For Youth" (Gənclər tərəfindən gənclər üçün) Beynəlxalq Forumu öz işini yekunlaşdırıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Heydər Əliyev Fondu və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) birgə təşkilatçılığı ilə keçirilən tədbirdə müxtəlif dövlətlərin yüksəkvəzifəli nümayəndələri, qonaqlar və ICESCO-ya daxil olan ölkələrdən 200-ə yaxın şəxs iştirak edib.

Forumun açılış mərasimində gənclər və idman naziri Fərid Qayıbov Şuşanın son zamanlar bir çox tədbirə evsahibliyi etdiyini bildirib. Nazir deyib ki, "By Youth For Youth" (Gənclər tərəfindən gənclər üçün) Beynəlxalq Forumunun da burada təşkil olunması sevindirici haldır. O, gənclərin bu cür böyük layihələrdə iştirakının önəmli olduğunu vurğulayıb.

Forumun məqsədindən danışan gənclər və idman nazirinin müavini İndira Hacıyeva bildirib ki, burada əsas məsələ İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrdə gənclərin sülh şəbəkəsini genişləndirməkdir. O, bu layihənin gənclər arasında ənənələrin qorunmasına və ötürülməsinə kömək edəcəyini diqqətə çatdırıb: "Burada Şuşanın da böyük əməyi olacaq. Çünki bu şəhər özü bir rəmzi məna daşıyır. Gənclərin sayəsində dünyada sülh, iqtisadi dayanıqlılıq inkişaf edəcək".

İ.Hacıyeva tədbirin iki ildən bir fərqli ölkələrdə keçiriləcəyini söyləyib: "Bu adla olan ilk forum idi. Gənclər və İdman Nazirliyi ICESCO ilə birgə müəyyən işlər aparır. Gənclərimiz də bu cür layihələrdə iştirak etmək istəyirlər. Şuşadakı forum öz işinə Bakıda davam edəcək. Orada qəbul edilən qərarlara uyğun olaraq gənclərdən ibarət qrup yaradılacaq. Onlar öz fikirlərini rahatlıqla səsləndirə biləcəklər".

"By Youth For Youth" Beynəlxalq Forumunun yüksək səviyyədə təşkil olunduğunu deyən Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov bölgədəki quruculuq işlərində gənclərin də fəal iştirak etdiyini xatırladıb: "Bu diyar gənclərin enerjisi ilə inkişaf edir. Buraya ailələr köçməyə başlayıb. Şəhər yenidən canlanır. Artıq sentyabr ayında Şuşada yaşayan uşaqlar məktəbə gedəcəklər. Eləcə də Xankəndidə Qarabağ Universitetinin təməli qoyuldu. Qürurverici hisslərdir".

Forumun keçirilməsinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür edən ICESCO-nun baş katibi Səlim Əl-Malik Şuşaya səfərini böyük xoşbəxtlik adlandırıb: "Burada olmaq möhtəşəmdir. Biz dünyada sülhü qorumaq üçün əlimizdən gələni etməliyik. Gələcəkdə Azərbaycanla tərəfdaşlığın genişləndirilməsi nəzərdə tutulub. Bu il Azərbaycanda keçiriləcək COP29 tədbirində də iştirak etmək istəyirik".

Heydər Əliyev Fondunun nümayəndəsi Elvin Aslanov isə öz çıxışında bir ay öncə ICESCO ilə imzalanmış əməkdaşlıq müqaviləsinin önəmindən bəhs edib. Təhsil və digər sahələrdə sıx əməkdaşlığa başladıqlarını deyən E.Aslanov bu əlaqələrin gənclərin sayəsində daha da inkişaf edəcəyinə inamını vurğulayıb. O, Şuşa şəhərinin 2024-cü il üçün islam dünyasının mədəniyyət paytaxtı seçilməsinin qürurverici olduğunu və bəşəriyyət üçün birlikdə böyük işlər görməyə çalışacaqlarını əlavə edib.

Açılış çıxışlarından sonra beynəlxalq forum işini panel müzakirələri ilə davam etdirib.

Qeyd edək ki, "By Youth For Youth" Beynəlxalq Forumu öz işini iyunun 26-27-də Bakı şəhərində davam etdirəcək. Paytaxtda gənclərin iştirakı ilə panel müzakirələr, təqdimatlar keçiriləcək. Dünyanın dörd qitəsindən gələn iştirakçılar Azərbaycanın zəngin multikultural tarixi və mədəniyyəti, ali təhsil müəssisələri ilə tanış olacaqlar.

# Qərbi Azərbaycan İcmasında Ümumdünya Qaçqınlar Gününə həsr olunmuş tədbir keçirilib



**Qərbi Azərbaycan İcması iyunun 25-də Ümumdünya Qaçqınlar Gününə həsr olunmuş beynəlxalq tədbir keçirib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının dövlət orqanlarının nümayəndələri, ölkəmizdə akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri, ictimai və elm xadimlərinin iştirak etdiyi tədbirdə Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququ və qaçqınlıq problemləri ətrafında fikir mübadiləsi aparılıb.

Çıxış edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri Əziz Ələkbərli Ermənistandan azərbaycanlıların qovulması, onların mədəni irsinə vurulmuş zərərlər, icmanın son bir ildə həyata keçirdiyi tədbirlər haqqında məlumat verib.

Qaçqınlıq və məcburi köçkünlük probleminin davamlı həllinin qayıdış hüququnun təmin edilməsindən keçdiyini qeyd edən sədr bildirib ki, Azərbaycan hökumətinin məcburi köçkünlərin geri qayıdışı istiqamətində həyata keçirdiyi irimiqyaslı fəaliyyəti təqdir olunmalıdır. Ə.Ələkbərli vurğulayıb ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə beynəlxalq hüququn aliliyini və yüzminlərlə insanın qayıdış hüququ kimi təməl insan hüququnu təmin edib.



İcmanın sədri Ermənistandan qovulmuş azərbaycanlıların sosial problemlərinin həllinə və onların dinc yolla qayıdış hüququna verdiyi dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin təşəkkürünü bildirib.

Daha sonra Ermənistanın Karvansara rayonundan qaçqın düşmüş Səfayə Həsənova qaçqınlıq xatirələrini bölüşüb: "1947-ci ildə Salah kəndində anadan olmuşam. Atam, babam tarixi torpaqlarımızda - Qaraqoyunlu dərəsində yaşayıb. Orada bir nəfər belə erməni yaşamayıb. Mən kəndimizdə mühasib, 1975-ci ildə partiya təşkilat katibi işləmişəm. 1980-ci illərdən sonra isə Salah kəndində kolxoz sədri kimi fəaliyyət göstərmişəm".

Səfayə Həsənova əvvəllər ermənilərlə münasibətlərinin normal olduğunu vurğulayıb. Qeyd edib ki, ermənilər sonradan orada yaşayan azərbaycanlıları sıxışdırmağa, münasibətləri isə kəskinləşdirməyə başladılar. O, öz yurdlarından qovulması və ermənilərin ikiüzlü münasibətləri və yaşadıqları ağrı-acılar barədə də danışıb.

Tədbirdə "Qərbi Azərbaycan" televiziya kanalının icma haqqında hazırladığı sənədli film nümayiş etdirilib.

Qeyd edək ki, Ümumdünya Qaçqınlar Günü BMT Baş Assambleyasının 2000-ci ildə qəbul etdiyi 55/76 saylı qətnamə ilə təsis olunub. Məqsədi qaçqınların problemlərinə beynəlxalq diqqəti artırmaqdır. Qərbi Azərbaycan İcması hər il bu gün münasibətilə tədbir təşkil edir.

# ABŞ mətbuatında Azərbaycanla Ermənistan arasında sülh imkanlarından yazılıb

**ABŞ mətbuatında Azərbaycanla Ermənistan arasında sülh imkanlarından bəhs olunub.**

AZƏRTAC xəbər verir ki, bu barədə Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru, tanınmış siyasi şərhçi və jurnalist Reyçel Avraham ABŞ-nin populyar nəşri "The Jewish Press"də dərc olunmuş məqaləsində yazıb. "Azərbaycan və Ermənistan arasında sülh uzaq xəyal olaraq qalır" sərlövhəli məqalədə qeyd edilib ki, Ermənistan konstitusiyasını dəyişməkdən imtina etdikcə, Azərbaycan tərəfi sülh sazişinin imzalanmasını mümkünsüz sayır. Ermənistanda və bir sıra ölkələrdə vəziyyətin daha da gərginləşməsində maraqlı olan müəyyən qüvvələr yaranmış situasiyadan yararlanaraq tez-tez Azərbaycana qarşı təxribatlara əl atırlar.

Azərbaycan ərazilərinin yenidən işğalı ideologiyasının ən qatı tərəfdarlarından biri, həbsdən əvvəl Azərbaycanın Qarabağ bölgəsinin Xankəndi şəhərindəki keçmiş separatçı rejimə rəhbərlik etmiş Ruben Vardanyandır. Bütün işğal tərəfdarları kimi Vardanyan da Ermənistanın Qarabağ üzərində nəzarəti bərpa etməsini istəyir və bu cür iddialara son qoyacaq sülh sazişində maraqlı deyil.

Ermənistan konstitusiyasına dəyişiklik edilməyəcəyinə dair Nikol Paşinyanın bu yaxınlardakı bəyanatına diqqət çəkən müəllif bu qəbildən addımların Ermənistanla Azərbaycan arasında sülhün əldə olunmasını çətinləşdirdiyini vurğulayıb. O, həmçinin silahdaşları İrəvan küçələrində sülh sazişinə etiraz edən Vardanyan kimi yenidən işğal ideologiyasının tərəfdarlarının Ermənistanın baş nazirinə təsir göstərdiyini də diqqətə çatdırıb. Yazıda Ermənistanla sülh sazişi imzalamaq istəyən Azərbaycanın bu ölkəyə ATƏT-in hazırda fəaliyyət göstərməyən Minsk qrupunun ləğvi tələbinə dair birgə müraciətlə çıxış etməsini təklif etdiyi də qeyd olunub.

Eyni zamanda diqqətə çatdırılıb ki, belə bir addım olmasa, münaqişənin yenidən başlaması an məsələsidir: insanların ürəyindən və şüurundan münaqişə istəyi silinməsə, Ermənistan yenidən silahlanacaq, hərbi imkanlarını müasirləşdirəcək və yenidən münaqişəyə başlayacaq.




# Azərbaycan QHT-lərinin Zəngilanda keçirilən Əməkdaşlıq Forumu başa çatıb

## Forumda Azərbaycan Prezidentinə müraciət qəbul olunub






**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və Azərbaycan Milli QHT Forumunun birgə təşkilatçılığı ilə Zəngilan rayonundakı Konqres Mərkəzində keçirilən Azərbaycan QHT-lərinin Əməkdaşlıq Forumu iyunun 25-də başa çatıb.**



AZƏRTAC xəbər verir ki, iyunun 24-də işə başlayan və ictimai birliklərdən 200-dək təmsilçinin iştirak etdiyi forumun ikinci günündə "Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadları" və "COP29 və Yaşıl Dünya Naminə Həmrəylik Hərəkatı" mövzularında panel müzakirələr keçirilib.

"Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyinin sədri Ayaz Mirzəyevin moderatorluğu ilə keçən "Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadları" panelində Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri, "Environmental Protection First" (EPF) Koalisiyasının həmtəsisçisi Amin Məmmədov, Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun prezidenti Sabit Bağırov, "Azərbaycan Kartoqrafları" İctimai Birliyinin sədri Müqabil Bayramov, Naxçıvan Dövlət Universiteti Tələbə Gənclər Təşkilatının sədri Əziz Qasımov Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadları haqqında ətraflı məlumatlar veriblər. Forum iştirakçılarına Ermənistan respublikasının mineral xammal resurslarının - dağ-mədən sənayesinin xəritəsi təqdim olunub. Bildirilib ki, 3 dildə hazırlanan xəritədə Ermənistandan Azərbaycana axan çayların çirkləndirilməsi faktları öz əksini tapıb. Xəritədə istismar olunan və istismarı dayandırılan faydalı qazıntı mənbələri barədə məlumatlar yer alıb və ekologiyanın çirklənməsinə səbəb olan zavodların məkanları öz əksini tapıb. Bildirilib ki, bu zavodlar əsasən Zəngəzur ərazisində yerləşir. Ekologiyanın çirklənməsinə səbəb olan zavodlardan atılan tullantılar Araz çayının qollarına axıdılır. Bundan başqa, müzakirələrdə Ermənistanın Naxçıvanla sərhəddə yerləşən zavodlarının hava qatına və su mənbələrinə, həmçinin bitki örtüyünə vurduğu fəsadlar haqda da danışılıb. Qeyd olunub ki, sadalanan faktlar ekologiya ilə yanaşı, Sədərək rayonunun ərazisində yaşayan 23 min nəfər əhali üçün də ciddi təhlükə sayılır.

Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü Azər Allahverənovun moderatorluğu ilə keçən "COP29 və Yaşıl Dünya Naminə Həmrəylik Hərəkatı" adlı panel müzakirədə isə COP29-un Təşkilat Komitəsinin üzvü, "Smart Nation" platformasının təsisçisi Şəbnəm Məmmədova, COP29-un Təşkilat Komitəsinin üzvü, "Qadın, İnkişaf, Gələcək" İctimai Birliyinin sədri Gülşən Axundova, COP29-un Təşkilat Komitəsinin üzvü, "EkoSfera Sosial Ekoloji Mərkəzinin sədri Firuzə Sultanzadə, COP-lar üzrə ekspert İsa Əliyevin çıxışları dinlənilib. Çıxışlarda iqlim dəyişməsinə təsir edən amillərdən, ekoloji fəsadların aradan qaldırılması üçün görülən tədbirlərdən söhbət açılıb. Bildirilib ki, Azərbaycanın COP29 kimi möhtəşəm bir tədbirə evsahibliyi etməsi təqdirəlayiq haldır. Panel müzakirədə Qarabağ və Şərqi Zəngəzurda görülən işlərdən də söhbət açılıb. Qeyd edilib ki, işğaldan azad olunan ərazidə "yaşıl enerji" prioritet məsələ kimi yer alır. Həmçinin müzakirələrdə yaşayış məntəqələrində "yeni nəsil" texnologiyalardan istifadə olunmasının əhəmiyyəti vurğulanıb.

Panel müzakirələrdən sonra Azərbaycan QHT-lərinin Əməkdaşlıq Forumunun iştirakçıları adından Azərbaycan Respublikası Prezidentinə "Yaşıl Dünya Naminə Azərbaycan QHT-lərinin həmrəylik müraciəti" qəbul edilib.

Müraciətdə deyilir:

*"Biz - Azərbaycan QHT-lərinin Əməkdaşlıq Forumunun iştirakçıları olan ictimai birliklərin rəhbərləri Sizin Yaşıl Dünya Naminə ardıcıl və məqsədyönlü fəaliyyətinizi yüksək qiymətləndirir və təqdir edirik.*

*Yürütdüyünüz siyasətin məntiqi nəticəsidir ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bu gün cənnətə çevrilir, bu ərazilər eyni zamanda "yaşıl enerji" zonaları elan olunub.*

*Beynəlxalq ictimaiyyətin yekdilliklə COP29-a evsahibliyini bu dəfə məhz Azərbaycana həvalə etməsi Sizin dünyanı həmrəyliyə dəvət edən "yaşıl enerji" siyasətinizə olan böyük hörmət və rəğbəti aydın ifadə edir.*

*Azərbaycanın COP29 ölkəsi kimi, iqlim dəyişmələri səbəbindən su altında qalmaq təhlükəsi ilə üzləşmiş kiçik ada dövlətlərinə qlobal dəstəyin təmin olunması üçün fəal iş aparması ölkəmizə xüsusilə inkişaf etməkdə olan ölkələrin (İEOÖ) diqqətini daha da artırıb.*

*Son bir neçə ay ərzində COP29-la əlaqədar ümumilikdə 71 ölkədən 367 QHT və ictimai fəalın müxtəlif birgə bəyanatlar verərək Azərbaycanın qlobal iqlim dəyişmələri ilə mübarizəsinə güclü dəstək ifadə etməsi, bu ölkələrdən 62-sinin məhz İEOÖ-lər olması bunun aydın ifadəsidir.*

*OPEC+ platformasının üzvü olan Azərbaycan dünyaya nümunə göstərir ki, məhz neft və qazı zəngin olan ölkələr iqlim dəyişmələri məsələlərinin həllində təşəbbüskarlığı ələ almalıdır.*

*Sizin rəhbərliyinizlə "yaşıl keçid" üzrə artıq nəhəng layihələrə başlanılıb. Azərbaycanın yaxın 6 ildə günəş və külək enerjisi 5000 meqavat (5 qiqavat) təşkil edəcək. Dörd qiqavat həcmində "yaşıl enerji"ni Avropaya ixrac etmək imkanı yaranacaq. Dənizdə külək enerjisinin təsdiqlənmiş ehtiyatları 157 qiqavatdır. Bu, Azərbaycanın "yaşıl enerji" potensialını aydın nümayiş etdirir.*

*Qlobal istiləşmə şəraitində Azərbaycan dünyaya müdrik mesaj verir ki, qlobal iqlim dəyişmələrinin səbəb ola biləcəyi fəlakətin qarşısı yalnız qlobal həmrəyliklə alına bilər.*

*Biz - Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçiləri Sizin yanınızdayıq, Sizinlə bir yerdəyik, Sizinlə fəxr edirik.*

*QHT-lərə Dövlət Dəstəyi Agentliyi və Azərbaycan Milli QHT Forumunun birgə təşkilatçılığı ilə Zəngilanda keçirilmiş forumda ekoloji məsələlərin müzakirəsi üstünlük təşkil etdi, 3 paneldən 2-si bu mövzuda idi. Aparılmış müzakirələr əsasında belə bir ümumi qənaətə gəlirik ki, Sizin "yaşıl düşüncə"yə söykənən yeni enerji strategiyanız Azərbaycana qarşıdakı dövrdə daha böyük qələbələr bəxş edəcək!*

*Siz qalib xalqın qalib lideri kimi ölkəmizi yeni inkişaf mərhələsinə qaldırmısınız.*

*Biz Qarabağda və Şərqi Zəngəzurda nəhəng quruculuq və bərpa işlərinin şahidiyik.*

*Təəssüflər olsun ki, Ermənistan işğal dövründə Azərbaycan torpaqlarını 1,5 milyondan çox mina və partlamamış hərbi sursat ilə çirkləndirib. İndi ərazinin minalardan təmizlənməsi, ətraf mühitin qorunması üçün böyük işlər aparırsınız.*

*Biz qəti əminik ki, gün gələcək, Siz Qarabağ və Şərqi Zəngəzuru minadan azad bölgə elan edəcəksiniz.*

*Biz - "Yaşıl Dünya Naminə Azərbaycan QHT-lərinin həmrəylik müraciəti"ni qəbul etməklə, apardığınız siyasətə tam dəstəyimizi ifadə edir, yorulmaz fəaliyyətinizdə Sizə uğurlar arzulayırıq".*

❖ ❖ ❖

Tədbirin sonunda bədii hissə təqdim olunub.

Bununla da Azərbaycan QHT-lərinin Əməkdaşlıq Forumu işini başa çatdırıb.

# Forum iştirakçıları Zəngilan məscidini ziyarət ediblər

**Zəngilanın evsahibliyi etdiyi Azərbaycan QHT-lərinin Əməkdaşlıq Forumunun iştirakçıları iyunun 25-də Zəngilan məscidini ziyarət ediblər.**





AZƏRTAC xəbər verir ki, QHT təmsilçiləri məsciddə namaz qılıb, dualar ediblər.

Zəngilanda yeni məscidin təməli şəhər erməni işğalçılarından azad edildikdən sonra - 2021-ci il aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulub. Məscidin tikintisini Heydər Əliyev Fondu "PAŞA Holdinq" MMC-nin dəstəyi ilə həyata keçirib.

İşğal dövründə Zəngilan şəhərindəki tarixi məsciddən tövlə kimi istifadə olunub. XIX əsrdə inşa edilmiş və memarlıq abidəsi kimi inventarlaşdırılan məscid dağıdılıb, ilkin görkəmini 70 faizə qədər itirib.

İşğal altında olan ərazilərimiz azad edildikdən sonra Qarabağdakı tarixi, dini və mədəniyyət abidələrinin bərpası layihələri çərçivəsində Zəngilan məscidində də bərpa-tikinti işlərinə başlanılıb. Yerli və xarici ekspertlərdən ibarət işçi qrup məscidin mövcud binasında qiymətləndirmə aparıb, buna əsasən binanın konservasiyasına qərar verilib. Həmçinin konservasiya olunan tarixi məscidin yanında yeni məscid inşa edilib.

QHT nümayəndələri Zəngilanda həyata keçirilən bərpa-quruculuq işləri ilə də tanış olublar.

# Xəzər-Avropa "Yaşıl Enerji" Dəhlizi çərçivəsində "yaşıl hidrogen"in ixrac imkanları araşdırılır

**Energetika nazirinin müavini, COP29-un baş icraçı direktoru Elnur Soltanov Almaniyanın Xarici İşlər Nazirliyinin "H2-diplo - Dekarbonizasiya Diplomatiyası" təşəbbüsü çərçivəsində GIZ tərəfindən təşkil edilmiş tədbirdə açılış nitqi ilə çıxış edib.**



AZƏRTAC Energetika Nazirliyinin yaydığı məlumata istinadən xəbər verir ki, çıxış zamanı COP29-un ev sahibi kimi Azərbaycanın strateji planları və təşəbbüsləri, enerji günündə həyata keçirilməsi planlanan tədbirlər haqqında məlumat verib. Ölkəmizin karbonsuzlaşma sahəsindəki fəaliyyətinin əsas istiqaməti olan enerji keçidi sahəsindəki fəaliyyətinin COP29 prezidentliyinin Azərbaycana keçməsindən xeyli əvvəl başladığı və hətta COP29 çərçivəsində qlobal iqlim müzakirələri üçün seçilən şüarın, demək olar ki, ölkəmiz üçün əvvəlcədən seçilmiş şüarla eyni olduğu vurğulanıb.

Təmiz hidrogenin COP29 sədrliyinin təşəbbüslərindən biri olacağı, xüsusilə də beynəlxalq sertifikatlaşdırma sxemləri sahəsində atılacaq addımların bu sahənin inkişafına təkan verəcəyinə ümid edildiyi qeyd edilib. Azərbaycanda bu sahədə beynəlxalq tərəfdaşlarla görülən işlərdən bəhs edilib və Xəzər-Avropa "Yaşıl Enerji" Dəhlizi çərçivəsində sadəcə "yaşıl elektronlar"ın deyil, eyni zamanda yaşıl hidrogenin ixrac imkanlarının araşdırıldığı vurğulanıb.

# ABŞ mətbuatı Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili"ndən yazıb

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərar beynəlxalq ictimaiyyətin Azərbaycana dərin hörmət və etimadını, ölkənin ətraf mühitin mühafizəsi sahəsində göstərdiyi səylərə verilən qiyməti əks etdirir.**

AZƏRTAC xəbər verir ki, bu barədə tanınmış siyasi şərhçi və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham baş qərargahı ABŞ-nin Nyu York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında dərc olunmuş məqaləsində yazıb.

"Azərbaycanda 2024-cü il Yaşıl dünya naminə həmrəylik ili elan edilib" sərlövhəli məqalədə qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev bu il ölkəsində keçiriləcək COP29 konfransı öncəsi 2024-cü ili "Yaşıl dünya həmrəyliyi ili" elan edib. Sözügedən qərar Azərbaycanın qlobal iqlim dəyişikliyi ilə mübarizədə qlobal tərəfdaş olduğunu nümayiş etdirmək məqsədi daşıyır. Müəllif ölkəmizin qarşısına 1990-cı ilin baza ili ilə müqayisədə 2030-cu ilə qədər istixana qazı emissiyalarını 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaltmaq kimi iddialı hədəflər qoyduğuna diqqət çəkib.

Məqalədə həmçinin diqqətə çatdırılıb ki, 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını və 2000-ci ildə Konvensiyanın Kioto Protokolunu ratifikasiya etdikdən sonra Azərbaycan Respublikası qlobal iqlim dəyişmələrinin mənfi nəticələrinin yumşaldılması istiqamətində beynəlxalq səylərə fəal qoşulub. Ölkəmiz antropogen emissiyaların və istixana qazlarının atılmasının inventarının hazırlanması və müntəzəm olaraq yenilənməsi, o cümlədən milli məlumatların hazırlanması və bu məlumatların Konvensiyanın Katibliyinə təqdim edilməsi kimi öhdəliklər götürüb. Bütün bu öhdəliklərin sistemli şəkildə yerinə yetirildiyi qeyd olunan yazıda Azərbaycanın emissiyaların azaldılması üzrə qlobal səylərə artıq öz töhfəsini vermiş olduğu və verməkdə davam etdiyi bildirilib.

# Prezident Kitabxanasında "COP29 Azərbaycan" adlı elektron layihə hazırlanıb

**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası tərəfindən Azərbaycan, ingilis və rus dillərində "COP29 Azərbaycan" adlı elektron layihə hazırlanıb.**

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, altı bölmədən ibarət olan layihənin "COP" adlı birinci bölməsində COP-un tarixi, indiyədək keçirilmiş konfransları haqqında məlumat verilir.

"COP29" bölməsində ölkəmizin bu mötəbər beynəlxalq tədbirə hazırlığı, Prezident İlham Əliyevin sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi, Sədrlik haqqında materiallar öz əksini tapır.

"Rəsmi sənədlər" və "Xronika" bölmələrində bu konfransla bağlı Prezidentin imzaladığı fərman və sərəncamların, AZƏRTAC-ın və digər informasiya agentliklərinin məlumatlarının tam mətnləri toplanıb. "E-resurslar" bölməsində layihənin mövzusuna dair Prezident Kitabxanasının fondunda olan müxtəlif dillərdə kitablar və dövri mətbuatdan seçilmiş məqalələrin tam mətnləri təqdim edilir. "Biblioqrafiya" bölməsində "COP29 Azərbaycan"la bağlı dövri mətbuatda müxtəlif dillərdə dərc edilmiş məqalələrin biblioqrafik təsvirləri toplanır.




Elektron layihənin bölmələri mütəmadi olaraq yenilənir.

# 30 il ermənilərin cəhənnəmə döndərdiyi ərazilərimiz indi cənnətə çevrilir

**Qarabağ və Şərqi Zəngəzur otuzillik işğaldan azad olunduqdan sonra dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev bu yerləri həm də cənnətə çevirəcəyimizi bəyan etdi. Tez bir zamanda bərpa-quruculuq işlərinə başlandı. Nəticələr isə möhtəşəmdir!**




Bəlkə də heç vaxt, heç bir yerdə müharibədən sonra bərpa, tikinti, abadlıq işləri belə qısa vaxtda bu cür geniş vüsət almayıb. İndi Qarabağ və Şərqi Zəngəzur həqiqətən cənnətə çevrilir. Həm də bu, özünü bütün sahələrdə göstərir. Yeni və müasir infrastruktur yaradılır, yollar çəkilir, mədəni və tarixi abidələr bərpa olunur. Şəhər, qəsəbə və kəndlərdə təzə çoxmənzilli yaşayış binaları, fərdi evlər tikilir. Onların sayı artdıqca keçmiş məcburi köçkünlərin doğma yurda dönüşü də sürətlənir.

Bu il mayın 10-da Prezident İlham Əliyevin Şuşada birinci yaşayış kompleksinin açılışında dediyi sözləri xatırlayaq: "Füzuli şəhərindən Şuşaya qısa müddət ərzində Zəfər yolu çəkildi. İndi isə daha geniş magistral avtomobil yolu çəkilir. Yeddi tuneli, doqquz viaduku, bir çox körpüsi olan dördzolaqlı gözəl bir yol çəkilir və yəqin ki, gələn ilin sonuna qədər o da hazır olacaq. Şuşanın tarixi abidələrinin bərpası dərhal başlanılmışdır. Birinci Vaqifin məqbərəsi yenidən quruldu, onun əzəli görkəmi qaytarıldı. Ondan sonra Yuxarı Gövhər ağa məscidi, daha sonra Saatlı məscidi bərpa olundu. Bu gün Mamayı məscidinin bərpadan sonra açılışını etdik. Çöl Qala məscidində artıq bərpa işləri başlanılıb. Mehmandarov məscidi və Mehmandarovun evi bərpa edilib. Artıq dörd mehmanxana fəaliyyət göstərir. Onların içində ən böyük beşulduzlu "Şuşa" mehmanxanası bu gün Şuşanın müasir görkəmini əks etdirir. Amma yenə o mehmanxana da ənənəvi Şuşa memarlığı üslubunda inşa edilmişdir. Bu gün eyni zamanda Şirinsu hamamı əsaslı təmirdən sonra açılmışdır. Aşağı Gövhər ağa məscidində təmir-bərpa işləri yekunlaşmaq üzrədir. Üzeyir bəy Hacıbəylinin vəhşi düşmən tərəfindən dağıdılmış abidəsi yenidən öz yerinə qoyuldu. Ermənilər tərəfindən dağıdılmış Vaqifin büstü yenə də əvvəlki görkəmdə, formada bərpa edildi, yenidən hazırlandı. Üzeyir bəy Hacıbəylinin ermənilər tərəfindən dağıdılmış evi yenidən qurulur, bu il hazır olacaq. Bir neçə başqa önəmli hadisə baş vermişdir".

Dövlət başçısı bu regionun gələcəyinin daha işıqlı olacağını da dedi: "Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq - ən müasir, ən rahat, ən gözəl. Buranın təbiəti, gözəl mənzərələri, yaşıllıqlar, bulaqlar müasir və eyni zamanda ənənəvi üslubda inşa edilən binalarla tamamlanır. Elə bir gözəl şəhər yaradılır ki, əminəm, hər birimiz, hər bir azərbaycanlı bununla fəxr edəcək. Bir daha demək istəyirəm, biz azad edilmiş bütün torpaqlarda genişmiqyaslı proqramları icra edirik. Bu gün artıq Şuşa altıncı yaşayış yeridir ki, keçmiş köçkünlər buraya qayıdır. Bu gün eyni zamanda Laçının Sus kəndinə də keçmiş köçkünlərin qayıdışı nəzərdə tutulur və ilin sonuna qədər ən azı 20 yaşayış məntəqəsində artıq həyat bərpa ediləcək".

Qarabağın və Şərqi Zəngəzurun tezliklə dünyanın ən sevilən və səfər edilən turizm destinasiyasına çevriləcəyinə də şübhə yoxdur. Elə indinin özündə belə bu bölgələrə həm yerli, həm də xarici turistlərin marağı böyükdür. Belə ki, onlar bu cənnətməkanın 30 il ərzində erməni faşistləri tərəfindən necə viran qoyulduğunu əyani görür, eyni zamanda burada gedən çoxşaxəli quruculuq işlərinin timsalında Azərbaycan dövlətinin güc-qüdrətinin bir daha şahidi olurlar.

Yeni yollar, beynəlxalq aeroportlar, bir-birindən rahat və yaraşıqlı hotellər, meşələrin və yaşıllıqların bərpası... Bütün bunlar Qarabağın və Şərqi Zəngəzurun qonaqlarının öz səfərlərindən məmnun qalması üçün yaradılır.

Yeri gəlmişkən, diqqətə çatdıraq ki, qeyd edilən ərazilər üzrə xüsusi nümayəndəliklərdən daxil olan məlumata əsasən, Qurban bayramı ilə əlaqədar qeyri-iş günlərində (15-19 iyun) Şuşa şəhərinə 2650 avtomobil ilə 12 528 nəfər, Laçın şəhərinə isə 2 296 fərdi avtomobil ilə 8 330 nəfər səfər edib. Şuşaya səfər edənlərin 1779 nəfəri, Laçına səfər edənlərin isə 709 nəfəri hotellərdə qonaqlayıb. Keçən il dekabrın 27-dən bu il iyunun 19-dək Şuşa şəhərinə ümumilikdə 72 298 nəfər səfər edib. Cari il aprelin 27-dən iyunun 19-dək Laçın şəhərinə səfər edənlərin sayı isə 42 670 nəfər olub.

Məlumatda qeyd edilir ki, Laçın şəhərinə giriş 2 yoxlanış-nəzarət məntəqəsi (Şuşa və Güləbird postları) vasitəsilə həyata keçirilir. Göstərilən tarixlər üzrə Şuşa postundan 5673 avtomobil ilə 15839 nəfərin, Güləbird postundan isə 9937 avtomobil ilə 26831 nəfərin keçidi təmin edilib.

Bu rəqəmlər də göstərir ki, Qarabağ və Şərqi Zəngəzur getdikcə daha çox turistin diqqətini çəkir. Bu isə heç də təsadüfi deyil. Bir çox ölkəyə səfər etmiş insanların, o cümlədən xarici qonaqlarımızın da vurğuladığı kimi, buralar dünyanın ən gözəl, ən səfalı, gəzib-görməli, çox həqiqətlərini öyrənməli yerləridir.

Qarabağın və Şərqi Zəngəzurun turizm potensialı çox zəngindir. Burada turizmin müxtəlif növlərinin - ekoturizmin, dağ, qış, ov, sağlamlıq turizmlərinin və s. inkişafı üçün geniş imkanlar mövcuddur. Təqdirəlayiq haldır ki, işğaldan azad edilmiş ərazilərimizdə turizmin inkişafı müəyyən olunmuş strategiya və konsepsiya ilə aparılır. Məsələn, Kəlbəcərdə ənənəvi turizmdən əlavə, qış və sağlamlıq turizminin inkişafı mümkündür. Mədəniyyət beşiyi Şuşada əsasən festivalların keçirilməsi, Ağdamda "dark" - işğalın nəticələrinin çılpaq şəkildə göstərilməsi və işgüzar turizm nəzərdə tutulub. Təbii ehtiyatlarla zəngin olan Qarabağ və Şərqi Zəngəzur həm də ekstremal turizm, aqroturizm, "yaşıl turizm" üçün perspektivlidir. Bütün bunlar turizmin inkişafı üçün geniş imkan yaradır. Laçın, Xocavənd, Tuğ, Hadrut, Suqovuşan…Bir sözlə, bu yerlərin hər tərəfinin özünəməxsus turizm potensialı var.

Ölkəmizin qədim tarixə malik Qarabağının və Şərqi Zəngəzurunun mədəni və dini abidələri, meşələri və dağları, bulaqları və çayları, flora və faunası, qalaları və körpüləri, mətbəxi getdikcə turistlərə daha çox gəl-gəl deyəcək. Yaxın bir neçə ildə daxili və xarici turistlər nəzərə alınmaqla bu regionların 1 milyon qonağı qəbul edəcəyi gözlənilir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Türk mütəxəssislərinin Azərbaycana gətirilməsi sənayenin inkişafına güclü təkan verə bilər

**"Bu gün Azərbaycana gəlməkdə və bu sərgidə iştirak etməkdə məqsədimiz iş adamları ilə əlaqələr qurmaq, əməkdaşlıq etməkdir".**

Bunu AZƏRTAC-a "5-ci yerli şirkətlərin tanıtım sərgisi"ndə Türkiyənin "Milad İş Dünyası" dərnəyinin baş direktoru Hüseyn Terzi bildirib.




Azərbaycanla Türkiyə arasında sənayenin inkişafina töhfə verməyin əsas missiyaları olduğunu deyən baş direktor hər iki ölkə arasında ticarət həcminin artırılmasına çalışdıqlarını qeyd edib.

"2022-2023-cü illərdə Türkiyə və Azərbaycanın ticarət həcmində 30 faiz artım müşahidə olundu. Cari ildə isə bu rəqəmin 10 milyard dollar olacağı gözlənilir. Azərbaycan və Türkiyə dövlət başçılarının son görüşlərində isə ticarət həcminin 15 milyard dollara çatdırılması kimi daha ciddi hədəflər ortaya qoyulub. Biz - türk iş adamları da Avropada və ya digər ölkələrdə yaşamağımızdan asılı olmayaraq, dil və din qardaşlarımızla, o cümlədən Azərbaycandakı qardaşlarımızla iş birliyi qurmaq, ölkə iqtisadiyyatına ciddi investisiyalar qoymaq niyyətindəyik. Bu baxımdan hesab edirəm ki, sərgi türk iş adamları və sənayeçiləri üçün gözəl imkanlar açacaq", - deyə Hüseyn Terzi vurğulayıb.

Birgə əməkdaşlıq çərçivəsində bir sıra müqavilələr imzalanacağını da əlavə edən H.Terzi son illər Azərbaycanda digər sahələrlə yanaşı sənayenin də inkişaf etdiyini söyləyib: "Türkiyədə sözügedən sahə xeyli inkişaf edib. Odur ki, Türkiyə texnologiyasının və mütəxəssislərinin Azərbaycana gətirilməsi, eyni zamanda sərmayə yatırılması çox önəmli məsələ olmaqla, sənayenin inkişafına güclü təkan verə bilər".

Coca-Cola
şirkəti Azərbaycan xalqını
26 İyun - Silahlı Qüvvələr Günü
münasibətilə
təbrik edir, əmin-amanlıq və firavan həyat arzulayır!
Bayramınız mübarək!

# 44 gündən sonrakı 4 ilin Qarabağ və Şərqi Zəngəzuru

## Müasir infrastruktur, "ağıllı yaşayış məntəqələri", Böyük qayıdış

**Müasir dünyada münaqişələr və müharibələr davam etdikcə dağıdılan şəhər və kəndlərin, mədəniyyət abidələrinin sayı da durmadan artır. Bu gün ərazilərində müharibə gedən dövlətlərin çoxu yerlə yeksan edilmiş şəhərlərin bərpası ilə məşğul olmağa çalışır, bunun üçün əlavə vəsaitlər axtarırlar. Müxtəlif ölkələrdə bu istiqamətdə müəyyən işlər görülür, mövcud dünya təcrübəsi tətbiq edilir.**



Müharibələrin bitdiyi regionlarda bərpa işləri həqiqətən də ən aktual məsələyə çevrilmişdir. Məsələn, Suriyada Dəməşqin və ən çox dağıntılara məruz qalan, ölkənin ən böyük şəhəri sayılan Alepponun bərpasına start verilmişdir. Burada əsas ərazilərin modellərinin bərpa edilməsinə cəhdlər edilir. Əslində, bu elə bir yenilik də deyil. Belə ki, müharibədən sonrakı şəhərlərin bərpası üçün ərazilərin bərpa modelləri, şəhərlərin bərpası konsepsiyaları düşünülür, əhalinin milli və regional əlamətlərə uyğun yerləşdirilməsi üçün "komanda mərkəzləri" yaradılır. Bu da öz növbəsində bərpa işlərini milli xüsusiyyətlərə uyğun aparmağa imkan verir. Suriyanın şəhərlərinin bərpasının ilkin addımları belədir ki, ilk öncə az dağılmış ərazilərin bərpasına üstünlük verilir, təmizlənmiş ərazilərdə yeni binalar qaldırılır, az ziyan görmüş tikililər bərpa edilir. Bir sözlə, əvvəlcə şəhərlərin tarixi mərkəzlərinin bərpasına üstünlük verilir. Amma aydın görünəni odur ki, viran qoyulmuş şəhərlərin və iri yaşayış məntəqələrinin sürətli bərpası mümkün deyil. Bu gün nisbətən qəbul olunan və geniş tətbiq edilən bərpa modellərindən biri də alman bərpa modelidir. Bu ölkədə hələ də şəhərlərin müharibədən əvvəlki görkəminin bərpası davam edir.

Müharibələr isə bu gün də Ukrayna və Fələstin ərazilərində davam edir, başqa münaqişə ocaqları da kifayət qədərdir. Bir sözlə, acı reallıq belədir ki, saysız müharibələrin və ağır münaqişələrin fonunda dağılan şəhərlərin sürətli bərpasını təmin etmək mümkün deyil.

Əgər İkinci Dünya müharibəsindən sonrakı dövrə nəzər salsaq, onu xatırlaya bilərik ki, müvəqqəti yaşayış üçün tikilən baraklar uzun illər insanların daimi yaşayış yerlərinə çevrilmişdi. İndi o zamankı kimi şəhərləri bir-birinə bənzəyən qutular kimi bərpa etmək mümkün deyil. Bütün şəhərlər fərdi yanaşmalarla ucaldılmalıdır. Hər bir yaşayış məntəqəsinin fərdi keyfiyyətlərini nəzərə almaq lazımdır. Məsələn, müharibədən sonra Odessada tarixi binaları balkonlar əcaib bir tərzdə göbələk kimi əhatəyə aldı. Bu şəhər möhtəşəm gözəlliyinin bir qismini itirdi.

Şəhərlərin müasir bərpası onu tələb edir ki, böyük yaşayış məntəqələrinin yerlə yeksan edilmiş görkəmləri özlərinə qaytarılsın. İkinci Dünya müharibəsindən sonra davam edən bərpa işlərinə nəzər salsaq, onu görəcəyik ki, Avropa şəhərlərinə sağalmaz yaralar vurulmuşdur. Böyük və qədim şəhərlər bəzi əcaib bərpa işləri ilə bundan sonra da insanları diksindirəcək. Müttəfiqlər Almaniyanı öz aralarında bölərkən tarixi abidələrə elə divan tutdular ki, heç bir ağıllı adam bu addımı özünə rəva bilməzdi! Bu gün isə Mariopol artıq Ukraynanın Drezdeninə çevrilmişdir.

İkinci Dünya müharibəsində Almaniyada bütün nəhəng sənaye mərkəzləri darmadağın edildi. Xalçavari bombardman altında bu ölkənin yüzlərlə şəhəri yerlə yeksan oldu. O cümlədən Drezden, Berlin, Münxen, Nürnberq kimi şəhərlər darmadağın edildi.

Bu gün Ukrayna da Almaniya kimi məhv edilən şəhərləri bərpa etməkdə hələ ki, acizdir. Ukraynada da bir sıra şəhərlər artıq yenidən tikilməlidir. Amma etiraf etmək lazımdır ki, bu şəhərlərin əvvəlki görkəmlərini geriyə qaytarmaq ümumiyyətlə, ağlabatan iş deyil. Sadə reallıq odur ki, bu gün müharibə gedən ərazilərdə şəhərlərin və qəsəbələrin bərpası yada da düşmür. Çünkü bu, düşünüldüyü qədər asan məsələ deyil.

Əlbəttə, müharibənin, işğalın dağıtdığı şəhərlərdən söz düşəndə mütləq Azərbaycandan danışmaq lazımdır. İşğal edilmiş ərazilərimizin hamısında erməni faşistləri 30 il yandırılımış torpaq taktikasını tətbiq etdilər. Bütün şəhərləri, qəsəbələri, kəndləri viran qoydular. Bütün məşhur abidələrin, hətta adi binaların belə hamısını son daşınadək görünməmiş bir vəhşiliklə dağıdıb daşıdılar və satdılar. Məqsədləri bu idi ki, heç kim yaşamağa bu yerlərə geri dönməsin. Amma yanıldılar, bizim hansı iradəyə və hansı gücə sahib olduğumuzu anlamadılar.

Biz geriyə möhtəşəm qələbə ilə döndük, misilsiz quruculuq işlərinə start verdik. Bizə heç kim kömək etmir, demokratiyadan, insan haqlarından danışmaqdan yorulmayan dövlətlər nəinki bir şəhəri, qəsəbəni, hətta bir evin belə bərpasını öhdələrinə götürmədilər!

Amma müharibə bitən kimi Azərbaycan özü bütün Qarabağı misli görünməmiş nəhəng tikinti meydançasına çevirdi. Belə möhtəşəm bərpa nümunəsinə dünyanın heç bir ölkəsində rast gəlmək mümkün deyil.

Vaxtilə alman nasistləri düşməni tam ruhdan salmaq üçün total dağıntı taktikasından istifadə edirdilər. Bütün şəhərləri yerli-dibli darmadağın etməklə insanları vahiməyə salırdılar ki, kimsə geri qayıtmasın. Emənilər də bu faşist taktikasını Qarabağda tətbiq etməklə çalışırdılar ki, kimsə geri dönməsin. Amma məğlubiyyətin uçurumlarına yıxıldıqdan sonra bütün acizliklərini anladılar.

İkinci Dünya müharibəsindən sonra Avropada bərpa işlərinin aparılması üçün təşkilatlar və yerli komitələr yaradılmışdı, investisiyalar cəlb edilirdi. Hətta Londonun bərpasına Amerika və ümumi Avropa fondlarından vəsaitlər toplanırdı. Görünür, Ukraynanın da bərpasında həmrəylik nümayiş etdiriləcək. Amma təəssüf ki, aparıcı dövlətləri və supergücləri Qarabağın bərpasında irəli çıxan görmədik.

Azərbaycan dövləti dünyada bənzərinə rast gəlinməyən qüdrətlə ərazilərinin bərpasına öz gücü ilə start verdi və ağlasığmaz uğurlara imza atdı. Ermənistan isə yenidən Fransadan silah daşımağa cəhdlər edir, yenidən savaş ritorikasına iməkləyir. Görünür, daha ağır uçurumlara yıxılmaq ehtimalını dərk etmir.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!



# Qürur və güvənc yerimiz

**Dünya təcrübəsi göstərir ki, dövlətin qüdrətini artıran şərtlər sırasında iqtisadi yüksəliş və güclü ordu daha böyük əhəmiyyətə malikdir. Bu gün hamımız qürur və iftixarla deyə bilərik ki, ölkəmiz həm iqtisadi sahədə yüksəliş əldə edib, həm də ordu quruculuğu prosesində çox böyük uğurlar qazanıb.**

Zəfərləri ilə daim qürur duyduğumuz Azərbaycan Silahlı Qüvvələrinin yaranmasından 106 il keçir. Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın dövlətçilik tarixində özünəməxsus rolu və miras qoyduğu yeni milli dəyərləri ilə tarixləşdi. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ilk müntəzəm hərbi hissə - Əlahiddə Azərbaycan Korpusu yaradıldı. Hökumət tərəfindən qarşıya 25 min nəfərlik ordu yaratmaq vəzifəsi qoyuldu. Həmin il avqustun 1-də Azərbaycanın Hərb Nazirliyi təsis olundu. İlk nazir Xosrov bəy Sultanov təyin edildi. Sonra - dekabrın 25-də general Səməd bəy Mehmandarov hərb naziri, general-leytenant Əliağa Şıxlinski nazir müavini təyin olundular.

1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra bolşevik hökuməti Milli Ordunu ləğv etdi. Onun rəhbərlərinin əksəriyyəti, o cümlədən 15 general Nargin adasında güllələndi, bir çox vətənpərvər hərbçi repressiyaya məruz qaldılar. Azərbaycanın yeni ordusunun yaradılmasına 1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra başlandı. Həmin il oktyabrın 9-da Milli Ordunun yaradılması haqqında Azərbaycan Respublikasının Ali Soveti qanun qəbul etdi.

Lakin müstəqilliyin ilk illərində ölkəmizə rəhbərlik edənlər Ermənistanın torpaqlarımızı işğal etdiyi bir vaxtda ordu quruculuğu kimi vacib və məsuliyyətli vəzifənin öhdəsindən gələ bilmədilər. Bundan istifadə edən düşmənin torpaqlarımıza təcavüzü getdikcə daha geniş miqyas aldı. Azərbaycan müstəqilliyin itirilməsi təhlükəsi ilə üz-üzə qaldı.

Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra həm Prezident, həm də Ali Baş Komandan olaraq, ordunun qüdrətli olmasına böyük diqqət yönəltdi. Ordu dövlətin gündəlik qayğısı ilə əhatə olundu, bu istiqamətdə dövlətin bütün orqanlarının cavabdehliyi artırıldı. Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanına əsasən, 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan edildi.

Müstəqil Azərbaycanda ordu quruculuğu prosesi Prezident İlham Əliyevin hakimiyyəti dövründə keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam etdirən və daha da zənginləşdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Silahlı Qüvvələrimizin müasir silah və texnika ilə təchizatı istiqamətində davamlı və uğurlu addımlar atıldı. Bunun sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddət ərzində Cənubi Qafqazın ən güclü ordusuna çevrildi.

Beynəlxalq ictimaiyyət Azərbaycan Ordusunun gücünü, qüdrətini 2016-cı ilin aprelində gördü. Ermənistan ordusunun təxribatlarına cavab verən əsgər və zabitlərimiz sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğratdı. Qazanılan qələbə nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı xeyli ərazisi azad olundu. Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza ilk qələbə sevincini yaşatdı.

2020-ci il sentyabrın 27-də erməni təxribatı nəticəsində başlayan İkinci Qarabağ müharibəsində Silahlı Qüvvələrimizin qazandığı şanlı Qələbə hərb tariximizə qızıl hərflərlə həkk olundu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr vuraraq 44 gün ərzində 5 şəhər, 4 qəsəbə və 300-dək kəndi erməni qəsbkarlarından azad etdi. Azərbaycanın illərdən bəri pozulan ərazi bütövlüyü bərpa olundu.

Dövlətimizin başçısı 2021-ci il iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə İkinci Qarabağ müharibəsində qazanılan uğurlardan danışarkən demişdir: "Hər il bu bayramı qeyd edərkən biz özümüzə söz verirdik ki, nəyin bahasına olursa-olsun, doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik. Bu gün qürur hissi ilə deyə bilərəm ki, biz Silahlı Qüvvələr Gününü müzəffər Ordu kimi, qalib xalq kimi qeyd edirik. Bu, tarixi nailiyyətdir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Zəfər olmamışdır. Biz bütün gücümüzü səfərbər edərək düşmənə sarsıdıcı zərbələr endirib, düşməni məğlub etdik, tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etdik".

Təbiidir ki, Azərbaycan xalqının, dövlətinin və ordusunun sarsılmaz birliyi nəticəsində qazanılmış bu şanlı qələbə uzun illər ordu quruculuğu istiqamətində aparılan islahatların nəticəsidir. Azərbaycanın qazandığı bu qələbə nəyi, necə və nə zaman etməyi gözəl bilən Müzəffər Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasətinin, güclü iradəsinin və sarsılmaz qətiyyətinin nəticəsidir.

Hər bir xalqın xilaskar ordusu, qəhrəman silahlı qüvvələri ilə öyünməyə, qürur duymağa mənəvi haqqı var. Azərbaycan xalqı da doğma ordusu ilə öyünüb fəxr edir. Modernləşdirilən, ən müasir texnika ilə təmin olunan Azərbaycan Ordusunun gücü, qüdrəti bu gün beynəlxalq səviyyədə də etiraf edilir. Silahlı Qüvvələrimiz indi dünyanın güclü orduları sırasındadır. Bu isə o deməkdir ki, vətənimiz də, dincliyimiz və əmin-amanlığımız da etibarlı qorunur.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

● Tarix yazan oğullar

# Təsəllimiz var

## Şəhid qardaşımın qanı yerdə qalmayıb



**Qardaşım Ələkbər Ramiz oğlu Hacıyev 1969-cu il oktyabrın 25-də Bakıda dünyaya gəlmişdi. Atamız tikintidə usta işləyirdi, anamız isə evdar qadın idi. Biz iki qardaş, bir bacı idik.**

Ələkbər ailəmizin ortancıl övladı idi. O, 1984-cü ildə Bakıdakı 20 saylı orta məktəbi bitirmiş, 1984-1986-cı illərdə 68 saylı peşə məktəbində aşpaz ixtisasına yiyələnmişdi.

Valideynlərimiz bizə tərbiyəli, dürüst, mehriban, zəhmətsevər olmağı öyrədirdilər. Ələkbəri də bu keyfiyyətlərinə görə müəllimləri çox sevirdilər. Çox qayğıkeş, əliaçıq, hörmətcil, istiqanlı idi Ələkbər. Kişilik, mərdlik məktəbi bildiyi əsgərlik illərini səbirsizliklə gözləyirdi. Nəhayət, 1987-ci ildə hərbi xidmətə yollandı. Rusiyanın Leninqrad (indiki Sankt-Peterburq) bölgəsinin Lodeynoye Pole şəhərində keçmiş sovet ordusu sıralarında xidmət etdi. 1989-cu ildə həqiqi hərbi xidmətini başa vurub vətənə döndü və İçərişəhərdəki "Karvansara" restoranında işə düzəldi.

Ürəyi arzularla dolu, həyatsevər gənc idi. Gələcəklə bağlı gözəl xəyalları, çoxlu planları vardı. Ancaq 1980-ci illərin sonları, 1990-cı illərin əvvəllərində Azərbaycanda baş verən hadisələr onun da həyatını başqa bir məcraya yönəltdi. Azərbaycan xalqı 1990-cı ildə 20 Yanvar faciəsi ilə üzləşdi. Vətənimizin bir parçası olan Qarabağı erməni daşnakları münaqişə alovlarına bürüdülər. Erməni vandallarının törətdikləri vəhşiliklər gənc Ələkbəri də sarsıdır, hiddət və mübarizə əzmini günbəgün artırırdı.

İşğalçı Ermənistan silahlı qüvvələrinin respublikamızın ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı Azərbaycan Respublikasının ozamankı Prezidenti Heydər Əliyevin 1993-cü il noyabr 2-də milli televiziya və radio ilə xalqa müraciətindən təsirlənən Ələkbər hərbi komissarlığa müraciət etdi və könüllü olaraq müharibəyə yollandı.

O, 1993-cü ilin noyabrından 1994-cü ilin aprelinə qədər Ağdamın Baş Qərvənd, İlxıçılar, Güllücə, Tağıbəyli kəndləri uğrunda gedən döyüşlərdə iştirak etdi. 1994-cü il aprelin 24-də Tağıbəyli kəndində baş nahiyəsindən aldığı qəlpədən şəhid oldu. Döyüş mövqeyindən çıxarılması mümkün olmadığı üçün şəhid Ələkbərin nəşinin yerini indiyədək bilmirik.

Ələkbər kimi igid oğulların uğrunda canlarından keçdikləri ərazilərimizi 2020-ci ilin payızında, İkinci Qarabağ müharibəsində qəhrəman Azərbaycan Ordusu işğaldan azad etdi. Möhtəşəm qələbəmiz bizi ikiqat sevindirdi və qürurlandırdı. Birinci Qarabağ müharibəsinin bütün şəhidləri kimi qardaşım Ələkbərin də qanı yerdə qalmadı. Biz nəhayət ki, qalib dövlətin məğrur vətəndaşlarıyıq. Çox ümid edirik ki, dövlətimizin gücü və qüdrəti sayəsində şəhid qardaşım Ələkbər Ramiz oğlu Hacıyevin də nəşi işğaldan azad olunmuş ərazilərdən tapılıb bizə təhvil veriləcək.

Onu da qeyd edim ki, Bakının Badamdar qəsəbəsindəki "Səbail şəhidləri" abidə kompleksində qardaşımın da şəkli həkk olunub. Bu, bizim təsəlli ünvanımızdır.

*Səadət HACIYEVA, AMEA Mərkəzi Elmi Kitabxanasının baş biblioqrafı*

# Özbəkistanda Azərbaycan Silahlı Qüvvələrinin ildönümü keçirilib

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzindən bildirilib ki, tədbirdə əvvəlcə Azərbaycan və Özbəkistanın Dövlət himnləri səsləndirilib.**



Azərbaycanın Özbəkistandakı Hərbi Attaşelik Aparatının rəhbəri, polkovnik Samir Əfəndiyev qəbula toplaşanları salamlayaraq bildirib ki, 26 İyun Azərbaycan tarixinin əlamətdar səhifələrindən biri - Milli Ordunun yarandığı gündür. Məhz 106 il əvvəl Azərbaycan Ordusunun yaranması milli dövlətçilik tarixinin mühüm mərhələlərindən biri kimi tarixə düşüb. Müstəqil Azərbaycan Ordusunun inkişaf edərək yeni mərhələyə qədəm qoyması məhz xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin adları ilə bağlıdır.

Hərbi Attaşelik Aparatının rəhbəri bildirib ki, hazırkı dövrdə Azərbaycan dövləti milli və dövlət maraqları naminə beynəlxalq hərbi əməkdaşlığı uğurla davam etdirir. Dünyanın hərbi analitik mərkəzləri 44 günlük Vətən müharibəsində Azərbaycan hərbi qüvvələrinin qələbəsini təhlil edir, bir çox ölkənin hərbi idarələri ordumuzun təcrübəsindən özləri üçün örnək götürürlər.

Polkovnik S.Əfəndiyev qeyd edib ki, Azərbaycan Respublikası beynəlxalq standartlara uyğun olaraq hərbi infrastrukturun inkişafına hərbi potensialın möhkəmlənməsinin əsas şərti kimi baxır, aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla ikitərəfli, üçtərəfli və çoxtərəfli hərbi əməkdaşlığa böyük önəm verir.

O bildirib ki, Qarabağ məsələsinin həlli istiqamətində Özbəkistan həmişə Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib və bunun üçün biz Özbəkistanın rəhbərlərinə minnətdarlıq edirik.

Tədbirin bədii hissəsində Özbəkistanda tanınan müğənni, soydaşımız Rəna Əzizova bəstəkar və xalq mahnılarını, İlham Abdullayev sazda qədim el havalarını, Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin "Azərbaycan" ansamblının üzvləri milli rəqslərimizi ifa ediblər.

● Ölməzliyə qovuşanlar

# Vəsiyyətinə əməl edilib

## Ailəsinə verilən sığorta ödənişi hesabına doğulduğu kəndin yolu asfaltlanıb

**Nəcməddin Natiq oğlu Quliyev 1998-ci il dekabrın 21-də Cəlilabad rayonunun Cünzəli kəndində anadan olub. O, 19 sentyabr 2023-cü ildə Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatları zamanı şəhidlik zirvəsinə ucalıb və doğulduğu kənddə torpağa tapşırılıb.**

Nəcməddin Quliyev döyüşlərdə göstərdiyi igidliyə görə ölümündən sonra Ali Baş Komandan İlham Əliyevin sərəncamlarına əsasən, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub.

Nəcməddin Quliyev hələ sağlığında şəhid olacağı halda ailəsinə veriləcək 11 min manata Cünzəli kəndinin yollarına asfalt çəkilməsini vəsiyyət etmişdi. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi tərəfindən şəhidin vəsiyyəti yerinə yetirilib və Cəlilabad rayonunun Cünzəli kəndinin yolları asfaltlaşdırılıb.

Gizir Nəcməddin Quliyevin vətəndaş mövqeyi, böyük igidliyi, şəhid olduğu halda vəsiyyət etdiyi sözlər Azərbaycanı sevən insanları çox kövrəltmişdi. Onlardan biri də qocaman müəllim, heykəltaraş Eldar Həsənovdur. Qəhrəman gizirin vəsiyyəti ona çox təsir etmişdi. Heykəltaraş qısa zamanda şəhidimizin heykəlini yaratdı. Ona bu işdə tələbəsi Əliyar Allahverdiyev və gənc memar Nigar Cəbrayılova kömək etdilər.

Bir heykəltaraş kimi böyük təcrübə və istedada malik olan Eldar Həsənov hazırda təqaüdçü olmasına baxmayaraq, yaradıcılıq fəaliyyətini davam etdirir. Ərsəyə gətirdiyi çoxsaylı plastika nümunələri içərisində Nəcməddin Quliyevin büstünü heykəltaraşın mühüm yaradıcılıq nailiyyəti hesab etmək olar.

Büst hər cür süni təmtəraqdan uzaqdır. Heykəltaraş əsərində qəhrəmanın sadəlik və nikbinlik kimi keyfiyyətlərini üzə çıxarmağı bacarmışdır. O, təsvir etdiyi obrazın zahiri bənzəyişini olduqca dəqiq vermiş, eyni zamanda gizirin fəaliyyətini ümumiləşdirən cizgilər tapmışdır. Şəhidin geniş, ağıllı alnı, eləcə də üzünün digər cizgiləri olduqca real əks olunub.




Bu büstü heykəltaraş öz vəsaiti hesabına hazırlamış və şəhidin ailəsinə bağışlamışdır. Hazırda büst şəhidin çəkdirdiyi asfalt yolun kənarında - oxuduğu məktəbin yaxınlığında qoyulub. Cünzəli kəndinin sakinləri və qonaqları hər gün şəhidimiz ilə görüşür və ona rəhmət oxuyurlar.

Sonda arzu edərdim ki, gizir Nəcməddin Quliyev kimi Vətən torpaqlarının azadlığı uğrunda şəhid olmuş igidlərimizin və digər qəhrəmanlarımızın da obrazı əbədiləşdirilsin - onların hər birinə həsr olunmuş heykəl və ya büst yaradılsın və yeni nəslin nümayəndələri şəhidlərimizi öz yaddaşlarında, ürək və qəlblərində əbədi yaşatsınlar, böyük minnətdarlıqla yad etsinlər.

*Həşim PAŞAYEV, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

# Vətən müharibəsi şəhidinin xatirəsi yad olunmuşdur

**Samux rayonunun Lək kəndindən olan Vətən müharibəsi şəhidi Həmzəyev Arif Muradcan oğlunun xatirəsi doğum günündə yad edilmişdir.**



Tədbirdə Samux Rayon İcra Hakimiyyətinin əməkdaşları, şəhidin valideynləri, qazilər, müharibə iştirakçıları, ictimaiyyət nümayəndələri iştirak etmişlər. Diqqətə çatdırılmışdır ki, Arif Həmzəyev Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin azad olunmasında igidliklər göstərmiş və bu döyüşlərin birində qəhrəmancasına şəhid olmuşdur. O, doğulub boya-başa çatdığı kənddə torpağa tapşırılmışdır. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında fəal iştirak etdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

# Şəhid ailələrinin müraciət və təklifləri dinlənilmişdir

**Ağstafa Rayon İcra Hakimiyyətində şəhid ailələrinin müraciətlərini və təkliflərini dinləmək üçün görüş keçirilmişdir.**

Rayon icra hakimiyyətinin və hüquq-mühafizə orqanları rəhbərlərinin iştirak etdikləri görüşdən əvvəl Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.

Görüşdə rayon icra hakimiyyətinin başçısı Seymur Orucov, rayon prokuroru Anar Cəfərov, Polis şöbəsinin rəisi Vüqar Xəlilov çıxış edərək ölkəmizdə şəhid ailələrinə, müharibə veteranlarına və qazilərə göstərilən yüksək qayğıdan danışmışlar. Diqqətə çatdırmışlar ki, dövlət başçısı həssas təbəqədən olan şəhid ailələrinin problemlərinin həllini bütün qurumların qarşısında vacib vəzifə olaraq qoymuşdur.



Sonra söz şəhid ailələrinin üzvlərinə verilmişdir. Çıxış edən Azər Abbasov, Aydın Mehdizadə, Zeynəb Sadıqova, Afət Namazova, Nazim Yusifov, Nizami Yolçuyev, Bayram Ələkbərov, Yasəmən Qurbanova, Xatirə Əlizadə, İlqar Quliyev, Aybəniz Əhmədova və Nəcmiyyə Sədizadə müharibə əlilləri və şəhid ailələrinin mənzil və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən, eləcə də bu kateqoriyadan olan insanların avtomobillərlə təmin olunmasından söz açmış, buna görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

*S.ƏLİYEV, "Azərbaycan"*

# GDU-da yaz semestr imtahanlarına ictimai baxış olmuşdur



**Gəncə Dövlət Universitetində (GDU) yaz semestr imtahanlarına ictimai baxış keçirilmişdir.**

Mediaturda universitetin humanitar məsələlər üzrə prorektoru Gülsüm Fətəliyeva, tədris məsələləri üzrə prorektor Şahin Xurşudov, elm və innovasiyalar üzrə prorektor, Milli Məclisin deputatı Pərvin Kərimzadə GDU-nun fəaliyyəti və son zamanlar qazandığı uğurlar barədə ətraflı məlumat verərək diqqətə çatdırmışlar ki, ali təhsil ocağında tədris müasir innovativ təlim texnologiyaları əsasında qurulur, yüksəkixtisaslı kadr hazırlığı daim diqqət mərkəzində saxlanılmaqla beynəlxalq akademik əlaqələr və ölkədaxili əməkdaşlıq daha da inkişaf etdirilir. O da vurğulanmışdır ki, dünya universitetlərinin reytinqinin əks olunduğu cədvəldə yer alan GDU-nun nüfuzu ilbəil yüksəlir. Ən nüfuzlu reytinq təşkilatlarından olan "Times Higher Education" (THE) tərəfindən keçirilən "THE Impact Ranking" və "Round University Ranking"in 2024-cü il üçün reytinqinin nəticələri onu göstərir ki, Gəncə Dövlət Universiteti potensialını gündən-günə artırır.

Sonra mediatur iştirakçıları ayrı-ayrı auditoriyalarda imtahan prosesi ilə tanış olmuş və müasir kameralar vasitəsilə imtahanların gedişini izləmək üçün yaradılan müşahidə otağına baş çəkmişlər. İmtahanların gedişi və təşkili ilə bağlı fikirlərini bölüşən müşahidəçilər tələbələrin bilik və bacarıqlarını nümayiş etdirməsi üçün yaradılan şəraiti yüksək qiymətləndirmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***


# "Bakı Abadlıq Xidməti" MMC



*Azərbaycan xalqını*

**26 İyun - Silahlı Qüvvələr Günü**

*münasibətilə təbrik edir, qüdrətli Azərbaycan Ordusuna uğurlar arzulayır!*




# Avro-2024





## "Ronaldudan qorxmuram"

**Gürcüstan millisinin yarımmüdafiəçisi Zuriko Davitaşvili "Avro-2024"ün 3-cü turunun Portuqaliya ilə oyunu haqda fikirlərini bildirib.**



Fransa "Bordo"sunda çıxış edən vinger rəqibin kapitanı Kriştiano Ronaldudan çəkinmədiyini deyib: "Ronalduya qarşı oynamaq xoş olacaq. Ondan qorxmuram, sona qədər döyüşəcəyik. Oyunu səbirsizliklə gözləyirəm. Bu cür komandalara qarşı bacarığımızı göstərmək istəyirik".

Qeyd edək ki, Gürcüstanla Portuqaliya arasında oyun bu gün - iyunun 26-da keçiriləcək. Hazırda F qrupunda Portuqaliya pley-offa vəsiqəni təmin edib. Gürcüstan yığması isə bir xalla sonuncu sıradadır.

## "Azarkeşlərə görə məyusam"



Xorvatiya millisinin baş məşqçisi Zlatko Daliç "Avro-2024"ün qrup mərhələsinin 3-cü turunda İtaliya ilə oyundan (1:1) sonra fikirlərini bildirib. O deyib: "Xorvatiyalı futbolçular yaxşı oynadı, xüsusilə də birinci hissədə. Albaniyaya qarşı matçda olduğu kimi son dəqiqədə qol buraxdıq. Mən ancaq futbolçuları bu mübarizə münasibətilə təbrik edə bilərəm. Bizi dəstəkləyən azarkeşlərə təşəkkür edirəm, ən çox onlara görə məyusam".

Mütəxəssis pley-offa yüksəlmək şansları ilə bağlı vurğulayıb: "Pley-offa çıxmaq şansınız varmı? Biz buna təsir edə bilmərik, hər şey öz əlimizdə idi".

**D qrupu, 3-cü tur**

**Niderland - Avstriya - 2:3**

**Qollar:** Kodi Qapko 47, Memfis, Depay 78, Doniell Malen 6 (öz qapısına). Romano Şmid 59, Sabitzer 80.

**Baş hakim:** İvan Krujlyak (Slovakiya)

**Berlin Olimpiya Stadionu**

# SÜRPRİZ

## Avstriya D qrupunu lider başa vurdu

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **1** | **Avstriya** | **3** | **2** | **0** | **1** | **6-4** | **6** |
| **2** | **Fransa** | **3** | **1** | **2** | **0** | **2-1** | **5** |
| 3 | Niderland | 3 | 1 | 1 | 1 | 4-4 | 4 |
| 4 | Polşa | 3 | 0 | 1 | 2 | 3-6 | 1 |

**Dünən D qrupunda mübarizəyə yekun vuruldu. Qrupda hər iki qarşılaşma eyni vaxtda başladı. Günün daha maraq doğuran matçı Niderland və Avstriya komandaları arasında oynanıldı.**



Ümumiyyətlə, qarşılaşmaya sürətli başlayan tərəf Avstriya oldu. Xüsusilə mərkəzdə tətbiq etdikləri pressinq Niderland futbolçularına sürətli oynamağa imkan vermədi. İkinci fazada oyun planı uğurlu alınmadı. Avstriya cinahlara sürətli ötürmələrlə rəqib qapısı qarşısında bir neçə dəfə qol epizodu yaratmağı bacardı ki, bunlardan biri qol oldu.

Matçın son 20 dəqiqəsində Niderland toplu və topsuz oyunlarda üstünlüyü ələ keçirdi. Hücumlar zamanı geri dönən toplara da sahib olan Kumanın komandası bütün cəhdlərə baxmayaraq, hesabda tarazlığı bərpa edə bilmədi. Nəticədə Avstriya rəqibini xüsusilə ikinci hissədə bütün komponentlərdə üstələyərək çətinliklə olsa qalib gəlməyi bacararaq qrupu lider başa vurub.

Qeyd edək ki, Niderland millisini böyük turnirlərin böyük uğursuzu saymaq olar. Komanda final və yarımfinaldakı məğlubiyyət sayı ilə belə imici formalaşdırıb. Mundiallarda üç final oynayan yığma iki dəfə yarımfinalda dayanıb. Sayca 11-ci dəfə Avropa çempionatına qatılan komanda 5 dəfə yarımfinal oynayıb. 1988-ci ildə Niderland çempionluq yaşayıb.

Avstriya millisi isə ardıcıl 3-cü, tarixində 4-cü dəfə Avropa çempionatının final mərhələsində mübarizə aparır. Buna kimi iki dəfə qrupda qalan yığmanın ən yaxşı nəticəsi "Avro-2020"də qeydə alınıb. 1/8 finala qədər irəliləyən avstriyalılar bundan artığına nail olmayıblar. Marsel Sabitzer, Arnautoviç, Mihael Qreqoriş kimi çox sayda ulduzlara malik yığmadan azarkeşləri cari çempionatda uğurlu nəticə gözləyir.

D qrupunun digər oyununda isə Fransa millisi iddiasız Polşa kollektivi ilə üz-üzə gəlib. Görüş heç-heçə başa çatıb-1:1.

Qeyd edək ki, Fransanın son iki dünya çempionatının finalında oynaması yığmanın əzəmətindən xəbər verir. DÇ-2018-in qalibi və DÇ-2022-nin qızılını penaltilər seriyasında əldən verən Deşamın komandası Avropada da uğur qazanmaq əzmindədir. Avropada Fransa hər 16 ildən bir finalda oynayır. 1984-cü və 2000-ci illərin çempionu 2016-cı ildə finalda uduzub. Sayca 11-ci dəfə final mərhələsində oynayan "üçrənglilər" üçüncü çempionluq arzusundadır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Spaletti futbolçulara xəbərdarlıq etdi

**"Matçlar bu şəkildə başa çatdıqda daha maraqlı olur. Artıq heç kim qol vuracağımıza inanmırdı. Amma oyunçular az riskə getdilər. Onları etdiklərinə görə təbrik etməliyik".**



Bu sözləri İtaliya millisinin baş məşqçisi Luçano Spaletti Xorvatiya ilə oyundan (1:1) sonra deyib. Mütəxəssis daha sonra bildirib: "İlk hissədə lazımi səviyyədə oynamadıq. Futbolçularımdan daha çox şey gözləyirəm. Biz bu balansı tapmalıyıq. Belə matçlarda oynamağa qadir futbolçularımız var. Amma çox mənasız səhvlərə yol veririk. Biz daha çox iş görməliyik".

## Günün təqvimi

**26 iyun, 3-cü tur**

**E qrupu: 20:00. Slovakiya - Rumıniya**

**E qrupu: 20:00. Ukrayna - Belçika**

**F qrupu: 23:00. Gürcüstan - Portuqaliya**

**F qrupu: 23:00. Çexiya - Türkiyə**

## Ötən günün nəticələri

**D qrupu: Niderland - Avstriya 2:3**

**D qrupu: Fransa - Polşa 1:1**

**C qrupu: İngiltərə - Sloveniya 0:0**

**C qrupu: Danimarka - Serbiya 0:0**

## Fuentə rəqib tanımır

**"Hər oyun çox gərgin keçir və bizim gördüyümüz iş, həqiqətən, çətin idi. Hər üç oyunda qalib gəldik və qapımızdan qol buraxmadıq".**



Bu sözləri İspaniya millisinin baş məşqçisi Luis de la Fuente Albaniyaya 1:0 hesabı ilə qalib gəldikləri oyundan sonra deyib. O, növbəti mərhələdə hər rəqiblə oynamağa hazır olduqlarını vurğulayıb: "1/8 finalda kiminlə qarşılaşacağımızı bilmək üçün gözləməliyik. Amma mental olaraq istənilən rəqiblə oynamağa hazır olacağıq. Avropanın 16 ən yaxşı komandası növbəti mərhələyə yüksələcək. Ona görə də favorit olmağımıza əhəmiyyət vermirəm. Bu gün zirvədə ola bilərsən, amma sabah heç bir şey ola bilməzsən. Gəlin, futbolçulara əlavə təzyiq göstərməyək".

# Azərbaycan ailə modelini necə qorumalıyıq?




**İllərin sınağından adlayaraq bu günümüzə gələn və möhkəm təməllərə sahib olan Azərbaycan ailə modeli dünyada da təqdir olunur. Amma son dövrlər ailə modelimizdə müəyyən problemlərin yarandığı və artdığı da danılmaz həqiqətdir. Bu mənfi tendensiyanı boşanma statistikalarının getdikcə artmasından, yeni yetişən nəsillərin bir çox hallarda milli-mənəvi dəyərlərdən uzaq düşərək ailə modelimizdən üz çevirməsindən də müşahidə etmək mümkündür.**

İndiyə qədər Azərbaycan ailə institutunun problemləri ilə bağlı xeyli sayda jurnalist araşdırmaları olub. Amma təəssüf ki, bu sahədə elmi araşdırmalar yox deyiləcək qədər azdır.

Bu baxımdan Hüquq və İnsan Haqları İnstitutunun hüquq tədqiqatçısı, hüquq elmləri doktoru, dosent Səidə Həsənzadənin müəllifi olduğu "Ailələgiya" kitabı sözügedən sahəyə elmi cəhətdən işıq tutan əhəmiyyətli monoqrafiya kimi diqqət cəlb edir.

Kitabın müəllifi də monoqrafiyada vurğulayır ki, dünyəvi problemlər içərisində, geniş mənada "ailə"nin ən müxtəlif elmlərin köməyi ilə mükəmməl öyrənilməsi artıq zamanın tələblərindən birinə çevrilmişdir. Bu mənada ailənin kompleks öyrənilməsi "Ailəlogiya" elminin əsas predmetini təşkil edir və təqdim olunan monoqrafiya bu sahədə atılan ilk addım olaraq cəmiyyətin marağına səbəb olacaqdır.

"Ailəlogiya müasir elm sahəsi kimi", "Azərbaycanda ailənin və nikahın hüquqi statusu", "Azərbaycan ailəsinin sosial-siyasi və hüquq mahiyyəti", "Azərbaycan ailəsinin strukturunda təmsil olunan subyektlərin statusu" adlı fəsillərdən ibarət "Ailəlogiya" kitabında ailənin öyrənilməsinin, tədqiqinin zəruriliyi önə çəkilir.

Kitabın giriş hissəsində hüquq elmləri doktoru Səidə Həsənzadə yazır ki, apardıqları sosioloji və hüquqi təhlillər birmənalı şəkildə təsdiq edir ki, bir institut olaraq ailənin, öz ictimai-siyasi, sosial və hüquqi əhəmiyyətinə, strukturuna, funksiyalarına, cəmiyyətin inkişafının əsas tendensiyalarının müəyyən edilməsinə, bugünkü müasir inkişafına görə öyrənilməsi və tədqiqi ən aktual problemlərdən birinə çevrilmişdir: "Ailə - qadın və kişi birliyinin təşkilati-hüquqi əsası kimi bioloji, sosial, iqtisadi, hüquqi, mənəvi, əxlaqi, siyasi və beynəlxalq mahiyyət daşıyır və buna görə də hər bir konkret halda ailənin kompleks elmi tədqiqatların nəticəsi olaraq öyrənilməsi zəruri, müasir və aktualdır".

Monoqrafiyada bildirilir ki, ailə cəmiyyətdən, dindən, dövlətdən, hüquqdan və digər oxşar təsisatlardan daha erkən və ilkin mərhələdə meydana gələrək, uzun bir təkamül yolu keçmişdir. Buna baxmayaraq o, elmi baxımdan yalnız sonralar tədqiq edilməyə və öyrənilməyə başlanılmış, başqa sözlə, bu, hazırda, sözün əsl mənasında, tarixi zərurətə çevrilmişdir.

Azərbaycan ailəsinin ənənəvi dəyərlərinin qorunub saxlanması və inkişafı müasir mərhələdə dövlətimiz qarşısında duran ən prioritet vəzifələrdən biridir. S.Həsənzadə qeyd edir ki, müstəqillik illərində Ulu Öndər Heydər Əliyev və onun layiqli siyasi varisi, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev ölkəmizdə ailənin dinamik inkişafı, ailə münasibətlərinin hüquqi tənzimlənməsi və konstitusiyada təsbit edilməsi sahəsində ardıcıl və sistemli tədbirlər həyata keçirmiş, bu gün sosial ailə dövlət qayğısı ilə tam əhatə olunmuşdur. Heydər Əliyev Fondunun prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyeva ailə, qadın və uşaq problemlərinin uğurlu həllinə daim böyük diqqət yetirmiş, əslində, onun hamisinə çevrilmiş və bu xeyirxah missiya bu gün də davam etdirilməkdədir.

"Ailəlogiya"da vurğulanır ki, ölkəmizdə ailənin kompleks öyrənilməsinə, onun aktual problemlərinin müəyyən olunmasına, bu problemlərin həll edilməsinə və ya aradan qaldırılmasına, onların uğurlu həllinə xüsusi önəm verilir. Bu baxımdan ailəlogiya elminin əhəmiyyəti zaman keçdikcə artmaqdadır. Bir sıra dövlət proqramlarında, xüsusilə elmin inkişafına dair layihələrdə, ailələrin kompleks elmi-nəzəri və təcrübi tədqiqi milli elmimizin qarşısında duran vacib prioritetlərdən biri kimi qiymətləndirilib. Bütün bunlara görə də Azərbaycan ailəsinin və nikahının məhz xüsusi bir elm - "Ailəlogiya" elmi tərəfindən kompleks tədqiqi, müasir dövrümüz üçün aktual və əhəmiyyətli hesab olunmalıdır.

"Ailəlogiya" kitabında diqqət çəkən əsas məqamlardan biri də tədqiqatlar vasitəsilə ailə ilə bağlı problemlərin üzə çıxarılması və həlli yollarının təklif olunmasıdır. Monoqrafiyada bildirilir ki, milli ailə modelimizin daha da təkmilləşdirilməsi, ailə və ailə münasibətlərində boşluq kimi qiymətləndirilə bilən bir sıra ziddiyyətlərin aradan qaldırılması vacibdir: "Əvvəllər boşanmalara fövqəladə bir hadisə, ailə və onun təmsil olunduğu nəsil üçün çox ağır, əskildici bir təzahür kimi baxılırdı. Bu gün isə belə hallar çox təəssüf ki, adi bir təzahürə çevrilmişdir. Tərəflərin boşanma haqqı və onun reallaşdırılmasına, guya insan hüquqlarının ifadəsi kimi baxılır, qadının və uşağın taleyinə isə faktiki olaraq biganəlik göstərilir. Məhz buna görə son illər ölkədə boşanma halları xeyli dərəcədə asanlaşmış, həm də çoxalmışdır. Ailənin qorunub saxlanılması üçün mümkün olan bütün tədbirləri təmin etmək üçün Ailə Məcəlləsinin bəzi maddələrində dəyişikliklər təklif olunub".

O da qeyd olunur ki, Elmi Müstəqil ailə məhkəmələrinin yaradılması da vacib və aktual səciyyə daşıyır. Ailə və ailədaxili münasibətlərin qorunması, ailə sirlərinin mühafizəsi, təcrübəli və ixtisaslı hakimlər tərəfindən, ailə və uşaq münasibətləri ilə əlaqədar olan mülki işlərə ixtisaslaşmış məhkəmələrdə baxılması, problemin həlli, ailə münasibətlərinin möhkəmləndirilməsinə, ailələrin qorunmasına əhəmiyyətli təsir göstərə bilər.

"Müasir ailənin strukturunda valideynlərin və uşaqların yeri və rolu nəzərə alınaraq, onların hər biri haqqında hüquqmüəyyənedici normaların hazırlanmasına və qəbuluna zərurət yaranmışdır", - hüquq elmləri doktoru Səidə Həsənzadə bu məsələlərə kitabda diqqət çəkir. Bu gün Azərbaycan ailəsində uşaqların sayının azalması, ailələrin dağılması, uşaqların dövlət himayəsinə verilməsi, münaqişələrin və ailə zorakılığının, yetkinlik yaşına çatmamışlar və qadınlar tərəfindən törədilən cinayətlərin artması bu sahədə problemlərin hələ də qaldığını təsdiq edir. Dünyada natamam ailələrin artması, tək analar institutunun çoxalması ciddi narahatçılıq doğurduğu halda, bu rəqəm Azərbaycanda ildən-ilə azalmaqdadır. Bu baxımdan ənənəvi Azərbaycan ailəsinin qorunub saxlanması, gənc ailələrin inkişafı hazırda dövlət siyasətinin əsas prioritetləri sırasında yer tutur.

"Ailəlogiya"da göstərilir ki, ailədə tərəflərin bir-birini başa düşməməsi, güzəştə getməməsi, sosial rollarını düzgün dərk etməməsi, məsuliyyətin əsaslarına laqeyd münasibəti, bütün bunların kimin xeyrinə həll ediləcəyi barədə tərəfləri dilemma qarşısında qoyur. Ailə münasibətlərində adətlərlə, ənənələrlə, vərdişlərlə həll edilə bilməyən mübahisələr, münaqişələr ailə zorakılığının hüquq müstəvisində, cinayət-hüquqi vasitələrlə həll edilməsinə gətirib çıxarır. Lakin bunun təzahürü onunla yadda qalır ki, münaqişə tərəflərindən kimsə, təqsirli şəxs məsuliyyətə cəlb edilir, ailələr dağılır və uşaqların taleyi arzuedilməz, ümidsiz bir vəziyyətə düşür. Budur, ailədaxili zorakılığın sosial-siyasi və psixoloji təhlilinin yekun nəticələri. Ailə zorakılığının sosial, siyasi və hüquqi təhlili əsasında, hər şeydən əvvəl, törədilmiş hərəkətlərin cinayət və ya inzibati xəta olub-olmamasını fərqləndirmək məsələsi, işin nəticəsi kimi özünü göstərir.

Buna görə də ailə zorakılığının sosial, siyasi və hüquqi təhlilinin obyektiv, tam və hərtərəfli aparılmasının mühim sosial-siyasi və hüquqi əhəmiyyəti vardır. Onun nəticələri, ailə zorakılığının təhlili, onun nəticələrinin aradan qaldırılması və profilaktikasının gücləndirilməsi üçün mühim elmi-nəzəri və təcrübi əhəmiyyət daşıyır. Hüquq elmləri doktoru Səidə Həsənzadə əminliklə bildirir ki, "Ailəlogiya" problemlərinin elmi-nəzəri təhlilinə və tədqiqinə həsr olunmuş monoqrafiya müasir elm tariximizdə ilk dəfə olaraq müraciət edilən mövzulardan biri olmaqla, müasir Azərbaycan cəmiyyəti, dövləti, ailəsi üçün mühüm əhəmiyyət kəsb edəcəkdir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN
№ 130 (9585) 25 iyun 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Azərbaycan beynəlxalq əməkdaşlıq platformasına çevrilir
COP29 dünyanın diqqətini respublikamıza yönəldəcək
"Terrorizmin bütün forma və təzahürləri ilə mübarizəni dəstəkləyirik"
"Bütün Dağıstan xalqına dərin hüznlə başsağlığı verirəm"
Dünya Bankı "Qlobal iqtisadi perspektivlər" hesabatını açıqlayıb
Azərbaycanda bu il 2,3, 2025-2026-cı illərdə 2,4 faiz iqtisadi artım olacağı proqnozlaşdırılır
Konstitusiya Məhkəməsinin Plenumu Milli Məclisin buraxılmasının konstitusiyaya uyğunluğu barədə Prezidentin sorğusuna baxacaq
Borel indi də hərbi canilərə azadlıq istəyir
2024-cü ildə ABŞ-da polis 545 nəfəri qətlə yetirib
Üzü "demokrat", astarı kolonial
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


26 İyun Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günüdür

# Sabahımıza bu gün sahib çıxaq

**Yaşadığımız cəmiyyətin ən ağrılı problemlərindən olan narkomaniya bəşəriyyətin bu günü və gələcəyi üçün böyük təhlükədir. O üzdən ictimaiyyətin diqqətini daim narkomaniya ilə bağlı problemlərə yönəltmək məqsədilə 26 iyun 1987-ci ildə Birləşmiş Millətlər Təşkilatının Konvensiyasına daxil olan ölkələrin "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Bəyannaməsinə əsasən, həmin gün "Narkomaniya və Narkotiklərin Qanunsuz Dövriyyəsinə qarşı Ümumdünya Mübarizə Günü" kimi qeyd olunur.**



Hazırda bütün dünya narkomaniyaya qarşı mübarizə aparır. Çünki narkomaniya cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə ciddi zərbə vurur, insanların sağlamlığına böyük təhlükələr törədir, cinayətkarlığın artmasına səbəb olur. Bu səbəbdən Ulu Öndər Heydər Əliyevin siyasətinin mərkəzində insan amili, ölkə vətəndaşlarının sağlamlıqlarının qorunması dayanırdı. Ümummilli Liderin imzaladığı, narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni gücləndirən "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" 1996-cı il 26 avqust tarixli fərman cəmiyyətimizi narahat edən bu sosial bəlaya qarşı mübarizənin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına münbit şərait yaratdı. Məhz bu fərman əsasında 2000-ci ilə qədər olan dövr üçün narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Milli Proqram hazırlandı, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradıldı. 1999-cu il iyunun 18-də isə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" qanun qəbul olundu. Bunların ardınca 2000-2006-cı, 2007-2012-ci və 2013-2018-ci illəri əhatə edən dövlət proqramları icra edildi. Hazırda isə Prezident İlham Əliyevin 2019-cu il 22 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" icra olunur.

Bu sosial bəlaya qarşı aparılan mübarizə sahəsində hüquqi məsələləri tənzimləyən qanunvericilik bazasının yaradılması və bu bazanın mövcud şəraitə və tələblərə uyğunlaşdırılması da Azərbaycan dövlətinin əsas fəaliyyət istiqamətlərindən biridir. Buna görə də tam inamla demək olar ki, hazırda dünyada narkomanlığa qarşı qətiyyətlə mübarizə aparan ölkələrdən biri də Azərbaycandır.

Narkotik yunanca "narke" sözündən götürülüb, mənası yuxu, huşsuzluq, cəzbetmə, ağılsızlıq deməkdir. Bu sözün ifadə etdiyi mənaya əsaslanıb demək olar ki, narkomaniya, sözün həqiqi mənasında, qorxulu, təhlükəli bir bəladır. Bu bəlaya bir dəfə düçar olan insanın sağalması çox çətin olur. Mütəxəssislərin rəyinə görə, narkotik maddələr mərkəzi sinir sisteminə spesifik təsir göstərir və tez bir zamanda asılılıq yaradır. Narkomaniya yaddaş və təfəkkürü pozur, real həyata laqeydlik yaradır, orqanizmin zəifləməsinə, daxili orqanların, xüsusən də qaraciyər və böyrəklərin funksiyasının pozulmasına səbəb olur. Narkomanlar içərisində ən geniş yayılmış xəstəlik hepatitdir. Bundan başqa, ən çox QİÇS virusuna yoluxanlar da narkomanlardır.

Təəssüf ki, bu gün narkotik aludəçilərinin əksəriyyəti gənc nəslin nümayəndələridir. Bu hal çox qorxuludur. Çünki gənclər hər bir xalqın, cəmiyyətin gələcəyidir. Elə isə gəlin, gələcəyimizi qoruyaq, onu narkomaniyaya qurban verməyək.

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***

# DSX və DTX-nin birgə keçirdiyi əməliyyat tədbirləri nəticəsində mütəşəkkil qaçaqmalçı qrupun üzvləri saxlanılıb

**Dövlət Sərhəd Xidməti və Dövlət Təhlükəsizliyi Xidmətinin (DSX) birgə keçirdikləri əməliyyat tədbirləri nəticəsində Xəzər dənizindən dövlət sərhədini pozmaqla Azərbaycan Respublikası ərazisinə külli miqdarda narkotik vasitəni keçirməyə cəhd göstərən mütəşəkkil qaçaqmalçı qrupun üzvləri saxlanılıb.**

DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildirilib ki, iyun ayının 25-də saat 00:17-də Sahil Mühafizəsinin Baş Komanda Nəzarət Mərkəzi tərəfindən Xəzər dənizinin Xızı rayonu ərazisində sahildən 500 metr məsafədə Şorabad qəsəbəsi istiqamətində sürətlə hərəkət edən 2 ədəd naməlum üzmə vasitəsi müşahidə edilib. Aşkarlanmış hədəflərin saxlanılması məqsədilə dövlət sərhədinin mühafizəsində olan sərhəd gözətçi gəmisi tərəfindən təqibetmə əməliyyatına başlanılıb, sahil nəzarəti bölmələri aidiyyəti üzrə məlumatlandırılıb və sahil xəttinin qapadılması üzrə təxirəsalınmaz tədbirlər görülüb.

Sahil Mühafizəsinin sərhəd gözətçi gəmiləri, o cümlədən sahil nəzarəti bölmələri tərəfindən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub hissəsinin şimal istiqamətində keçirilmiş əməliyyat-axtarış tədbirləri və uzun sürən təqiblər nəticəsində saat 02:48-də sərhədçilərin qanuni tələblərinə tabesizlik göstərərək narkotik vasitələri dənizə atıb ərazidən uzaqlaşmağa cəhd edən sərhəd pozucularının saxlanılması məqsədilə "Dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq silah tətbiq edilib.

Nəticədə layner tipli itisürətli üzmə vasitələrindən biri 2 nəfər heyət üzvü ilə birlikdə, ikinci üzmə vasitəsinin isə heyət üzvlərindən biri saxlanılsa da, digəri itkin düşüb.

Gəmi heyəti tərəfindən yaralı sərhəd pozucularına ilkin tibbi yardım göstərildikdən sonra ixtisaslaşmış tibb müəssisəsinə təxliyə ediliblər.

Araşdırma zamanı saxlanılan şəxslərin İran İslam Respublikası vətəndaşları Gülüstan əyalətinin Bender-Türkmən şəhər sakinləri 1984-cü il təvəllüdlü Behman Qasim, 1983-cü il təvəllüdlü Nuri Nurməmməd Bəhrəmxalid, 1984-cü il təvəllüdlü Rəhim Ounek Anna olduqları, dövlət sərhədini narkotik vasitələri qeyri-qanuni yolla ölkə ərazisinə keçirmək məqsədilə pozduqları müəyyən edilib.

Davam edən əməliyyat tədbirləri nəticəsində İran İslam Respublikasının mütəşəkkil qaçaqmalçı qrupunu qarşılamaq niyyəti ilə həmin əraziyə dənizin sahilinə gəlmiş Azərbaycan Respublikası vətəndaşları 1982-ci il təvəllüdlü Əliyev Elxan Nadir oğlu və 1976-cı il təvəllüdlü Məmmədova Esmira Gülağa qızı saxlanılıb.

Hazırda Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin sərhəd gözətçi gəmiləri və dalğıclar tərəfindən digər itkin düşmüş sərhəd pozucusu İran İslam Respublikası vətəndaşı 1985-ci il təvəllüdlü Həmid Vəkilinin və dənizə atılmış digər maddi sübutların axtarışı həyata keçirilir.

Fakt üzrə Baş Prokurorluqla birgə əməliyyat-istintaq və axtarış tədbirləri davam etdirilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Heydər Əliyev adına liseyin direktoru Sevinc Orucova və kollektivi AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru Vaqif Abbasova qardaşı

**MÜTƏLLİM MƏHƏRRƏM OĞLU ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və Aparat işçiləri Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, professor Hüseyn Qaraşova atası

**TAPDIQ QARAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Ortopedik stomatologiya kafedrasının professoru

**ZÖHRAB QARAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4477
Sifariş 1408

Qiyməti 60 qəpik